**Mir Cəfər Pişəvəri (Cavadzadə)**

# *Zindan Xatirələri Dəftərindən*

**Qaynaqlar**:

M. C. Pişəvəri. "***Seçilmiş əsərləri***". Azərbaycan ruznaməsinin nəşriyyəsi (1344.- 1965) . Toplayan , tərtib , tərcümə , və redaktə edən heyət: Əhməd Əminzadə , Təqi Musəvi , Hüsen Ciddi.

M. C. Pişəvəri . "***Seçilmiş əsərləri***". Toplayan , tərtib , tərcümə edən Əhməd Əminzadə , Təqi Musəvi , Hüsen Ciddi. redaktor Əmırəli Lahrudi1984 . Baki

***İnternet üçün hazırlayan: açıqsöz***

## İÇİNDƏKİLƏR

Zindan xatirələri dəftərindən

1309-cu il dey ayinin altisi

İlk istintaq

İki nömrəli həbsxananin beşinci otaği

Axtariş və təftiş

Adyutant yəzdi

Digər məhbuslarla rabitə

Görüş

Xainlər

Zindan casuslari

Zindanda qalmali oldum

Zindanin mənzərəsİ

Adli-sanli məhbuslar

Ölüm dalani

Müşir hümayun  (bələdiyyə rəisi)

Teymurtaş

Fərruxi

Əlimərdan xan Bəxtiyari və digər məhbuslar

Qaimməqam rəşti

Dəbir Əzəm və Dəşti

Sərdar Rəşid Kürdüstani

General leytenant Cahanbani

General leytenant Şeybani və başqa bir ağa

General-mayor Pesyan

Kazımın qatili Əbülqasım çörəkçinin etiraflari

Həqiqəti olduğu kimi demək,  yaxud ömürlük zindanda qalmaq

1310-cu il tarixli qanun

Əzab və işgəncə

Kürdlər və Lorlar

Digər məhbuslarla əlaqə

Acliq elani

İlk qurbanlar

Xəstənin danişmağa qüdrəti yox idi

Siyasi idarənin məmurlari

Aclarla necə rəftar edirdilər

Daha bir müvəffəqiyyətli kütləvi acliq elani

Məhbuslari necə öldürürdülər

Doktor Əraninin öldürülməsi xəbəri

Polkovnik Fuladi və onun yoldaşlari

Polkovnik Nəsrulla xan

Nə istədikləri məlum deyildi

Mayor Əlburzun təşəbbüsü

Seyid Fərhadin zindandan qaçmasi

Seyid Fərhadin yerinə kimləri həbs etdilər

Terrorçularin gizli təşkilati Musəvi və onun dostlari

Cahansuzi və başqa müttəhimlər

Terrorçularin mərmüz təşkilati -Erməni Yusif və onun yoldaşlari

Mərhum Kəmərei

Salar Zəfər Səncabi

Məhəmmədəli Rövşənin həbsə alinmasi

Dövlət əmlakini oğurlayib mənimsəyənlər

Danun və onun təsirləri

## Açıqlama:

«***Zindan Xatirələri Dəftərindən***» başlığı altında olan bu əsər əsas etibarilə Tehranda nəşr olmuş «***Ajir***» qəzrtinin 8 xordad – 29 dey 1322-ci il tarixli 107-8 nömrələrində, «***C. P.*** » Imzasilə və «***Dad***» qəzetinin 18 aban- 19 bəhmən 1321- ci il tarixli 70-24 nömrələrində «***Simürğ***» imzasilə dərc edilmişdir.

# ZİNDAN XATİRƏLƏRİ DƏFTƏRİNDƏN

Hadisələr və təsadüflər selinin yüksəkliklərə qaldırdığı «qəhrəman»* gözlənilməz bir fırtına nəticəsində batıb aradan getdi. O, əvvəldən tərəqqipərvər olmamışdır. Bulanlıq sudan balıq tutan və boşqab dibi yalayan bəzi adamların müddəası əksinə olaraq, cəmiyyətin bir çox sinifləri ilk gündən onun işlərinə şübhə və bədbin nəzərlə baxmış, əllərinə fürsət düşən vaxtlarda müxalif olduqlarını bəyan etməkdən çəkinməmişlər.

Kütlə və tərəqqipərvər adamlar aldanmamışdılar. Habelə ziyalı təbəqə və təcrübəli şəxslər də qabaqcadan, işin nə ilə qurtaracağını, qüllabi islahatın mahiyyətini bilirdilər. Onlar müxtəlif yollarla diktaturun qarşısını almaq istəyirdilər. Lakin təəssüflər olsun ki, qüdrət və silah mütərəqqi qüvvələrin əlindən çıxmışdı. Digər tərəfdən isə, bir dəstə məqampərəst ziyalı özlərini diktatura yapışdıraraq az-çox bir sıra aldadıcı işlər görürdülər. Əməldə isə bu işlər diktaturun adına tamam olurdu. Buna görə də onun hakimiyyəti və qüdrəti gündən-günə artırdı. İranlıların böyük bədbəxtliyi də həmin zəmin üzərində yaranırdı. Çünki diktaturun nüfuzu artdıqca, getdikcə tamahı da artıb sırtıqlaşırdı. Buna baxmayaraq o, öz vəziyyətindən xəbərdar idi. İran xalqlarını yaxşı tanıyırdı. Ətrafındakı adamların yaltaqlığını da hamıdan yaxşı başa düşmüşdü. O, hamının yalan satmağını bilirdi. O, bilirdi ki, ətrafındakıların hamısı riyakarlıq edir, hamısı istəyir ki, onun nüfuzundan, onun əmrlərindən istifadə etsin. Buna görə də o, hamıya şübhəli və bədbin idi. Öz səltənətini və var-dövlətini itirmək qorxusundan gözünə yuxu getmir və istirahət etmirdi. Qarşıya çıxa biləcək hər hansı bir hadisənin qarşısını almaq üçün özünün bütün qüdrətini işə salaraq, şübhəli adamları öz yolu üzərindən kənar edirdi. Bu tədbir təbii olaraq şübhə doğururdu. O, hiss edirdi ki, müəyyən nüfuzlu düşməni ortadan aparmaqla, özü üçün yüzlərlə başqa nüfuzlu düşmən törədir. Onun əxlaqını yaxşı öyrənmiş ləşyeyən yaltaqlar bu odu daha ətəkləyirdilər. Şübhə dairəsi genişləndikcə, axıdılan qanların sayı da artırdı. Bu iş müxtəlif şəkillərdə təzahür edərək böyük bir yanğın kimi yaş-qurunu öz kamına çəkib, onların hamısını yandırıb məhv edirdi. Bu dəhşətli işlərdən xalq az-çox xəbərdar idi. Biz isə-bütün on bir il ərzində zindanda qaldığımız müddətdə onun daha şiddətli kötəyinə məruz qalmışdıq. Qəddarlıqların bir çoxu bizim gözümüzün qarşısında həyata keçirilirdi.

Bizi mərkəzi zindanda saxlayırdılar. Böyükdən tutmuş kiçiyə qədər hamını oraya gətirirdilər. Xaricdə baş verən hər hansı pis hadisənin əsəri dərhal zindanda özünü göstərirdi. Qurbanlıqların bir çoxunu işin müqəddiməsini hazırlamaq məqsədilə buraya gətirirdilər. Həqiqətdə demək olar ki, biz edam olan şəxslərə məxsus intizar otağında mənzil salmışdıq. Nüsrətüddövlə, Teymurtaş, Fərruxi, Bəxtiyarilər, Mazandaran mülkədarları, Çahkutahi xanları, kürdlər və Lor xanları, siyasi partiyalara mənsub olan dəstələr və ayrı-ayrı üzvlər bütünlüklə bizim qarşımızdan gəlib keçirdilər.

«Qəsrin»** dastanı kədərli, dəhşətli, eyni zamanda oxunmalıdır. Təəssüflər olsun ki, mövcud vasitələrlə bu dastanı bütünlüklə təsvir etmək mümkün deyil. Biz bu xatirələrdə icbari olaraq onların bəzi qabarıq yerlərini nəzərə çatdırmaqla qənaətlənmişik. Həm də-hadisələri hekayə kimi şərh etsəydik çox uzun və yorucu ola

bilərdi. Buna görə də müvəqqəti həbs və istintaq günlərini göstərilən tərzdə qələmə alıb, qalan məsələləri isə ayrı-ayrı mövzular kimi qeyd edəcəyik. Bizcə bu uslub ilə həm xatirələr yorucu olmaz, həm də oxucu istədiyi bölməni asanlıqla tapıb istifadə edə bilər. Buna görə də qeyd etdiyim yazı səpki və eləcə də yeri gəldikdə qədim luğət və ibarələrdən istifadə etmək muəllif üçün icbari bir hal olmuşdur. Çünki qədim lüğətlərin yerinə, yaxşı adət etmədiyim təzə sözləri işlətmək üçün lüğət kitabına baxsaydım ehtimal ki, cümlələrin yazılmasında suni hallar meydana gələrdi. Beləliklə də xatirələr dəyərsiz bir hala düşərdi. Hər halda mən bu yazını kitab hesab etmirəm. O, müntəzəm bir xatirə və ya qeydlərdə deyil, bu yazılar demək olar ki, sadəcə olaraq gördüyüm hadisələrin təsvirindən ibarətdir. Burada yazılış, imla və mətləbləri olduğu kimi şərh etmək sahəsində də bir çox nöqsanlara yol verildiyini etiraf etməliyəm. Oxucu da yaddan çıxarmamalıdır ki, o, on bir il zindanda qalmış bir adamın yorğun və sarsılmış beyninin məhsulunu nəzərdən keçirir.

Bu xatirələrin müəyyən hissəsi əziz dostum ağayi Əmid Nurinin təşəbbüsü ilə mətin olan «Dad» qəzetində «Simurğ» imzası ilə «Zindandan Kaşanadək» sərlövhəsi altında çap olunmuşdu. İndi bu xatirələrin digər hissəsini redaksiya heyəti üzvlərinin təsdiq və məsləhəti ilə həmin nömrədən etibarən ardıcıl surətdə çap edəcəyik. «Fərruxi zindanda» və «Doktor Əraninin matəmi» adlı məqalələr də həmin xatirələrdən iqtibas olunmuşdur. Hörmətli «Nahid» qəzetinin bir və ikinci nömrələrində ardıcıl surətdə nəşr olunmuş «Zindan qurbanları» unvanlı məqalələr də həmin kədərləndirici xatirələrdən götürülmüşdür.

* Burada məqsəd 1304-1320 h.ş. (1925-1941) illərdə İran şahı olmuş Riza xan Pəhləvidir.

** Qəsr, yaxud «Qəsri-qacar» Tehranın şimali-şərində yerləşən zindandır.

## 1309-cu İL DEY AYININ ALTISI *

On bir il bundan əvvəl Dey ayının altıncı günü mənim üçün bir tarixi gün hesab olunur. Mən, 6, 1O, 9 tarixi günləri hələ indiyə kimi bir saat da olsun yaddan çıxarmamışam. O günkü hava şəraiti də lap bugünkü kimi nəzərimdədir. Yerlər buz bağlamışdı, bala-bala qar yağırdı. Şimran dağları uzaqdan ağ yumurta kimi görünürdü. Məhəmməd Ənzabi ** ilə nahar etdikdən sonra mənzildən çıxdıq. O günlərdə biz, . Qəvaməs-səltənə xiyabanındakı İntixabiyyə adlı küçədə yaşayırdıq. Ənzabi məndən ayrılıb öz evinə qayıdır. Mən də dostlardan biri ilə işim olduğu üçün onun evinə gedirdim. Qapının yanında biri birimizdən ayrıldıq. O, Qəvaməs-səltənə xiyabanına tərəf getdi. Mən isə sağa döndüm. Həman dəqiqədə nəyin haqqında fikirləşdiyim yaxşı yadıma gəlmir. Lakin həmişə olduğu kimi başımı aşağı salıb paltonun yaxasını qaldıraraq sürətlə irəliləyirdim. Küçə xəlvət və soyuq idi. Küçənin başında, sol tərəfə dönmək istədikdə qəflətən tanımadığım bir adam qarşıma çıxdı. O, yöndəmsiz libas geyinmişdi. Əlində əsa var idi. Qiyafəsi, çimçəşdirici, baxışları isə həyasız və füzul idi. Bu yöndəmsiz adamı görən kimi fikrimdə ona qarşı şiddətli nifrət oyandı. Onun xoşagəlməz səsi məndə bu nifrəti daha da artırdı.

- Ağa, sizin adız filan deyil? -deyə bu şəxs mənə müraciət etdi.

- Nə üçün özüdür ki, var! Sözünüz var idi?

Zahirdə ədəbli rəftar etmək istəyən, lakin ədəbsiz baxışları və gülüşü ilə alçaq niyyətini göstərən bu adam əlavə etdi:

- Ağa, şəxsən bəndənin sizə deməli bir sözüm yoxdur. Məni göndərmişlər ki, bir neçə dəqiqə «İttilaat idarəsinə» təşrif gətirməyinizi xahiş edim. Zənnimcə, sizdən kiçik bir söz soruşmaq istəyirlər.

Mən işin bu qədər də sadə olmayacağını başa düşdüm. Axı «İttilaat idarəsinin» indiyədək heç kəslə «azacıq» işi olmamışdı. Bu idarəyə girən adamlar isə heç də asanlıqla oradan çıxa bilməmişdilər. Əlacsız qalaraq dedim: Belə olduqda qayıdaq mən evə xəbər verim.

O, dedi: Buna ehtiyac yoxdur, tezliklə qayıdacaqsınız.

Mən başa düşdüm ki, polis dərsini əzbərləmişdir. Qaçmaq haqqında da heç fikirləşə bilməzdim.

Yəqin ki, o, tək deyildi. Digər tərəfdən mən özumü günahını öz boynuna almış Əkbər Sallaxın macərası haqqında təkid etməyərək polis ilə birlikdə yola düşdüm. Bu sadə, səssiz-səmirsiz bir dəvət ilə həyatdakı yeni dövrün başlanmasını hiss etdim və bildim ki, bir daha öz meylimlə könlüm istəyən yerə gedə bilməyəcəyəm, ixtiyarım başqalarının əlinə keçmişdır. Buna baxmayaraq, bu işin aqibəti haqqında hələlik məlumatım yox idi. Ayağımın altında birdən-birə açılmış uçurumun haraya gedib çıxacağını bilmirdim.

Pəhləvi dövrünün nəzmiyyəsi çox təhlükəli bir təşkilat idi. İşgəncə altında qatil Məhmudun günahını öz boynuna almış Əkbər Sallaxın macərası yadımda idi. Hacı Məhəmməd Baqır Gülpayəqaniyə basılmış dağ və biz yerlərini məhkəmə mövqeyində öz gözümlə görmuşdüm. Ondan zorla iyirmi neçə nəfəri öldürmək haqqında etiraf alındığını eşitmişdim. Bağşahda *** Həyata keçirilən qırğınlar nəzərə sığışmayıb şişirtmə kimi görünsə də, hər halda həqiqət idi. Azərbaycan və Xorasandakı kütləvi edamları, saysız-hesabsız siyasi şəxslərin yox olmasını heç də əfsanə hesab etmirdim. Yaxın dostum Hicazinin faciəli ölümünü yaddan çıxarmamışdım. Üç gün ondan əvvəl Fərruxi demişdi ki, ölkədən çıxıb getmək istəyir. Salar Zəfər Səncabi qaçmışdı. Həsən Purafər, Sərdar Müqtədir və Salar Nasir hələ də zindanda saxlanılırdılar. Bunlardan başqa minlərcə həbs, sürgün və edam hadisələri, habelə müxtəlif dövrlərdəki məhbusların xatirələrini oxumaq nəticəsində əldə etdiyim məlumat birləşərək, bir neçə dəqiqə ərzində məni çox dəhşətləndirdi. Lakin bu dəhşət və ürək döyuntusü dərhal aradan getdi. Ona görə ki, gizli polisin alçaq qiyafəsi məndə xüsusi bir qürur və təkəbbür yaratdı. Dərhal qərara gəldim ki, qarşıya çıxan hər hansı hadisə, hətta edam qarşısında belə özümü alçaq və zəlil göstərməyim. Qəsdən şahı, onun nazirlərini, diktatorluq üsuli-idarəsinin yazıçıları və başçılarını öz nəzərimdə canlandırdım. Onların hamısını öz qarşımda çox kiçik və alçaq gördüm. Buna görə də razı qalıb, özümü çox xoşbəxt hesab etdim. Öz-özümə qəti olaraq alçaq təbəqəyə mənsub olan polis qarşısında alçalmayacağam dedim.

Süpəh xiyabanında Ənzabi arxadan gəlib bizə çatdı. O, cəmiyyətin izdihamından istifadə edərək qabağa keçib, polisi tanıdığını və onun məqsədindən xəbərdar olduğunu müəyyən işarələrlə mənə başa saldı. Polisin gözləri yalnız monə dikilmişdi. O, mənim qaça biləcəyimdən qorxurdu. Buna görə də Ənzabinin hərəkət və işarələrinə fikir vermirdi. Biz isə bu vəziyyətdən istifadə edərək «təminat idarəsi»nin qapısınadək işarə ilə bir-birimizlə söhbət etdik. Orada isə məcburi olaraq təəssüflü gülüşlə vidalaşdıq.

Mən bilirdim ki, o, necə olursa-olsun tutulmaq xəbərimi bizim evə çatdıracaqdır. Buna görə də sakit ürəklə təminat idarəsi binasının pillələrindən yuxarı qalxdım. Orada polis məni kiçik bir otağa apardı. Üç böyük miz və bir sadə qəfəsə ilə ziynət verilmiş bu otaqda polis məni gənc bir kişiyə tapşıraraq çıxıb getdi. Sonralar həmin gəncin adının Rüfət olduğunu bildim. Məni gətirən polisi isə bu günədək ikinci dəfə görməmişəm.

“İttilaat idarəsi” **** və ya şöbəsi bugünkü böyük siyasi idarənin sələfi sayılır. Məzkur idarənin rəisi və ya rəis vəzifəsini ifa edən Ehtişam adlı qoca azərbaycanlı bir kişi idi. Zindanda eşitdim ki, mən tutulandan bir neçə il sonra o, iflic olmuş və başqa bir işə keçmişdir. Həbsə alındığım vaxtdan bir il sonra kütləvi surətdə yeməkdən imtina etdiyimiz ilə əlaqədar olaraq həmin Ehtişam adlı şəxslə ikinci dəfə görüşdüm. O, mənə söz

verdi ki, iki həftə müddətində təklifimi. müəyyənləşdirəcəkdir. Lakin həmin xatirələrin cərəyanından sizə məlum olacaq ki, bu iki həftə on il uzandı.

* 1930-cu il dekabr ayının axırları

** Məhəmməd Dadizadə Ənzabi İran Kommunist Partiyasının üzvü olmuş və zindanda vəfat etmişdi.

***. Bağşah Tehranda ordu hissələrinin yerləşdiyi yerin adıdır.

**** "İran təhlükəsizlik" idarəsidir.

# İLK İSTİNTAQ

Gün batanadək heç kəs mənimlə danışmadı. Otağın xəlvət olmasını gözləyirdilər. Ehtişam başını aşağı salaraq qarşısına qoyulmuş kağız və papkaları vərəqələyirdi. Rüfət avtomatik maşın kimi daima hərəkətdə idi. O, gedir-gəlir, oturur-qalxır və tez-tez diqqətlə mənə baxırdı. O, çimçəşdirici gülüşü ilə mənə istehza edirdi. Mən isə fikrə dalmışdım. Bu intizar iki-üç saat çəkdi. Mən büsbütün yorulmuşdum. Gecənin başlanması ilə əlaqədar beynimdə qara düşüncə və xəyallar qüvvətlənirdi. Nəhayət, saat altı radələrində qısa boylu, sarıbəniz, arıq bir kişi özünü şən göstərmək üçün süni təbəssüm ilə qapıdan içəri girdi. Rüfət işarə ilə məni ona tanıtdırdı. O, salam verdikdən və bir çox səmimi görüş və tanışlıqdan sonra mizin arxasında əyləşərək, mənə də öz qarşısında əyləşməyə icazə verdi. Bizim danışıqlarımıza heç kəs qulaq asmırdı. Həmin şəxs dərhal qiyafəsini ciddiləşdirib, mizin siyirtməsindən neçə vərəq rəsmi kağız çıxartdıqdan sonra adımı, familiyamı, nə işlə məşğul olduğumu soruşdu. Sonra o, artist kimi başını qaldırıb, gözlərini üzümə zillədi. O, öz fikrincə istəyirdi ki, gözlərimin içini oxusun. Mən çox çətinliklə gülməyimin qarşısını aldım. Çünki o, sadə bir məsələni sirli bir şəklə salmaq istəyirdi.

İlk vaxtlarda soyuqqanlılıq göstərdim. Lakin sonra yavaş-yavaş əsəbiləşməyə başladım. Öz-özümə deyirdim ki, daha istintaq üçün məzhəkəbazlıq lazım deyildir. Bu gənc də yəqin ki, bəzi polis və cinayi romanların təsiri altına düşmüş, hər şeyə şübhəli yanaşır və bütün bu məsələləri öz xəyal və təsəvvürü ilə həll etmək istəyir. Sonralar həmin fikrimin də yalnış olduğunu başa düşdüm. Mənə məlum oldu ki, bu ağa, hətta polisliyə dair romanları belə oxumamışdır. Onun hərəkətləri işlədiyi alçaq mühitin məhsulu imiş. Buna baxmayaraq, o, özünü ədiblər arasında sayırdı. Sözarası deyirdi: «hər şeyi yazmaq üçün vaxt tapa bilməmişəm».

O, Xozıstandan təzə gəlmişdi. Zahirdə hazırlıqlı adam kimi görünürdü. Lakin hamı onu fırıldaqçı, şarlatan kimi göstərirdi.

İstintaq mənimlə Əli Şərqinin arasındakı tanışlıq üstündə gedirdi. Füruzeş istəyirdi ki, onu adam öldürən, terrorçu, məni isə onu təhrik edən bir adam kimi göstərib, bu yol ilə hər ikimizin edam olunmamız üçün şərait hazırlasın. Şərqini məndən bir həftə qabaq tutmuşdular. Füruzeş onun öz günahlarını boynuna aldığını iddia edirdi. Mən dedim ki, bizi üzləşdirin, o, nə desə mən qəbul edərəm. Bu üzləşdirmə çox gülünc bir vəziyyətdə həyata keçirildi. Məlum oldu ki, hər ikimizi sadə bir anlaşılmamazlıq üzündən həbs etmişlər. Buna baxmayaraq, qeyd etdiyimiz ağa öz təsəvvürlərini həqiqi bir hadisə şəklinə salıb raport vermişdi.

Daha gülünc məsələ bundan ibarət idi ki, o, cavablarımı oxumadan altına qol çəkməyimi tələb edirdi. O deyirdi: -«Adam "Molla nüqəti" kimi nöqtələr üzərində təkid etməməlidir. Mən ki, sizə kələk gəlmək istəmirəm. Burada iki kəlmənin artıq və ya əksik olmasının nə əhəmiyyəti vardır».

Mən isə bilirdim ki, iş yoxlanılan zaman təqsiri ancaq bir kəlmə ilə sübut etmək olar. Məsələn, xeyr əvəzinə bəli sözünün yazılmasını götürək. Lakin mənim bütün bu xəyallarım tamamilə yersiz idi. Çünki məhkəmədə və hətta ədliyyədə belə, işlər yoxlanılmadı. Yalnız Füruzeşin raportu əsasında hökm çıxarıldı.

Təhqiqat sona çatdıqdan sonra o ciblərimi axtararaq qoltuğumdakı karandaş və kağız parçalarının hamısını götürdü. Bu, həbsə alınmaq əlaməti idi. Birlikdə otaqdan çıxdıq. O, yolda mənə dedi - Ağa, hamama gedən tərləməmiş çıxmaz.

Mən onun məqsədini başa düşmədim. Müstəntiqin maddi məqsədi olmasını xəyalıma belə gətirə bilmirdim. Lakin o, həmin məsələ üzərində təkid edirdi, ona görə də daha bir addım irəli ataraq açıq şəkildə dedi: Ağa siz bizə kömək etməlisiniz.

Təəcüblə dedim: - Sizə nə kimi kömək göstərə bilərəm? Mən də sizin kimi azacıq maaş alıram və bununla öz əhl-əyalımı idarə etməliyəm. Mənim pulum haradadır?

Fikir edirdim ki, o, bəlkə də məni sınamaq istəyir və yaxud istəyir ki, bu vasitə ilə sübut üçün müəyyən bir sənəd əldə etsin. O, təcrübəli və məharətli idi. Mənim mənfi cavabımı eşitdikdə gülüb dedi: Siz mənim məqsədimi yaxşı başa düşmədiz. Mən istəyirdim ki, siz məsələnin üstünün açılmasında bizə yardım edəsiniz. Bu zaman biz müvəqqəti həbsxananın qapısına çatmışdıq.

## İKİ NÖMRƏLİ HƏBSXANANIN BEŞİNCİ OTAĞI

Nəzmiyyənin məşhur dalanı altında yerləşən bu qapının dəhşətli bir görünüşü var. O, alçaq, qaranlıq və sehrli görünürdü. Füruzeş qapının zəngini çaldı. Kök və enlikürək bir polis nəfəri ilk dəfə qapının ortasındakı kiçik deşikdən başını çıxararaq Füruzeş ilə salamlaşdı. Sonra qapını açaraq məni təhvil aldı. Qapı bağlandı.

Polis yaşlı bir adam idi. Sonralar onun familiyasının Dəbir olduğunu bildim. Savadı yox idi. Deyirdi ki, düz iyirmi beş ildir həbsxanada qulluq edir. O, qorxaq, inzibatçı və tam dindar bir adam idi. Özündən dörd qat kiçik olan arvadını həddindən artıq sevir və ona az qala sitayiş edirdi. Uşağı yox idi. Söz düşəndə deyirdi ki, arvad mənim həm atam, həm anam, həm uşağım, həm dostum, həm tanışım, bir sözlə hər şeyimdir.

Məhbuslar onu incitmək istədikdə arvadına nifrin edərdilər. Dəbir sözbaşı «Əstəğfurullah la ilahə il-ləllah» deyərdi.

Həbsxananın dəhlizində o, ilk dəfə ciddi bir baxışla məni başdan-ayağa süzərək başa saldı ki, daha azadlıq və müstəqillikdən göz örtməliyəm. Bura zindandır. Buraya gələn hər bir adam öz təklifini anlamalıdır, öz iradə, meyl və ixtiyarını bir kənara tullamalıdır. Sən də mənim əlimə tapşırılmısan, başa düşməlisən ki, səninlə könlüm istədiyi kimi göstəriş və poladdan möhkəm qayda qanunlarına tabe edilmişəm. Mən onların göstərişlərini iradəsiz bir maşın kimi həyata keçirirəm. Əgər ürəyim, hisslərim, vicdanım və kişiliyim varsa, da, onlarıp hamısını zindandan xaricdə qoymuşam. Məndən kişilik gözləməməlisən.

Məhbusların baxışı, oranın çimçəşdirici, üfunətli qoxusu, tüstü basmış fənər, sınmış miz və səndəllər, çirk divarlar, hündür tavan, möhkəm qapılar, bir sözlə bunların hamısı nifrətləndirici, kobud və çirkin idi. Bu dəhşətli mühiti gördükdə bir daha ruhum sıxıldı, ürəyim tutuldu, başım gicəlləndi. Neçə dəqiqə bundan əvvəlki qürur və təkəbbürümü əldən verib, özümü zəif və yorğun hiss edərək, çox təəssüfləndim. Dəbir

mənalı bir baxışdan sonra irəliyə gəlib ciblərimi, qoltuqlarımı, bir sözlə hər yerimi yoxladı. Saatımı, qayışımı, qalstukumu, corabbağılarımı, nəhayət, libasdan başqa hər nəyim var idisə alıb mizin üstünə qoydu. Mizin arxasında heykəl kimi dayanmış uca, üzü çopur başqa bir polis adımı və familiyamı, işimi soruşub qeyd dəftərində yazaraq dedi: «Şeyləriniz üçün sabah qəbz veriləcək».

Həmin qəbz üzərində 9.10.6 tarixi qeyd olunmuşdu. Bu mərasimdən sonra Dəbir ilə birlikdə yola düşüb ayrı bir qapı qarşısında dayandıq. Bu qapı da əvvəlki qapı kimi dəhşətli bir səslə açılıb, sonra bağlandı. İndi daha keçilməz qapı vasitəsi ilə azad dünyadan uzaqlaşmışdım. Məyusluq, pərişanlıq yenidən mənə hücuma başladı. Yeni daxil olduğumuz yer daha qaranlıq və daha qorxulu idi. İlk baxışda böyük, qaranlıq bir koridorda olduğumu fikirləşdim. Dəbir əlində fənər tutaraq qabaqda irəliləyir, mən isə onun ardınca gedirdim. Nifrət və bədbəxtlik hissləri hər şeyə maraq göstərən hisslərimə qalib gəlirdi. Halım pərişan idi. Başımı aşağı salaraq iradəsiz surətdə irəliləyirdim. İlk döngəni çönən zaman çox şən tanışlarımdan birinin səsini eşitdim. Bu səs mənə təkan verdi. O dedi: «Ah gətirdilər: Ağanı da gətirdilər!» Bu səsi mən çox yaxşı tanıyırdım. O... in səsi idi. Bu ana qədər mən demək olar ki, onu görmək ehtimalından başqa, bütün məsələlər haqqında fikirləşmişdim. Lakin bu səs də məni təəcübləndirmədi. Çünki onun da tutulması haqqında xəbərim var idi. O, uca səslə gülür və iki-üç nəfərlə sanki söhbət edirdi. Həqiqətdə isə bununla öz fikrini mənə çatdırmaq istəyirdi. O, istəyirdi ki, məno ürək versin, bir qədər məni ruhlandırsın. Yeni zindana gəlmiş bir məhbus üçün bu təsəlli böyük nemət sayılır. Bununla insan dərhal fikirləşir ki, tək deyil. Əgər bir ittifaq baş versə heç olmasa onu dost və qohumlarına çatdıran adamlar vardır. Həmin dostun səsini eşitdikdə bütün qorxu və ürək çırpıntıları məhv olub getdi. Yenə də neçə dəqiqə bundan əvvəlki qürur və mətinlik ruhiyyəm qüvvətləndi, ürəyim şad oldu. Beşinci otağın qapısına çatdıq. Çox dar və qaranlıq dalana açılan bu qapının dəmir məcərləri və dəhşətli görünən böyük bir qıfılı var idi. Dəbir qapını açdıqdan sonra onun üzbəüzündə qoyulmuş dəmir çarpayını göstərərək dedi: «Bu sənin çarpayın dır, yerindən tərpənməməlisən. Elə oturmalısan ki, mən qapının deşiypndən baxanda səni görə bilim. Ayaqyolu isə arxada yerləşir. Su istəyəndə qapını döyərsən gətirərlər».

Bu sözlərdən sonra o, fənərini götürub dəmir məcərli qapını bağladı. Qıfılı vurub, çıxıb getdi. Çox pis qoxu gələn bu soyuq və qaranlıq otaqda tək qaldım. Otağa girən zaman fürsətdən istifadə edərək öz təzə mənzilimi və oradakı əşyaları diqqətlə nəzərdən keçirmişdim. Çarpayıdan və onun üzərindəki yorğan-döşəkdən istifadə etmək olmazdı. Çirkli yorğan-döşəyin iyindən adamın ürəyi qalxırdı. Adam, hətta onun üstündə əyləşməyə belə çimçəşirdi. Əlacsız qalaraq otaqda gəzişməyə başladım. Otağın uzunluğu beş addım, eni isə təqribən üç addım idi. Bu isə dolanmağım üçün kifayət edirdi.

Çarpayı haqqında iki kəlmə də olsa yazmaq lazımdır. O, elə qayrılmışdı ki, istirahət əvəzinə insana əziyyət verirdi. Yoğun dəmirləri adamın bədənini əzirdi. Lakin hər halda çarpayı idi. Üstündə də qeyd etdiyim yorğan-döşək var idi. Bunlar İşveçrə muşavirlərindən yadigar qalmışdı. Mövcud üsuli-idarənin cəlladları hələ də onlardan istifadə edirdilər. Lakin son vaxtlarda, yəni mənim tutulduğumdan on il sonra, biz mərkəzi zindanın zahirən çox yaxşı görünən binasının otaqlarında çürümüş kilimlərdən başqa ayrı bir əşya görmədik. Məhbuslara hətta, kuzə və su qabı da vermirdilər. On nəfər məhbus bir çürümüş ədyalın altında yatırdı.

Hər halda beşinci otaq o gün mənim üçün çox qorxulu və dəhşətli görünürdü. Oranın adını biz tərsə-quyu qoymuşduq. Ona görə ki, otağın ucalığı səkkiz-on metr olardı. Divarlar yuxarı qalxdıqca daralırdı. Onun qara kədərli, kələ-kötür divarları, sökülmüş kərpicləri, dəhşətli bir divin dişlərini xatırladırdı. Deyildiyinə görə iki nömrəli müvəqqəti həbsxana Yeprem dövründə silah anbarı olmuş, kiçik dəyişiklikdən sonra daimi zindana çevrilmişdir. Otaqların üstündə böyük günbəzlər var idi. Hamam günbəzləri kimi onların da ortasında kiçik, abı rəngli şüşə qoyulmuşdu. Xoşbəxtlikdən beşinci otağın şüşəsinin qıraqı sındığı üçün xaricə balaca bir deşik açılmışdı. Həmin deşikdən qar və yağışın bilavasitə yatdığı yerə töküldüyünə

baxmayaraq, hər halda oradan hava gəlirdi. Günortaya yaxın oradan günəşin zəif şüaları zindanın daxili mühitini işıqlandırır və bununla ürəyimi xarici dünya ilə əlaqələndirirdi. İki nömrəli müvəqqəti həbsxanada iyirmi bir ədəd eyni şəkilli otaq və biri-birinə yolu olan iyirmi bir ayaq-yolu var idi. Onların hamısının kanalı beşinci otağın altından keçir və ümumi ayaq yoluna çatırdı. Bunların iyrənc qoxusu həmin kədərli otağın öz iyi ilə birləşərək havanı büsbütün zəhərləyirdi. Bu vəziyyət elə ağır idi ki, mən bəzən əlacsızlıqdan ayaq yoluna qaçıb orada olan kiçik deşikdən hava almağa çalışırdım. Bəzən də ağzımı qapıdakı deşiyə yapışdırıb çöldən hava sormağa can atardım.

Buradakı ağcaqanadlar daha pis vəziyyət törətmişdi. Onlar lap qışın çilləsində belə, adamı rahat qoymurdular. Pıspısalar, siçanlar da rahat oturmayaraq lazımı xidmət göstərirdilər. Ağcaqanadlar bir cür və yorucu səslər ilə qarışıq bir orkestr təşkil edir, pıspısalar və sıçanlar isə atılıb, düşüb oynayırdılar. Bu haqda mənim fikirləşməyə kiçik imkanım belə yox idi.

Dəbirin çıxıb getməsi ilə başıma min çür xəyal və dəhşətli fikirlər hücum etməyə başlamışdı. Daima gəzişir və öz düşüncələrimi müəyyən nöqtədə toplamağa çalışırdım. Bu tərsquyuda nə vaxtadək qalacağım barədə düşünürdüm. Fikirləşirdim ki, ailəm nə vəziyyətdədir? Görəsən Ənzabi evimizə xəbər çatdırdımı? Mənimlə dostluğu onun üçün gələcəkdə çətinlik törədəcəkmi? İndi bir çox məsələ onun üçün aydın deyildir. Bəlkə də çoxlu yeni şeylər kəşf edibdir: Axı, o, çox məğrur idi. Məndən başqa heç kəsin sözünü qəbul etməzdi. Yazıq yəqin ki, indi qüssə edəcəkdir. Bəlkə də korlanıb aradan getdi. Bu qış fəslində o, haradan kömür və azuqə tapacaqdır. Beləliklə, fikirlər məni get-gedə bədbinliyə doğru yönəldib, hər an daha gözümün qarşısında qorxunc hadisələr canlanırdı. Çünki, Hicazini öldürmüşlər, Mahmud qatilin əvəzinə Əkbər Sallaxa işkəncə vermişlər. (C.) deyir: məni nə üçün altı aydı zindandan buraxmayırlar? Axı, mənim canımdan nə istəyirlər? Yazıq Əli Şərqini nə üçün həbs etmişlər? Deyirlər ki, hamı casus olmuşdur. Adamlar hətta, öz arvad-uşaqlarına da etibar etmirlər, bəzi adamların yanında bəlkə ağzımdan müxalif söz qaçırmışam-deyə düşünürdüm.

Hər dəqiqə artmaqda olan bu müxtəlif fikirlər məni incidirdi. Hava çox soyuq idi. Bir tərəfdən külək əsirdi. Zindanda bədbəxt məhbusların naləsindən, uca və həmahəng səslərdən başqa ayrı bir səs eşidilmirdi. Mən çox əsəbiləşmişdim. Hətta öz həyatımdan belə doymuşdum. Bu əzabverici fikirlərdən necə xilas olacağım haqqında düşünürdüm. Birdən-birə neçə illər bundan qabaq siyasi məhbuslardan birinin haqqında oxuduğum xatirələr yadıma düşdü. Bu xatirələr zindan dövrünün sonunadək tam mənasında mənə təskinlik verən və yol göstərən amilə çevrildi. Təsadüfi olaraq həmin xatirələri oxumasaydım və yaxud onlar mənim yadıma düşməsəydi, bəlkə də digər dostlarım kimi mənə də zindan mühiti qalib gələrdi, onlar kimi məni də öldürüb aradan aparardı.

Bir qayda olaraq zindan həmişə məhbusla döyüşür. Əgər məhbus öz ruhiyyəsini möhkəm saxlayarsa zindan gündon-günə zəifləyir, məhbus əzab və əziyyətə, aclıq və fəlakətə adət edir. Zindan mühiti insana qalib gəldiyi, məhbus qorxunc düşüncələr qarşısında təslim olduğu təqdirdə zindan onu məhv edib aradan aparır. Zindana düşməmiş adamlar uzun müddət məhbus olmuş bir adamın bu sözlərini çox çətin dərk edə bilərlər. Mən özüm də məhbusluq dövrünün altıncı ilinədək Məsud Səd Səlmanın* aşağıdakı şerinin mənasını olduğu kimn başa düşməmişdim. Bəli zindan muhiti qalib gəldikdə insanın himməti alçalır, onun iradəsi aradan gedir, özü isə alçaq və kiçik görünür.

Axı vaxtı ilə oxuduğum zindan xatirələri haqqında yazmaq istəyirdim. Həmin xatirələrin məzmunu təqribən belədir:-«Birinci gecə otağıma daxil olan zaman çox qorxurdum. Burada özümü yazıq və tək hiss edirdim. Həyatdan, gələcəkdən məyus olmuşdum. Gecəni səhərədək yatmadım. Səhər yuxarıdakı kiçik deşikdən içəriyə düşmüş zəif işıqdan istifadə edərək məhbusların bir qayda olaraq divarlarda yazdıqları xətləri və

yadigarları oxumağa başladım. Təsadüfən yüzlərlə naqis qeydlər daxilində aşağıdakı yazı diqqətimi cəlb etdi. «Mən siyasi məhbusam, bu qaranlıq quyuya atıldığıma fəxr edirəm. Nə üçün məyus olum? Ey buraya düşən siyasi şəxsiyyətlər siz də məyus olmamalısınız. Sən böyük adamsan. Hökumət səni həbsə almaqla öz zəif və acizliyini etiraf etmişdir. O, səndən qorxmuş və həmin qorxduğuna görə səni çəkib buraya gətirmişdir. Sən də mənim kimi fəxr elə, sən də mənim kimi gələcəyə ümid gözü ilə bax».

Yadıma düşən bu hərarətli cümlələr yorğun beynimə nəvaziş verdi. Zəif ruhumu yorğunluqdan xilas edib, onun ardınca bir sıra mənəvi xülyalara, yüksək fikir və düşüncələrə daldım. Bunların təsiri nəticəsində də müvəqqəti törənmiş zindan qorxusu bütünlüklə məhv olub getdi.

Sabahı gün hamıdan əvvəl Həsənpur mənim sorağıma gəldi. Polis üçün qoyulmuş kiçik yoxlama deşiyindən salam verib halımı soruşdu. Bu, məni daha çox sevindirdi. O, xoşsifətlə və sakitcəsinə dedi: «Qorxma, iki üç gündən sonra bu qapını açacaqlar, sən də azad olacaqsan. Doktor yanına gələndə ona deyərsən ki, xəstəyəm, ürəyim çırpınır, heç olmasa otağımın qapısını gündə bir neçə saat açıq qoysunlar. Mən onun cavabında dedim: «Həsən! işimiz belə yerə gəlib çatacağını xəyal etmirəm. Özün bilirsən ki, mən bir iş görməmişəm».

Həsən gülərək dedi: «Sənin fikrincə məgər biz bir iş görmüşük? Bir də nə üçün tələsirsən? Sən ki, bütün ömrün boyu hətta bir saat da dincəlməmisən. Ye, yat və filankəs də buradadır. Onu saray nazirinin əmri ilə Həmədandan qolubağlı buraya gətirmişlər. Düz səkkiz aydır ki, sorğu-sualsız saxlanılır. Bu müddətdə hətta, adını da soruşmamışlar. Səndən nə soruşdular? Labüd müstəntiqin Füruzeş olmuşdur. Savadsız və fırıldaqçı bir adamdır. Heç onun siyasi məlumatı da yoxdur, Çalameydanın lotuları kimi fikirləşir.

Mən də bir çox sözlər demək istəyirdim. Lakin fürsət olmadı. Gözətçi uca öskürtüsü ilə zindanbanın gəlməsini xəbər verdi. Həsən ayaqyoluna getmək bəhanəsi ilə qapının qarşısından uzaqlaşdı. Gözətçi xüsusi bir adamın adı deyildir. Məhbuslar həbsdə tək saxlanılan adamlarla danışmaq üçün bir nəfəri yolun üstündə gözətçi qoyurlar ki, zindanban gələndə xəbər versin. Buna zindanda (didəban) deyirdilər.

Ehtiyac qəribə bir şeydir. O, hər hansı bir mövqedə öz təsirini göstərir. Məhbuslar da ehtiyac üzündən özlərinə xüsusi qayda-qanunlar düzəltmişdilər. Həmin qayda-qanunları da ciddi surətdə gözləyirdilər. Məsələn, mənim beşinci otağa gəldiyim saatda dərhal məndən papirosa, tiryəkə ehtiyacımın olub-olmadığını soruşdular. Mən isə bu cəhətdən çox rahat idim. Ona görə ki, ömrümdə heç bir şeyə adət etməmişdim.

Üçuncu gecənin əhvalatını heç vaxt yadımdan çıxara bilmirəm. Təxminən gecə yarısı idi. Bir nəfər isə sanki pişik ilə danışırdı. Səs eşidən kimi dayandım. Səs düz otağımın qapısı dalından gəlirdi. O, deyirdi: «Ey pişik səninləyəm! Bilirəm ki, yuxun gəlmir, ayıq ol, gözlə başına papaq keçirməsinlər. Təminat işçiləri çox pis adamlardırlar. Ey heyvan səninləyəm! Sən gözə çox fəqir görünürsən. Bunlar vicdan, allah və peyğəmbərin nə olduğunu bilmirlər. Gözlə, onların yalan and içmələrinə birdən inanarsan ha. Ay pişik səninləyəm! Sədinin bu hekayəsini yəqin ki, dəfələrlə eşitmisən. Orada deyilir: «səndən soruşulmayan suala cavab vermə. Səndən istənilməyən şeyi göstərmə. Pişikcığazım səninləyəm! Gözlərini yaxşı aç. Polis idarəsində söhbətlər «yox» ilə başlanır. «Bəli» dedikdə daha xilas ola bilməyəcəksən.

Bu sözləri deyən adam həmin vasitə ilə mənə yol göstərmək istəyirdi. Bu adam zindanı təmizləyən idi. O, məşhur və zirək oğrulardan biri sayılırdı. Buna baxmayaraq o məhbusluq təəssübünü yaddan çıxarmayır və iki-üç saat müddətində pişik adı ilə mənə nəsihət verirdi.

Şübhə yoxdur ki, adi məhbusların hamısı bu cür deyildi. Onların daxilində nacins, zərərli və mərdümazarlar da tapılır. Belə adamların bir çoxu casusluq və xəbərçilik edərək azacıq tiryək yanığı, iki yumurta və sair əhəmiyyətsiz şeylər almaq xatirinə digər məhbuslara kələk düzəldirdilər. Bunlardan başqa, bir çox hallarda

polis idarəsi öz işçilərini də müxtəlif bəhanələr altında zindana göndərirdi. Məhbuslar bir qayda olaraq əsəbi, yorğun, cana gəlmiş və dünyadan bizar olmuş adamlardırlar. Onları məşğul edən və başlarını qatan bir şey yoxdur. Ürəkləri darıxır. Onlar istəyirlər hər hansı yol ilə olursa-olsun öz başlarını məşğul etsinlər. Nifrət və kədər hisslərini söndürsünlər. Buna görə də əlacsızlıqdan çoxlu danışırlar. Adamların dalınca pis sözlər deyirlər, söyüş verirlər, nifrin və nalə edirlər. Həbsxanada çox qalmaq istəməyən müfəttiş isə həmin fürsətdən istifadə edərək məhbusların əsəbilik üzündən dedikləri sözlərini sənəd kimi qələmə verərək onlara min cür rəng verir və ali rütbəli rəislərinə çatdırır. İstintaqçılar isə bu cür yalançı raportları özləri üçün böyük kəşfiyyat hesab edərək daha yüksək rütbəli rəislərə yetirir və bütün bunların nəticəsində yazıq məhbus heç bir məqsədi olmadan dərin bir quyuya düşür. Fərruxinin ölümü buna parlaq misaldır. Bu barədə sonra ətraflı surətdə bəhs edəcəyik. Bir gün mən gecə gördüyüm yuxunu məhbuslara danışmışdım. Bunu, dərhal Füruzeşə çatdırmışdılar. Polis idarəsinin məmurları bu məsləni bizdən gizlətmirdilər. Əksinə, onlar həmin vasitə ilə məhbusların gözünü qorxutmaq və bununla da bir ox ilə bir neçə nişan vurmaq istəyirdilər. Polis idarəsinin məmurları bu yol ilə məhbusları dərindən öyrənir, onları daha da qorxudub aralarına təfriqə salaraq biri-birinə qarşı şübhə doğururdular.

* Naləm ze del ço nay mən əndər Hesar Nay, Pəsti gereft hemməte mən zin bolənd cay «şerini xatırladır. Məsud Səd Səlman hündür və əlçatmaz yerdə olan «Nay» qalasında həbs olan zaman həmin şerini yazmışdır. Onun tərcüməsi belədir: «Nay» qalasındakı ney kimi ürəkdən nalə edirəm. Mənim himmətim bu hündür yerdə alçaldı».

# AXTARIŞ VƏ TƏFTİŞ

Zindanın birinci gecəsi müxtəlif qorxu və yorucu duşüncələrlə başa çatdı. Səhər Həsən qapıdan uzaqlaşdıqdan sonra Dəbir gəlib dedi: Sizi istəmişlər.

Tək saxlanılan məhbusları bir qayda olaraq adları ilə çağırmırdılar. Polis istəmirdi ki, zindandakı məhbuslar onları tanısın və yaxud xaricdə bir adam əhvalatdan xəbərdar olsun. Buna görə də mənim adımı «beşinci otaq» qoymuşdular.

Zindan qapısının xaricində ittilaat idarəsindən göndərilmiş iki nəfər polis dayanıb məni gözləyirdi. Dəbir məni onlara təhvil verib, bu haqda ondan yazılı kağız aldı. Polis idarəsinin böyük qapısından çıxıb evə tərəf yola düşdük. Ağalar mərhəmət göstərərək mənim hesabıma fayton çağırdılar.

Ənzabi tutulmağımı evə xəbər vermişdi. Evdə Daryuşu[1] çox nigaran və qorxulu vəziyyətdə gördüm. O, gah mənə, və gah da mənimlə gəlmiş adamlara baxırdı. Ağalar axtarışa gəlmişdilər. Onların içərisində nisbətən gənc görünən polisin farsca savadı var idi. Nisbətən ağıllı və ədəbli idi. Digəri isə tam savadsız idi. Yerləri həddindən ziyadə nəzərdən keçirdilər. Hər bir deşiyə dəfələrlə başlarını soxdular, hər yeri axtardılar. Əllərinə geçən şeyləri yüz dəfə yoxlayır, sonra isə tam etinasızlıqla bir kənara atırdılar. Hətta, uşaq oyuncaqlarını belə yoxlayır, uşağın gözü qarşısında sındırır, yerə tökür və təpik altına salırdılar. Uşaq isə danışmırdı. Sanki o, heyrət və təəcüb dənizində qərq olmuşdu. Daha hər vaxtda olduğu kimi diliuzunluq etmirdi. Polislər dedilər ki, fars dilindən başqa bütün ayrı dillərdə yazılmış kitabları yığıb aparmaq haqqında onlara göstəriş verilmişdir. Bu işdən nə məqsəd daşımaları məlum idi. O vaxt ittilaat idarəsində xarici dilləri bilən məmur yox idi. Buna görə də başqa dillərdə olan bütün kitabları polis idarəsinə aparmalı olurdular.

Evdə axtarış aparılan zaman altı yaşlı uşaq və onun qarı dayəsindən başqa evdə heç kəs yox idi. Mən son dəfə olaraq oğlumla miz arxasında əyləşmək istədim. Uşağın nənəsi çay gətirdi. Uşaq bir az cəsarətlənərək mənə tərəf əyilib anasının evdə olmamasının səbəbini yavaşca məlumat verdi. Mən belə xəyal etdim ki, o

anasının göstərişi əsasında mənimlə bu cür ehtiyat ilə danışır. Sonralar isə məlum oldu ki, bu haqda uşağa heç bir tapşırıq verilməmişdi. O, özü qanmışdı ki, atasını evə qayıtmağa qoymayan sevimli oyuncaqlarını sındırıb dağıdan biganə adamların yanında uca səslə danışmamalıdır. Qüssə və kədərin şiddətindən istər mən, istərsə də uşaq heç bir şey yeyə bilmədik. Yalnız bir fincan çay içdikdən sonra mən ayağa durdum. Vidalaşma zamanı uşağın gözləri dolmuşdu. O, məni kədərləndirməmək üçün ağlamaq istəmirdi. Eyni zamanda həmişə dediyi: «Ata can evə tez qayıt» sözünü də təkrar etmədi. O, sanki çox kədərli və məhzun bir həyatın başlanmasını, öz atasının əldən getməsini hiss etmişdi.

Axtarış qurtardıqdan və kədərləndirici vidalaşma sona çatdıqdan sonra, uşaq işin gedişini hiss edib, kitabları daşıyaraq faytonun içinə tökdü. Onları ittilaat idarəsinə gətirdik.

Fürüzeş bizi tam səbirsizliklə gözləyirdi. Qiymətli kitabları gördükdə onun gözləri parıldadı. Bəlkə də onların hamısının «zərərli kitablar» olduğunu güman edirdi. O, biz gələn kimi dərhal işə başladı. Üzünü yanında oturmuş zabitə tutaraq dedi: «Buyurun, sizin növbəniz çatmışdır. Mən qoşun və polis idarəsi işçilərinin dərəcələrini hələ də ayırd edə bilmədiyim üçün qeyd olunan zabitin nə rütbədə olduğunu deyə bilmirəm. Bu qədər başa düşdüm ki, o rəştli idi. Fürüzeşin özü də boş dayanmayaraq kitabları alt-üst etməyə başladı. Hərəkətindən, onun xarici dilləri bilməməsini anladım. O, yalnız şəkillərdən və tablolardan bir şey anlamağa çalışırdı. Təsadüfən kitablarımın içərisində fars dilində yazılmış çox kiçik bir kitabça var idi. Bu Tolstoyun çox adi kitabçalarından biri idi. Seyid Əbdürrəhim Xalxalinin xarici dildən tərcümə etdiyi həmin kitabçanın başlığında «Biri-birinizə yaxşılıq edin» cümləsi yazılmışdı. Onun üstündə Tolstoyun adı olduğuna görə polis şübhələndi. Bu hərəkət nəticəsində məni gülmək tutdu. Zərərli kitaba baxın! Nə qədər də təhlükəli adı vardır? «Biri-birinizə yaxşılıq edin»!!... Ağa üzdən getmədi. O, kitabçanı axıradək yoxladı. Öz qəlbimdə dedim-şükür olsun ki, ağa xarici dilləri bilmir, yoxsa Darvinin «İnsanın mənşəyi» kitabı haqqında, rus ensiklopediyasının müxtəlif cildləri haqqında, digər tarixi və fəlsəfi kitablar haqqında nələr edərdi.

Polis zabiti isə nəzərə sadə bir adam kimi görünürdü. Onun fransız və ingilis dilində yazılmış kitablarla işi yox idi. O fəqət rus dilində yazılmış kitablara baxırdı. Zabit rus dilinin ancaq əlifbasını bilirdi. Daha çox şübhələndiyi rus kitablarını ayırd edə bilmirdi. Bu isə yaxşı hal idi. İlk növbədə xarici dillərdə yazılmış kitabları ayırıb bir kənara qoyduq. Mən bir rahat nəfəs aldım. Sonra rus kitablarına başladıq. Zabit heç nə başa düşmürdü. Bu məsələ təhlükəli idi. Çünki, kitabların hamısını zərərli hesab edə bilərdi. Mən qərara gəldim ki, onun ovcunu açam və rus dilini bilməməsini isbat edəm. Lakin o mənimlə razılaşmağı özü üçün əlverişli hesab etdi. Buna görə də dediklərimin hamısını təsdiq edirdi. Bundan başqa işi asanlaşdırmaq üçün çox sadə bir yol tapdıq. Mən dedim zərərli kitablar Rusiyada baş vermiş Böyük Oktyabr inqilabından sonra, yəni 1917-ci ildən sonra nəşr olunmuşdur. Belə olduqda həmin tarixdən qabaq nəşr edilən kitablar zərərli sayılmamalıdır. Bu sözlərimi onların hər ikisi təsdiq etdilər. Beləliklə, rus dilində yazılmış kitablar da sıradan çıxdı və zərərli sayılmadı. Ona görə ki, saxladığım kitabların çoxu, hətta siyasi iqtisad kitabı da 1917-ci ildən qabaq çap edilmişdi. Bir sıra kiçik kitablar qaldı ki, onların da roman olmasını bildirdim.

Kitabları yoxlamaq mənim nə kimi adamlarla üz-üzə gələcəyimi, harada olmağımı bir daha mənə başa saldı. Demək, mənə də siyasi töhmət atılmışdı. Bu məsələyə yetişilməli, müqəddəratım təyin olunmalı idi. Mən yaxşı bilirdim ki, bu işlər heç də kitabları yoxlamaq kimi sadə və üzdənkeçmə olmayacaqdır...

* Müəllifin oğlunun adıdır.

# ADYUTANT YƏZDİ

Axşam, kitabların yoxlanılması işindən xilas olaraq müvəqqəti həbsxanaya qayıtdım. Həddindən artıq yorğun və taqətsiz olduğumu hiss edirdim. Aclıqdan, yuxusuzluqdan başım çox bərk ağrıyırdı. Dəbir dəyişilmişdi. Onun yerinə Məhəmmədxan Yəzdi gəlmişdi. Onun heykəli, surəti, burnu və gözləri bütünlüklə keçmiş şaha «Riza şaha» oxşayırdı. Bir gün mən həmin məsələni onun özünə də dedim, o, sözümü təsdiq edərək dedi: şahın özü ilə bir iki dəfə rastlaşmışam. O, mənə əyri-əyri baxıb və bu isə məni çox qorxudubdu.

Adyutant Yəzdi sonralar həddindən artıq kökəldiyinə görə bu oxşarlıq onda qalmamışdı. O, çox qarınqulu və acgöz bir adam idi. On səkkiz nəfər məhbusun xörəyini bir oturuma yeyərdi. İndi onun iştəhasından xəbərim yoxdur. Hər halda çox diqqətli adam idi. Yuxarıdan verilən göstərişləri son nöqtəsinədək yerinə yetirərdi. Deyərdi ki, «Mən iki nömrəli həbsxanada işə başlamış ilk polisəm». Həqiqətdə də o, müvəqqəti həbsxananın canlı tarixi idi. Savadı olmadığına baxmayaraq çox yaxşı huşu və hafizəsi var idi. Müvəqqəti həbsxanaya düşmüş adamları yaxşı tanıyırdı. Özü də çox az danışan, quru və ciddi bir adam idi. Səhərdən axşamadək dəridən çıxardı. Zindan otaqlarının zahiri təmizliyinə böyük əlaqə göstərərdi. Müvəqqəti həbsxanın bütün işləri onun əlində idi.

Dəbir dindar bir adam idi. O, heç kəsə qəsdən mərdümazarlıq etməzdi. Lakin Məhəmmədxan Yəzdi belə deyildi. O istəyirdi ki, müvəqqqəti həbsxananı həmişə öz əlində saxlasın, oradan çörəyini çıxarsın, uşaqlarının həyatını təmin etsin. Bundan başqa o, cəlladlıq da edərdi. Məhkumları dara da çəkərdi. Bu iş onun üçün başqa gəlir yolu idi. Deyildiyinə görə qatil Əskəri* də o dara çəkmişdi. Bu iş üstündə ona adyutanlıq rütbəsi verilmişdi. Adyutant Yəzdi tam mənasında polis idi. Qayda-qanundan başqa heç bir şey bilməzdi. Vəfalı bir it xasiyyətində idi. On ildən sonra da məni yaddan çıxarmamışdı.

Bir qayda olaraq Qəsr zindanında saxlanılan adamları müvəqqəti həbsxana vasitəsi ilə ədliyyəyə aparırdılar. On il qəsrdə qaldıqdan sonra ədliyyəyə aparılan zaman bir gün yolum müvəqqəti həbsxanaya düşdü. Müvəqqəti həbsxananın məmuru bir neçə saat eyvanda dayanmağım haqqında göstəriş vermişdi. Pilləkənlərin yanında adyutant ilə rastlaşdım. İrəliyə gəlib salam verdi. Sonra ciddi bir qiyafə tutaraq dedi: Ağa inanmıram ki, sizi eyvana qoyalar. Buyurun buraya. Bura sözündən onun məqsədi müvəqqəti həbsxananın ən pis koridoru hesab edilən üçüncü koridor idi. Buna baxmayaraq, o, öz postunda olmayan zaman mənə çox hörmət edərdi. Çünki onun uşaqlarının müəllimi olmuşdum. Bilmirəm nə üçün, hansı mülahizə üzündən o, ilk günlərdə özünü mənə tanıtdırmamışdı. Mən də onu şəxsən tanımırdım.

Xülasə istintaqdan qayıtdıqdan sonra o vaxt adi polis olan bu adam məni beşinci otağa gətirdi. Mənimlə yumşaq danışırdı. O, dedi: çox təəssüf edirəm ki, burada qalmalı oldunuz. Bəs uşaqlar nə edəcəklər?

Mən belə xəyal etdim ki, o mənim uşaqlarımın qeydinə qalır. Dedim: Allah kərimdir bir təhər dolanarlar.

Lakin sonra başa düşdüm ki, o, öz uşaqlarının dərs məsələsini nəzərdə tutmuşdu. Sonra məndən, nahar yeyib-yemədiyimi də soruşdu. Dünən gecədən bəri heç bir şey yemədiyimi də bildirdim. Gedib bir kasa ılıq süd və bir taftun çörəyi gətirib dedi: Ye!

Bu səmimi «qonaqpərvərlikdən» xoşum gəldi. Belə xəyal etdim ki, bütün məhbuslarla bu cür rəftar edirlər. Lakin onun mənimlə yalnız öz uşaqlarının xatirinə istisna olaraq rəftar etdiyini bilmirdim. Bundan başqa o, mənə ayrı bir yaxşılıq da etdi. Mən bu yaxşılığı heç vaxt unutmaram. Çarpayım narahat olduğu üçün, gedib bir qədər yumşaq və nisbətən təmiz yorğan-döşək gətirdi. Onları büküb çarpayının ortasına qoydu. Sonra üzünü mənə tutaraq dedi: «Bu çarpayı çox narahatdır. Onun qabarıq dəmirləri sənin qabırğalarını əzər.

Bundan başqa mənim üçün bir çay qabı da gətirdi.

Görürsünüz! Cəllad da öz uşaqlarını sevir. O da istəyirdi ki, evladlarının tərbiyəsi yolunda muəyyən addım atmış bir adama yaxşılıq etsin. Qeyd etdiyim kimi, mən o gün Məhəmmədxan Yəzdini tanımırdım. Belə xəyal edirdim ki, bu mehribanlıq onun xoş niyyətindən doğmuş və yaxud yuxarıdan verilmiş göstəriş əsasında olmuşdu. Çörəyi yedikdən sonra soyuğa, otağın iyrənc qoxusuna, pıspısalara, siçan və ağcaqanadlara etina etməyərək, paltarlarımı soyunmadan çarpayının üstünə düşüb, şirin yuxuya getdim. Sabahı günü günortaya iki saat qalmış keşikçi dəyişilən zaman Dəbir məni yuxudan ayıltdı.

* Əsgər qatil 1930-cu ildə saddism xəstəliyi üzündon uşaqları tutub öldürən bir şəxs olmuşdur. Bamiyə satdığına görə ona Əsgər bamiyə füruş da deyirdilər. Qətl cinayəti üstündə edam edilmişdir.

# DİGƏR MƏHBUSLARLA RABİTƏ

Qeyd etdiyim kimi Purafər ilə tanış olduğuma görə haman ilk günlərdən etibarən başqa məhbuslarla rabitə tapa bildim. Həsəndən başqa (r)-ilə də uşaqlıq dövründən tanış idim. O da gündə iki-üç dəfə qapının deşiyindən halımı soruşur, zarafat və gülüşləri ilə məni ruhlandırırdı. Purafər ilə aramız daha açıq idi, Deyirdi ki, bizi yeddi səkkiz aydan artıq burada saxlaya bilməzlər. Onun bu qabaqgörənliyindən mənim çox acığım gəlirdi. Deyirdim, sən çox fal açırsan. Burada yeddi-səkkiz ay da qalmaq olar?

Bir gün otağı təmizlətmək məqsədilə Dəbir məni otaqdan çıxardı. Məhbuslar kiçik həyətdə dolanırdılar. Mən üzümü həyətə çevirib dayanmışdım. Dəbir isə mənim qabağımda durmuş və öz fikrincə istəyirdi ki, başqa məhbuslar ilə rabitə saxlamağımın qarşısını alsın. Mən isə hərəkətsiz dayanmışdım. Məhbuslar ardıcıl surətdə həyəti dövr edərək mənim qarşımdan keçirdilər. Onların hər biri müxtəlif işarələrlə öz salamını mənə çatdırırdı.

Dəbir fars dilindən başqa ayrı dil bilmirdi. 1931-ci il yanvar ayının əvvəli idi. Xristiyan məhbuslar təzə paltar geymiş, üzlərini qırxmış və görüşlərinə gələcək adamlarını gözləyirdilər. Mən yalnız öz gülüşlərimlə onların salamına cavab verib, bayramlarını təbrik edirdim. Purafər yaxşı geyinmiş centelmen bir adamı mənə göstərərək dedi: Bu boynu yoğunu görürsən, dörd ildir ki, zindanda saxlanılır. O, məşhur Lapidus idi. Bəlkə də sonralar onun adını çəkdik. Mən onun dörd il müddətində, bu cəhənnəmə oxşar deşikdə yaşayıb hələ də diri qalmasına təəcüb edirdim. Öz-özümə dedim: mən burada bir il qalsam ölərəm.

On-oniki gün olardı ki, üzümü qırxmamışdım. Bundan heç özümün də xəbərim yox idi. Lapidus təcrübəli adam idi. O məni görən kimi tez otağına qaçıb kiçik bir ayna gətirərək dərhal Dəbirin arxasına keçib aynanı mənim üzümə tutdu. Doğrudan üzümü bu cür saqqallı görəndə bərk güldüm. Həsən Azərbaycan, rus, fransız dillərində cürbəcür zarafatlar edirdi. Ayrı bir vüqarlı saqqallı adam da rusca və Azərbaycanca ürək-dirək verərək məni ruhlandırırdı. Bu adam məşhur Yepremin müavini polkovnik Gigo idi.

Purafər və sairələri məni başa saldılar ki, havaya çıxarılmağım haqqında xahiş etməliyəm. Dəbir bu xahişi dərhal qəbul etdi. Lakin gəzintiyə çıxarılan yer elə bir vəziyyətdə idi ki, mən iylənmiş beşinci otağı oradan daha yaxşı hesab etdim. Məhbuslar oradakı üçbucaqlı və yalnız bir adamın gəzişməsi üçün kifayət edən həyətin adını «qazança» qoymuşdular. Bir və iki nömrəli müvəqqəti həbsxanaların, ümumi həbsxananın və sair binaların bütün ayaqyollarının quyuları həmin həyətdə yerləşirdi

Beləliklə, birinci gündən başlamış ikinci, üçüncü, dördüncü, beşinci, onuncu və sair... Günləri sayaraq, hər bir dəqiqədə ittilaat idarəsi tərəfindən çağırılıb təklifimin məlum ediləcəyini gözləyirdim. Lakin oradan heç bir xəbər çıxmırdı. Get-gedə məyus olub müxtəlif fikirlərə dalırdım.

Gündüzlər də gecələr kimi qaranlıq və yorucu idi. Səhərdən gecə yarısınadək otaqda dolanır, sonra isə çarpayının üstünə uzanaraq cürbəcür fikirlərə dalırdım. Hətta yavaş-yavaş məhbus dostlarımın təskinverici sözlərindən də acığım gəlirdi. Evdən və ailədən xəbərim yox idi. Onların nə vəziyyətdə yaşamalarını bilmirdim. Hava təmiz olan gecələrdə tavandakı kiçik deşikdən ulduzları seyr edərək bununla fikrimi məşğul edirdim. Günəş gündüzlər üçün mənim saatım idi. Günləri divara xətt çəkməkdə sayırdım. Robenzon kimi özüm üçün cizgilər kalendarı düzəltmişdim. Hətta, Purafər və digər məhbuslar da məmnuniyyətlə mənim bu düzəltdiyim təbii saat və kalendarımdan istifadə edirdilər. Ulduzlarla vaxtı, günəşdən daha dəqiq müəyyənləşdirə bilirdim.

On səkkizinci gün səhər tezdən sərçələrin cingiltisi diqqətimi cəlb etdi. Başımı qaldırıb sərçələrin həman deşik üzərindən dəstə-dəstə uçub getdiyini gördüm. Bunu da mən yaxşı fal kimi yorub öz-özümə sevindim. Təsadüfən həmin gün günortaya yaxın ilk. dəfə olaraq ailə üzvlərimlə görüşdüm.

# GÖRÜŞ

...zindan yaxşı məhəkdir. Orada insan öz səmimi dostlarını və ən uzaq qohumlarını daha yaxşı tanıyır, onların nə kimi münasibətdə olduqlarını müəyyənləşdirir. İlk görüşüm çox gözlənilməz idi. O dəqiqəyədək xaric ilə əlaqə tapmaq imkanına inanmırdım. Öz arvad- uşağımı gördüyüm üçün çox sevindim. Daryuş görüş yerini, polisləri və oradakı qaydaları görüb mat qalmışdı. O, görüş vaxtının sonunadək heç bir kəlmə də danışmadı. Başqa görüşə gələnlər isə adi halda halımı soruşurdular. Görüşə gələnlər içərisində tanış olmadığım bir gənc diqqətimi cəlb etdi. Təəssüf ki, mən onu həmin günədək görməmişdim. Onun mərhəməti qarşısında minnətdar olduğumu bildirdim. Sonralar isə onun arvadımın uzaq qohumlarından biri olduğunu bildim. Cavan mərdlik, xeyirxahlıq və fədakarlıq yalnız ağır günlərdə müəyyən edilir. Bu təmizürəkli gənc mənə nicat vermək, məni zindandan xilas etmək yolunda dörd ay çalışdı. O, bu yolda hər cür fədakarlıq göstərməkdən çəkinmədi. Füruzeş deyirdi ki, mən bu qədər fədakar adam görməmişəm. Kölgə kimi ardıma düşüb hər gün, hər saat mənimlədir. Heç kəsin əli çata bilməyən yüksək rütbəli adamlardan səni buraxmaq haqqında tövsiyənamə gətirir. Belə bir səmimi qohumunuz olduğu üçün sizi təbrik edirəm.

Bu fədakar adamın fəaliyyəti və çalışqanlığı nəticəsində vəziyyətim bir az yaxşılaşdı. Bizdən mənim üçün yorğan-döşək gətirilməsinə, xörək və kitab göndərilməsinə icazə verdilər. Mənim üçün müstəsna şərait yaradıldı. Mənə çiraq, çaynik və sairə verdilər. Bundan başqa zəmanətlə buraxılmaq barədə mənə verilən hökm də həmin adamın sayəsində düzəlmişdi. Bu barədə sonra ətraflı bəhs edəcəyəm. Lakin bu hökm həyata keçirilmədi. İttilaat idarəsinin məmurları deyirdi ki, biz bu hökmü həyata keçirə bilmədik. Lakin əgər siz bir gün həbsdən azad olsanız, məhz həmin hökmün əsasında azad olacaqsız...

Polis idarəsi işçilərinin böyük cinayətlərindən biri ittihamları yaymaqdan ibarət idi. Onlar bu yol ilə öz pis hərəkətlərini ört-basdır etmək istəyirdilər. Onların digər metodu hədə-qorxu gəlmək idi. Belə ki, günahsız bir adamın zindandan xilas edilməsi yolunda təşəbbüs edən hər hansı bir adamı çağırır, hədələyir, qorxudur və beləliklə zindan haqqında bir daha danışmayacağı və belə işlərə qarışmayacağı barədə ondan iltizam alırdılar. Mənim dostum haqqında da həmin qaydaya əl ataraq ona demişdilər ki, əgər ailəni, həyatını və

kəsbi-karını istəyirsənsə filankəsin ardına düşməkdən çəkinməli, onun sorağını tutmamalısan. Əks təqdirdə bir çox təhlükəli işlər görmüş həmin şəxslə əlbir olmaqda ittiham ediləcəksən. Lakin bütün bu hədə-qorxulara baxmayaraq o, mənim haqqımda imkanı qədər çalışmışdı.

Digər işlər kimi görüş işi də gündən-günə çətinləşirdi. Birinci ildə deyirdilər ki, siyasi məhbuslar yalnız müstəntiqlərin və ya siyasi idarənin digər qulluqçularının yanında öz adamları ilə görüşə bilərlər. Biz uzun müddət bu xoşa gəlməz hərəkət əleyhinə mübarizə etdik. Həsən Purafər ilk görüş zamanı etirazını bildirərək arvadına tapşırmışdı ki, o, bir daha bu cür görüşə gəlməsin, uşaqları da gətirməsin. Füruzeş isə onun bu hərəkətini qayda-qanuna uyğun olmayan hərəkət hesab edərək Həsən Purafəri istintaqa çəkmişdi. İstintaq zamanı Həsən Purafər ona dişsındırıcı cavablar vermişdi. O demişdi: bəlkə də siz öz namus və abırınıza əlaqə bəsləməyirsiniz, bu sizin öz işinizdir. Lakin sizin haqqınız yoxdur ki, sairələrini də özünüzə tay hesab edərək adamların şərəf və namusuna toxunasınız. Biz öz adamlarımızı görmokdən gözörtmək qiymətinə olsa da, sizə icazə verə bilmərik ki, bizim abırımızla və namusumuzla oynayasınız. Füruzeş bu sözləri polis idarəsi rəisinə raport verdikdən sonra Həsəni iyirmi dörd saat tək otaqda saxladılar. Sonra onun yanına vasitəçi göndərərək istintaq kağızlarını cırıb aradan apardılar.

Qısa sözlə desək, zindanda olduğum birinci və ikinci illər ərzində görüş məsələsi üzərində zindan idarəsi ilə siyasi idarə arasında çəkişmələr davam etdi. Zindan idarəsi özü də yoxsul məhbusları həftədə bir dəfə siyasi idarəyə göndərmək istəyirdi. Əvvəllər görüşlərimiz siyasi idarədə də çox az-az təşkil olurdu. Belə görüşlər Qəsr zindanında eşikbağın içərisində yalnız bir polisin nəzarəti ilə keçirilirdi. Lakin getdikcə işlər çətinləşdi. Yeni təyin olunan rəislərin hər biri təzə qaydalar qoyurdular. Daha bağda görüşə icazə verilmədi. Görüş yeri daxili zindanın qapısı arxasına köçürüldü. Sonralar isə dəmir məcərli bu günkü görüş otağını təşkil etdilər.

Burada məhbuslarla görüşə gələnlər arasında fasilə o qədər uzaq idi ki, onların səsi çətinliklə bir-birinə çatırdı. Adam iki dəmir məcər arxasından görüşə gəlmiş şəxsləri az qala tanıya bilmirdi. Qapıdakı yoxlama daha iyrənc idi. Çox çirkin bir qarı arvad buraya görüşə gəlmiş qadınların bütün bədənini yoxlayırdı. Abbas Kəndxudanın icazəsi olmadan zindan rəisi siyasi məhbuslara görüş verə bilmirdi. Bundan başqa polkovnik Rasixin də öz xüsusi siyasəti var idi. Onlar istəmirdilər ki, cinayətkar işlər zindanın uca divarlarını və dəmir qapılarını geçərək xaricə yayılsın. Buna görə də öz meylləri ilə məhbusların görüşünü məhdudlaşdırır və bəzən qadağan edirdilər. Həbsdə olduğum yeddinci ildə bir dəfə də mənə görüş icazəsi verməd ilər. Görüş xətərli bir işə çevrilmişdi. Adam onu incəlikləri ilə şərh etməyə utanır. Zindan məmurları bu yol ilə çox çirkin istifadələr edirdilər. Hətta, bir çox namuslu məhbuslar özlərini bu yeganə ümid yolundan da məhrum edərək, öz ailələrinə tapşırırdılar ki, bir daha görüşə gəlməsinlər. Onlar bu yol ilə öz abırlarını qorumağa çalışırdılar. Məhbus üçün görüşsüz qalmaq, adamsız olmaq çətindir. Lakin qeyd etdiyimiz vəziyyətdə görüş bundan daha ağır idi.

# XAİNLƏR

Xainlər həqiqətdə siyasi idarənin işçilərindən və zindandakı casuslardan daha təhlükəli idilər. Deyə bilərəm ki, biz uzun müddət ərzində həmin xəyanətkar tiplərin əlilə böyük əzab və əziyyətlərə məruz qaldıq. Bu əzab və əziyyətlər polis idarəsi məmurlarının bizim haqqımızda etdikləri əziyyətdən daha ağır idi.

Görək xəyanətkar nə cür adamdı? O nə istəyir? Məhbusa hansı yol ilə zərər verir? Şübhə yox ki, zindana yolu düşməyən adamlar həmin suallara asanlıqla cavab verə bilməzlər. Zindanda xəyanətkar, qardaşını öldürmüş, öz yoldaşının kəsilmiş qanlı başını satmış, yeganə və səmimi dostlarının evini bərbad edib,

həyatını dağıtmış adama deyilir. Xəyanətkar özünü xilas etmək, neçə günlük alçaq və iyrənc həyat sürmək xatirinə, öz yoldaşlarını və dostlarını satıb polis və zindan rəisləri ilə əməkdaşlıq edənlərə deyilir. O, yalan sözlər toxuyur, vurduğu töhmət və iddiaları ilə güya sirləri açır.

Zindanda olduğumuz on bir il müddətində gördüyüm məhbusların çoxu istisnasız olaraq öz həmkarlarının xəyanəti nəticəsində tutulmuşdular. Polisin təklikdə əlindən heç bir iş gəlmir. Bir nəfər çox sadə bir iş üstündə təsadüfən tutulduqda nadanlıq, xudbinlik və yaxud iradəsizlik üzündən polisə aldanır, özünü xilas etmək üçün bir çoxlarını da gurultuya verir. Bəhanə ardınca gəzişən polis isə bu vəziyyətdən istifadə edərək, öz sözü ilə desək, gizli təşkilatlar, geniş və təhlükəli özəkləri kəşf etməsi barədə raport düzəldir.

Həmin cinayətkarlar tipini bir neçə təbəqəyə bölmək olar. Siyasi idarənin məmurları bir çox məhbusları müxtəlif yollarla əzab-əziyyət vermək şallaq altına salmaq, qaranlıq otaqlarda saxlamaq və hədələməklə xəyanətkarlığa məcbur edirdilər. Heç kəsə əziyyət verməyən adamlar kimi tanınmış və ilk addımlarından tələyə düşmüş bu qəbil məhbuslar daha geri çəkilə bilmirdilər. Hiylə və fırıldaqlar yolu ilə alçaq işlərə düşən bəzi yazıq qadınlar kimi bunlar da öz istəklərinin əksinə olaraq hərəkət edir, günü-gündən daha abırsız vəziyyətə düşərək rüsvay olurdular. Şəban Kavə həmin tipin nümayəndələrindən biri idi. İsfəndiyarı deyirdi ki, siz Kavənin işlərindən hədər yerə əsəbləşirsiniz. Mən onu üç gecə-gündüz yatmağa qoymadım. Nəticədə o aldandı və üzləşməyə razılıq verdi. Bundan sonra ayrı bir çarəsi qalmadı. Bizim üçün işləməsəydi, necə deyərlər, bu tərəfdən qovulmuş o tərəfə isə əli çatmamış adama çevrilərdi. O istər-istəməz işə qarışıb siyasi idarənin göstərişinə əsasən Şayəqan, Abdulzadə, Seyid Həmzə, Ağazadə və sairələrin həbsə alınması muqəddiməsini hazırladı. O, olmasaydı, şübhəsiz ki, Təbriz təşkilatı girə keçməzdi və siyasi məhbusların vəziyyəti bu mərhələyə çatmazdı.

İkinci tip Tacbəxş və ona yaxın olan adamlardan ibarətdir. Bunlar əzab və əziyyət, işkəncə, qaranlıq otaq və sairə olmadan da polisin etimadını qazanmaq xatirinə, öz yoldaşlarının ayağı altında dərin quyular qazdılar. Tacbəxş lap ilk gündən etibarən polkovnik Paşa xan ilə saziş etdi. Onu Şəban, Musa və sairələri ilə müqayisə etmək olmaz. O, düşüncəli, dünyagörmüş siyasi bir adam idi. İkitərəfli işləyən polis oğruları kimi öz yaxın tanışlarını girə vermək üçün xəfiyyə polisi ilə birlikdə zindandan çıxıb gedirdi. Dadizadə Ənzabi deyirdi ki, Tacbəxş «Ruznəvar» kafesinin yanında bizi tanıdı və polisə göstərdi.

İranban dəstəsinə daxil olan adamların bəzilərini də həmin təhlükəli tiplər sırasına daxil etmək lazımdır. Bunlardan bəziləri çox çirkin hərəkətlər etmişlər. Hətta, öz yoldaşları bunların haqqında nələr danışırdılar.

İranban və Şahzadə Xaqani dəstəsinin tutulduğu birinci gün mən iki nömrəli müvəqqəti həbsxanada idim. Bu hadisə mən tutulandan bir il sonra baş vermişdir. Onların sayı çox idi, mən casusluq ittihamı ilə tutulmuş bu siyasi adamların rəftar və davranışlarına diqqət yetirirdim. Doğrudan da müəttəl qalmalı idi. Onlar çalır, oynayır, biri-birlərinin otağına gedib, biri digərini təbrik edir, zarafatlaşır və hay-küy salırdılar. Onlar biri-birlərinə deyirdilər, qalib gəlmişik, polis ilə razılaşmışıq, öz hökumətimiz ilə əməkdaşlıq edəcəyik, bizə böyük işlər və vəzifələr tapşırılacaq.

Hətta, onlardan bəzilərinə məhkəmə qurtardıqdan sonra dərhal polis idarəsində işə başlamalarına dair hökmlər də verilmişdi. İranbanın özünə birinci polis ləqəbi və rütbəsi verilmişdi...

İstintaq və müvəqqəti həbs dövründə onlara araq, tiryək gətirilir və sair çirkin hərəkətləri üçün şərait yaradılırdı. Kamran onların hamısı ilə dost olmuşdu. Onlar gecə-gündüz xalqa quyu qazıyırdılar. Axmaqcasına belə xəyal edirdilər ki, öz təşkilatlarını polisə daha geniş göstərdikləri təqdirdə günahları da

bir o qədər az olacaq. Onlar belə xəyal edirdilər ki, siyasi ittihamlar, adi xəyanətlər kimidir. Ədliyyə tərəfindən müəyyən olunan cəza güya bütün müttəhimlərin arasında bölüşdürüləcəkdir.

Bu boş xəyallarla onlar özlərinə çox dərin bir quyu qazımışdılar. O quyuya isə hamıdan əvvəl özləri düşdülər. Göstərdikləri böyük xidmətlər qarşısında edam və ağır həbs cəzalarından ibarət mükafat aldılar. Onlar iş-işdən geçəndən, işləri hərbi tribunaya göndərildikdən sonra polisi tanıdılar.

Bu dəstəyə daxil olanlardan bir-iki nəfəri istisna etmək şərti ilə qalanları məhkəmə zamanı çox zəlil və alçaq hərəkətlərə yol verərək prokurora acizliklə yalvarıb və iltimas etməkdən belə çəkinmədilər. Məhkəmə müttəhimlərdən heç də yaxşı olmadığına görə onlara özlərini müdafiə etmək haqqı, danışmaq icazəsi də vermədi. Onlar yalnız son müdafiələrini yazılı surətdə məhkəmə rəisinə təqdim edə bildilər. Bu yazılar isə əsla oxunmadı. Məhkəmə rəisi demişdi ki, bütün qüvvələrin baş komandanlığının əmri hər hansı qanundan yüksək sayılır. Müttəhimlərin mühakiməsi, onların məhkəməyə aparılması və zindana qaytarılması işləri həqiqətən dəhşətli idi. Altmış yetmiş nəfər müttəhimi yüz əlli nəfər əskərin mühafizəsi və müşayiəti ilə məhkəməyə aparırdılar. Hərbi nazirlik binasının ətrafını qoruq etmişdilər. Hərbi məhkəmə tam dəbdəbə ilə təşkil olundu. Prokuror isə könlü nə istəyirdi, onu deyirdi. Vəkillər məhdud edilmişdilər. Onlar müvəkkillərinin müdafiəsi sahəsində artıq danışıqda məhkəmə rəisi dərhal sözü kəsir, mövzudan kənara çıxmasını bəhanə edərək, danışığına son qoyurdu. Müttəhimlərin arvad-uşaqları hərbi nazirliyin ətrafındakı küçələrdə ürək döyüntüsü ilə dayanıb, əl-ayaqlarına zəncir vurulmuş adamlarını görmək və məhkəmənin nəticəsindən xəbərdar olmaq istəyirdilər.

Məhkəmə çox kəskin qərar çıxartdı. Qırx nəfəri edama, qalanları isə üç ildən on beş ilədək həbs cəzasına məhkum olundular. Haqqında edam hökmü çıxarılan adamlardan iki nəfəri hökmü eşidən kimi dəli oldu. İranban və Şahzadə Xaqani hökm həyata keçirilən zaman, təbii vəziyyətdən çıxmışdılar. Zəndini dəlilər evinə göndərdilər. Sairələri isə təqribən qeyri adi hala düşdülər. Buna baxmayaraq onların bir çoxu yenə də öz hərəkətlərindən əl götürməyərək zindanda polisə yaxınlaşır, yerlərini şirin salmaq üçün casusluq və xəbərçilik edirdi.

Xainlərin digər tipi ikitərəfli işləyənlər idi. Onlar həm polis idarəsini əldə saxlamaq, həm də məhbuslar daxilində özlərinə hörmət qazanmaq istəyirdilər. Bu tip mühafizəkar olduğu üçün, çox təhlükəli idi. Çünki açıq və aydın surətdə polis tərəfinə keçmiş adamların təklifi məlum idi. Lakin bunlar ikiüzlülük edir, özlərini cəmiyyətə yaxınlaşdırır və adamların etimadından istifadə edərək həssas vaxtlarda bəzi məsələləri siyasi idarənin nəzərinə çatdırırdılar.

## ZİNDAN CASUSLARI

Mən mərkəzi zindanın yeddinci koridorunda yaşayırdım. İki nömrəli müvəqqəti həbsxanadan əlavə mərkəzi zindanın ikinci, dördüncü və yeddinci koridorlarında da yaşamışdım. Bu koridorlar keçmiş üsuli-idarənin siyasət mərkəzinin ən həssas nöqtəsi idi. Biz siyasi məhbusların başlıca nümayəndələri hesab edilirdik. Hətta, Teymurtaşı, hərbi nazir sərdar Əsədi və digər hökumət müttəhimlərini bizim yanımıza gətirməyə cürət etmirdilər. Polis məqamları tərəfindən göstərilən hər hansı təzyiq və işkəncə tədbirləri ilk dəfə bizə tətbiq olunurdu. Zindanda işləməyə gələn hər hansı yeni qulluqçu öz iqbal və taleyini bizim müqəddəratımız üzərində sınaqdan keçirirdi. Siyasi idarə işçilərinin heç biri, bizim işlərimizə qarışmadan tərəqqi edə bilmir, rütbə və dərəcə əldə etməyə nail olmurdu. Zindan rəisi Rasix polkovnik Gigoya belə demişdi: «Bu qapıların arxasına qanlı əllər basılmışdır. Mən onlara yaxınlaşıb orada yaşayan adamlarla danışa bilmərəm».

Beləliklə, üzərimizə qoyulmuş həmin siyasi ad nəticəsində pölislər və başqa məhbuslar üçün bir növ dükana çevrilmişdik. Ailələri ilə görüşmələrinin xüsusi şəklə düşməsini istəyən, tək otaqda yaşayıb azad tiryək çəkmək istəyən, bütün koridorları azad dolanmaq, bir kasa süd və ya iki yumurta almaq istəyən, zindan daxilindəki müəssisələrdə işləmək istəyən, heç olmazsa süpürücü və ya xörək paylamaq vəzifəsinə keçmək istəyən, çayçılıq edib məhbusları soymaq fikrinə düşən, bir sözlə, başqalarının bədbəxtliyindən istifadə etmək istəyən bütün adamlar üçün ancaq bir vasitə, bir sadə yol var idi ki, o da, bizə göz olmaqdan və nəzarət etməkdən ibarət idi. Zindan məmurları məhbusların zindana gəldikləri birinci gündən bu yolu onlara öyrədirdilər. Qısa sözlə desək, alış-veriş vasitəsinə çevrilmişdik. Hamı yalnız bizə əzab və əziyyət vermək yolu ilə zindan məmurlarından müəyyən güzəştlər ala bilirdi. Hətta, sonralar iş o yerə gəlib çatmışdı ki, biz ikilikdə biri-birimizlə danışa da bilmirdik. Fərruxini demək olar ki, əxlaqsız və cəfəng qoca ərbab Gudərzi ölümə verdi. Bədbəxt şair öz həm-yerlisinə inanaraq təzə yazdığı şerlərini «..»nin vasitəsi ilə ona göndərmişdi. O isə namərdcəsinə uzun-uzadı bir raportla birlikdə həmin şerləri zindanın rəisinə göndərmişdi. Şerlər məzəli, ciddi və eyni zamanda təsirli və kəskin idi. Bu şerlər əldən-ələ geçərək nəhayət, şahın əlinə çatmışdı. Beləliklə, Fərruxinin öldürülməsi haqqında fərman verildi. Mötəbər bir adamın dediyinə görə məhbusların son ümumi aclıq elan etmələri haqqındakı xəbəri «Lapidus» və ayrı bir tanınmış məhbus polisə raport vermişdilər. Lapidus göstərdiyi həmin xidmətlərə görə zindan çayxanasının rəisi təyin edildi. Digərinin haraya aparıldığından isə xəbər tuta bilmədim.

Məhbusların kitab, karandaş və sairədən istifadə etmələrinin qadağan olunması «...»nin raportunun nəticəsi idi. Bir sözlə, qeyd etməliyik ki, zindandakı casus tiiləri kəmfürsət, zərərli və təhlükəli idilər. Məhrumiyyətlərimizin çoxu həmin tiilərin əlilə törənirdi. Zindanın rəisi açıqcasına deyirdi: «Füzul olmasa şah qalanın arxasında nələr baş verdiyini haradan biləcəkdir».

Zindanda füzul çox idi. Onlar isə hamıdan artıq məhz bizə əzab və əziyyət törədirdilər.

## ZİNDANDA QALMALI OLDUM

Neçə ay davam edən istintaqın sona çatmasından sonra məni nisbətən təmiz olan səkkiz nömrəli otağa köçürüb, onun qapısını açıq qoydular. Lakin sair məhbuslarla rabitə yaratmağımı qadağan etmişdilər. Bu zahiri bir hədə-qorxu idi. Bu işin əməli olmadığını özləri də, yəni zindan məmurları da yaxşı başa düşürdülər.

Casuslar hər gün ardıcıl surətdə öz raportlarını verirdilər. Bundan başqa otağımı dəyişənlər özlərinin gizli bir casusunu da məhbus qələmə verərək, ona tapşırmışdılar ki, məni gözdən qoymasın. Bu qəribə bir adam idi. Boyu uca, üzü arıq, sifəti sarı və çimçəşdirici, dişləri isə qurt yemiş və qaralmış idi. O, oruc tutur və namaz qılırdı. Mən isə onu ilk gündə tanımışdım. O, öz pis təbiətini gizli saxlaya bilmirdi. Mənim üçün böyuk bir maneəyə çevrilmişdi. Nəhayət, onu tanıdığımı özünə başa salmaq qərarına gəldim. Bununla özümü əzab və əziyyətdən xilas etmək istəyirdim. Çünki siyasi idarə, polis özünü gizlədə bilmədikdə, dərhal onu əvəz edirdi. Buna görə də utanmağı bir kənara tollayaraq uca səslə dedim: itil gözümün qabağından get, əgər səni siyasi idarə göndərmişsə, döş nişanını mənə göstər ki, öz təklifimi başa düşüm.

Digər bir casus həmin məsələni dərhal siyasi idarəyə çatdırmışdı. Buna görə də həmin gün axşam zamanı Təhmasibi adlanan bu ağanı zindandan çıxarıb apardılar. Deyildiyinə görə 1304-cü ildə (1925-26-cı illər) ağayi Müsəvinin dəstəsini də həmin adam girə salmışdı. Az qalmışdı ki, onları da edam etsinlər.

1931-ci ilin aprel və may ayları intizarla keçdi. Bir tərəfdən taleyimlə üns bağlayaraq digər məhbuslar kimi öz mühitimin kiçik və məhdud hadisələri ilə başımı qatırdım. Digər tərəfdən isə hər saat zindandan azad olacağımın intizarını çəgirdim. Hətta, Füruzeş özü də demişdi ki, «Bu haqda Saraydan məktub yazmışlar. Biz müxalifət göstərməsək sizi buraxmaq olar. Hələlik biz də müxalifət göstərmirik. Yalnız polis idarəsi rəisinin Gorgandan qayıtmasını gözləyirik».

Bu heç də yalan deyildi. Etdiyi yaxşılıqlarından keçmişdə danışdığım adam mənə buraxılmağım üçün müqəddimə hazırlanması haqqında sifariş də göndərmişdi. O Ayrum* gələndən sonra zindandan buraxılacağımı bildirmişdi. Hətta, bir gün Nəsrulla İsfəndiyari həmin hökmü mənə göstərərək dedi: İş qurtarmışdır. Ancaq heç bir siyasi işə qarışmayacağın haqda iltizam verməlisən.

Bütün bunlara baxmayaraq mən şübhə edirdim. Belə sadəliklə həbsdən buraxılacağıma inana bilmprdim. Ayrumun qayıtması qurban bayramı gününədək uzandı. Həmin gün keçmiş adət üzrə, səhər tezdən otaqdan çıxıb həyətdəki hovuzun kənarında idman etmək istəyirdim. Purafər hələ yatmışdı. Dəbir dəstəmaz alırdı. Polkovnik Gigo primusu yandıraraq çay qoymaq istəyirdi. Zahirdə məhbusların həyatı adi vəziyyət ilə davam edirdi. Baharın havası yüngül və ruhu oxşayan idi. Zindanın məhdudiyyətlərini az qala unutmaq istəyirdi. Qış fəslindən fərqli olaraq, günəşin şuaları zindanın dərin həyətinin divarları üstündə oynayır, qəmgin ürəkləri sevindirirdi. Həmin gün mənim üçün ağır saatlardan biri sayılacağı hələlik məlum olmamışdı. Hələ, əl-üzümü yuyub qurtarmamışdım ki, (D) əl-ayağını itirmiş bir şəkildə yanıma gəldi. O günlər biz biri-birimizlə danışmırdıq. Lakin ciddi işlər zamanı bu cür müvəqqəti kusülü halların təsiri ola bilməzdi. O, bilirsən nə var? Xəbərin var? deyə, həyəcanla mənə müraciət etdi.

- Nə xəbər var? Nə olmuşdur?

- Gecə yarısından təxminən bir saat keçmiş neçə nəfər təzə məhbus gətirdilər. Deyildiyinə görə onlar da siyasi töhmətlə təqsirləndirilmişlər.

Burada pis bir iş yoxdur. Siyasi müttəhimləri olmayan bir ölkə nəyə lazımdır. Siyasi müttəhimin olması özlüyündə millətin siyasi şüurunun yüksəldiyini göstərir. Məlumdur ki, ölkədəki işlər adi qayda ilə cərəyan etmir. Xoşagəlməz hadisələr çoxdur və günü-gündən artır. Bunun əksi baş versəydi onda təəcüblənmək olardı.

(D) dedi: Axı bu işin, sənin və mənim zindandan buraxılmamızda təsiri ola bilər.

Mən dedim: Bu təsir kimlərin nə kimi ittihamlarla tutulmağına bağlıdır.

Söhbətimiz hələ qurtarmamışdı ki, birdən-birə zəng çalındı. Polkovnik Paşa xan gözlənilmədən daxil oldu. O, digər otaqlara diqqət yetirmədən, mustəqim surətdə gedib təzə gətirilmiş adamların otağına girdi. Azacıq fasilədən sonra, təzə məhbuslara müəyyən qədər siqar və kibrit gətirilməsi haqqında göstəriş verdi. Biz isə, keçmiş adət üzrə dağıldıq. Hər kəs öz otağına gedib qapıları bağlayıb oturaraq gələcəkdə hadisələrin necə olacağını gözləməyə başladı. Biz belə xəyal edirdik ki, keçmişdə olduğu kimi yenə də gedəcəkdir. Lakin bu fikir düzgün çıxmadı. Ağayi polkovnikin həmin otaqda dayanması bir saatdan artıq çəkdi. O, kağız və karandaş da tələb etmişdi. Biz təqribən öz vəziyyətimizi başa düşmüşdük.

Polkovnik otaqdan çıxıb getdikdən sonra, mən maraqlanaraq özümü bir təhər təzə məhbusların saxlanıldığı otağa çatdırdım. Otaqda ağayi Tacbəxşi gördüm. Biz biri-birimizi yaxşı tanıyırdıq. Paşa xan isə həmin otaqda yubanmışdı.

Mən dedim: Tacbəxş, nə var nə yox? Paşa xan səndən nə istəyirdi? Səni nə üçün həbs etmişlər? Nə hadisə baş verib?

Onu, öz bacısı və bacısı oğlu ilə birlikdə, müəyyən qonaqlıqda tutub, ev sahibi və onun sair dostları, ilə bir yerdə zindana gətirmişdilər. Çox əl-ayağa düşmüşdü. Nəzərə qorxulu görünürdü. Bəlkə də özünü bu şəkildə göstərmək istəyirdi.

Mən Paşa xan haqqındakı sualımı təkrar etdim. O cavab vermək istəmirdi.

Dedim: Tacbəxş, axı Paşa xan bu qədər dayanan adam deyildi. O belə işlər görməz. Bütün zindanda cəmi beş-altı dəqiqədən artıq dayanmazdı. De görüm nə hadisə baş verib, gözlə, nahaq yerə camaat üçün narahatlıq törətməyəsən.

- Yox baba, məgər uşaqsan? Mən sizi nə üçün zəhmətə salım? Paşa xanın mənimlə ailəvi qohumluğu vardır, əhvalımı soruşurdu...-dedi.

- Tacbəxş mən səninlə öz tanışlıq borcumu yerinə yetirdim. Şübhəsiz ki, hər kəs öz işini daha yaxşı bilir.

- Onların haqqında nigaran olma. Bəlkə də indiyədək onları buraxmışlar. Gözlə, elə bir iş görməyəsən ki, adamları səbəbsiz olaraq tutub, zəhmətə salsınlar.

Tacbəxş çoxlu and-aman içib sən öl, mən ölüm deməklə söz verdi ki, adamların haqqında əsli olmayan və mənasız sözlər dilinə gətirməyəcəkdir.

Mən qayıtdım. Lakin bilirdim ki, o yalan danışır. Bilirdim ki, o, ilk xəyanət addımını götürmüşdür.

Mən Tacbəxşi on il bundan əvvəl tanıyırdım. Ondan vicdansızlıq görməmiş, bu haqda bir söz də eşitməmişdim. Lakin Tacbəxşin əsəblərinin zəif olmasını mənfəəttələb və fəal adam olmadığını bilirdim. Onun həmişə paltarı köhnə, cibi pulsuz olardı. Yaxşı maaş almasına baxmayaraq, onun-bunun qulağını kəsir, hətta ailə üzvlərini və yaxın dostlarını da soyardı. Onun bu pulları hara xərcləməsindən heç kəs baş çıxara bilməzdi. Bacısı və qohumları Tacbəxşin laqeydliyindən həmişə şikayət edirdilər.

Mən Tacbəxşdən ayrıldıqdan sonra başqa bir otağa getdim. Orada mənə aydın oldu ki, o, polis idarəsində başqalarının əleyhinə bir çox sözlər demişdir.

Musa da belə hərəkət etmişdi. Lakin qeyd etdiyim kimi Kavəni əzab-işkəncə vermək yolu ilə yalan danışmağa məcbur etmişdilər.

(D)-nin buraxılması üçün ilk hazırlıq işi düzəlmişdi. Onu həmin gün buraxdılar. Purafərə çoxlu pul xərclədikdən sonra çıxıb getdi. Məni isə, uzun muddət təzyiq və zorakıləqdan sonra, həmin dəstəyə mənsub edərək, buraxılmağım haqqında verilən vədəyə əməl etmədilər. Mənə dedilər ki, həqiqəti açıb deməsən səni buraxmayacağıq. Sonra isə işkəncə və əzab yolu ilə Şəban Kavəni məcbur etdilər ki, tanımadığı halda mənlə üzləşərək, günahlarını mənim boynuma atsın. Beləliklə, zindana yeni gəlmiş ağalar məni satdıqdan sonra buraxıldılar. Lakin mən əbədi təklifsizlik vəziyyətdə yenə də zindanda qaldım.

* Ayrum vaxtı ilə İranın polis idarəsinin rəisi olmuşdu.

# ZİNDANIN MƏNZƏRƏSİ

Biz zindanda curbəcür adamlar gördük. Yol kəsmək və adam öldürmək ittihamı ilə oraya bir dəstə məhbus gətirmişdilər. Müstəntiq hələ onların günahlarını boyunlarına almaları haqqında iqrar almamışdı. Bir neçə ay onları tək otaqlarda ayrılıqda saxladıqdan sonra başçıları Quran ilə istixarə etdikdən sonra demişdi: İstixarə yaxşı gəldiyi üçün gedib boynuma alacağam ta bu qaranlıq otaqdan özümü xilas edim. Məhz boynuna aldıqdan sonra onu məhkum edib güllələdilər. Bu hadisədən sonra həqiqətən yol kəsmiş bir qatili zindana gətirdilər. O, bütün günahlarını boynuna aldı. Lakin başqa bir məhbusu onun əvəzinə edam etdikləri üçün həqiqi qatilin günahını boynuna almasına əhəmiyyət verməyib onu zindandan buraxdılar.

Məhəmməd xan Yəzdinin fəxr etdiyi məsələlərdən biri vaxtı ilə şvetsariyalıların əli altında işləməsi idi. O deyirdi: şvetsariyalılar çox ciddi adamlar idilər. Zindanda təklifi müəyyən olunmamış məhbuslara rast gəldikdə dərhal qapını açıb onları xaricə buraxırdılar. Zindan rəisi vəzifəsində. işləyən şvetsariyalı deyirdi: «Müstəntiq bunu bilməlidir ki, mən təklifi müəyyən olunmamış məhbusları qanunsuz olaraq zindanda saxlaya bilmirəm.

Adyutant Yəzdinin özü zahiri təmizkarlığa böyük maraq göstərirdi. Hər gün bir neçə oğru məhbusu yanına salaraq bütün otaqları güya təmizlətdirərdi. Həqiqətdə isə onları təmizləmək mümkün deyildi. Uçulmuş, . Rütubətli divarlar, biri-birinə bağlı olan ayaq yollarının qoxusu heç də süpürgə ilə təmizlənəsi deyildi. Lakin adyutant bu məsələdə o qədər ifrata yuvarlanardı ki, bu iş əksər hallarda bizim üçün bir başağrısına çevrilərdi. Bütün bunlara baxmayaraq, iki nömrəli koridor keçmiş zindanın ən yaxşı guşəsi hesab olunurdu. Oğrular və yolkəsənlər ümumi həbsxananı və onun döngəsini başqa yerlərdən üstün tuturdular. Lakin döngə adlanan bu yer daha dəhşətli idi. Həyatin guşəsində yerləşən bu kiçik daxmaya əsas etibarı ilə yeni gətirilən adamlar salınardı. Onlar bir neçə gündən sonra dəhşətli bir vəziyyətdə həmin yerdən çıxarılıb başqa otağa köçürülürdü. Ümumiyyətlə, burada daima azı yüz adam çılpaq, ayaqyalın və qeyri-müntəzəm şəkildə ən ağır şəraitdə yaşayardı. Bu qaranlıq, rütubətli yer o qədər çirk idi ki, istər yay, istərsə də qış fəslində onun qarşısından geçən adamlar burunlarını tutmaq məcburiyyətində qalardılar. Bu arı yuvasına oxşayan yerdən daima sızıltı və nalə səsi eşidilərdi.

Qeyd olunan döngə uzun və qaranlıq bir tövləyə oxşayırdı. Yalnız günorta vaxtı onun tavanındakı kiçik deşiklərdən azacıq günəş şüaları daxilə düşərək yerə döşənmiş çirkli palazların ləkəsinn sankı artırıb oranın mənzərəsini daha da pisləşdirərdi. Buna baxmayaraq həmin şüalar məhbuslar üçün böyük nemət sayılırdı. Onlar bu neçə dəqiqəlik fürsətdən istifadə edərək bədənlərini gecə-gündüz yeyib, deşən bitlər və cücülərdən intiqam alardılar.

Həmin döngədə yaşayanlar arasında heç bir qayda-qanun yox idi. Burada heç bir hərəkəti eyib saymırdılar. Burada söyüş vermək adi söhbət qaydasına çevrilmişdi. Əslində həmin döngəni çarasiz məhbusların üsyankar ruhu adlandırmaq olar. Burada yaşayanlar cəmiyyət daxilindəki nəzakət qaydalarına istehza edir. Onlar belə bir kəsif və iyrənc ictimaiyyətə mənsub olduqları üçün onun əxlaq və nəzakət qaydalarını da çox yaxşı bilirdilər.

Onlar ictimaiyyətin namus, abır, həya və başqa qaydalarını boş və mənasız hesab edirdilər. Bu haqda danışan adamları da istehza edirdilər.

Bu dongəyə gətirilmiş yeni məhbuslar bir neçə dəqiqədən sonra çarasızlıqdan başqa məhbuslara qoşularaq hər cəhətdən mühit ilə uyğunlaşırdılar. Hətta, onlar bir neçə gündən sonra yeni qaydalar ortalığa çıxararaq zindandakı köhnə qaydaları daha da təkmilləşdirirdilər. Bu dongə, eyni halda zindan məmurları üçün bir çörəkağacı idi. Yeni məhbuslar, hər hansı təbəqədən olursa-olsun buraya gətirilirdi. İmkanı olan məhbuslar isə nə qiymətə olursa-olsun bu dəhşətli yerdən köçürülməyə çalışırdılar. Zindan dəllalları nisbətən varlı olub kiçik təqsir uzundən həbsə alınmış və qısa müddətdən sonra buraxılacağına ümid edən adamlardan xüsusilə istifadə edirdilər. Zindanın müdiri belə adamların maddi imkanı haqqında əvvəlcədən polislərə və dəllallara məlumat verirdi. Beləliklə, məhbusla dəllal arasında çənəvurmaq çox da uzun çəkmirdi. Məhbus bütün ciblərini boşaltdıqdan sonra zindanın başqa otağına köçürülürdü. Pulu olmayan məhbuslar isə öz paltarlarını təqdim etməklə zindan rəisini razı salırdılar. Bu iş zindan məmurlarının bir növ gəlir mənbəyinə çevrilmişdi. Belə ki, bir çoxları bu yol ilə böyük sərvət toplamışdılar. Bu, həm də zindandakı şeylərin çox ucuz satılması ilə əlaqədar idi. Məsələn, xaricdə yüz tümən qiyməti olan pencək-şalvar zindanda cəmi beş tümənə alınırdı. Hətta, saat və sair qiymətli şeyləri də çox ucuz qiymətə alırdılar.

Ümumi həbsxana zindandan xaricdəki cəmiyyət kimi müxtəlif təbəqələrə bölünmüşdü. Zindanın rəisi və müdiri ilə bilavasitə əlaqə saxlaya bilən varlı və olanların vəziyyəti yaxşı idi. Onlar hətta, çayxanası belə olan birinci və ikinci otaqlara göndərilirdilər.

Bu otaqlarda yaşayanlar üçun xaricdən yemək gətirilməsinə icazə verilirdi. Bütun sahələrdə azad buraxılırdılar. Hətta, öz saqqallarını da həmin otaqlarda qırxırdılar. Çılpaq məhbusların həmin otaqların pəncərəsi qabağından keçməsi qadağan olunmuşdu. Onlar yatan zaman həyətə çıxmağa icazə verilmirdi. Bu cənablar üçün qapıçısı olan xüsusi ayaqyolu müəyyən edilmişdi. Bu otaqları çirkli bataqlıq daxilində səfalı bir adaya oxşatmaq olar. Bunlardan savayı daha aşağı təbəqələrə mənsub məhbusların yaşadığı otaqlar da var idi. Onların hər biri üçün xüsusi rəis təyin edilmişdi. Məhbuslar hər gecə bu rəisə rüşvət verməli idilər. Otağın rəisi olmaq istəyən məhbus isə xüsusi rüşvət verməkdən əlavə müəyyən öhdəçiliklər də götürməli idi. Məhbuslar bu vəzifəni əldə etmək üçün ağlagəlməz dərəcədə can atırdılar. Otaq rəisinin naharı, axşam yeməyi, paltarı və hamam xərci başqa məhbuslar tərəfindən ödənilirdi. Hər bir məhbus siqar, çay və sairədən başqa rəsmi surətdə gündə iki-üç qıran da yer kirayəsi verməli idi.

Ayaqyolu rəisinin vəzifəsi bütün başqa rəislərdən yüksək olub gəliri hamıdan artıq idi. Hər bir ayaqyolu üçün gündə əlli tümən kirayə alınırdı. Rəisi isə hər gün zindan müdirinə ən azı iyirmi tümən pul verməli idi. Şübhəsiz o vaxtın iyirmi tüməni böyük pul olaraq onunla yüz nəfər çilovkabab yeyə bilərdi. Ayaqyolu rəisi ilə əlbir olan zindan müdiri isə həmin miqdar pulu alıb ana südü kimi həzm edirdi.

Zindan müdiri əslində çox zirək adam idi. O, gizli yol ilə zindana tiryək, siqar və sairə gətirilməsi işlərini elə təşkil etmişdi ki, qaçaqçılar üçün heç bir maneə törənmirdi. Bu qəbil malların qiyməti gündən-günə artırdı. Onun təcrübəsiz əlbirləri tutulduqda zahiri cəza verməklə işi ört-basdır edərdi.

Yaxşı olar ki, öz həyatımdan sizin üçün sadə bir misal söyləyim. Günlərin birində polisin getdikcə artan tələbatından əsəbləşərək dedim: Yenə də allah şahın atasına rəhmət etsin ki, məmurları qorxudur. Yoxsa Seyid Mustafa xan bizi küçələrin tininə göndərib keçmiş dustaqbanlar kimi yolçuluğa da vadar edərdi.

Bütün bunlara baxmayaraq biz rüşvət verən deyildik. Rüşvət vermək üçün heç bir şey də yox idi. İmkan olsaydı belə rüşvət verməzdik. Onların özü də siyasi məhbuslardan bir şey tələb edə bilmirdilər. İlk günlərdə vəziyyət belə idi. Sonralar isə onlara da əl atdılar. Lakin köhnə siyasi məhbuslar əvvəldən yoxsul idilər və axıra qədər də rüşvət vermədilər. Zindan məmurları özləri də bilirdilər ki, necə deyərlər, məscid bəzi işlərin yeri deyil. Bütün bunlara baxmayaraq lotular mənim sözlərimi zindan rəisinə çatdıraraq, onu mənə qarşı

əsəbi etmişdir. Bir gün o, nə isə məni öz yanına çağırdı. Bu zaman Niyrumənd yenicə müavin olmuşdu. O, gizli olaraq rəis olmaq üçün çalışırdı. Bəzilərinin dediyinə görə, o, Muxtarinin vasitəsi ilə bu işə göndərilmiş və bəzilərinin fikrincə şah onu saray komissarlığından qovaraq bu işə təyin etmişdi. Hər halda məni çağıran gün o da orada hazır idi. Şiddətli mübarizələrin aparılmasına baxmayaraq, yenə də polis idarəsinin məmurları siyasi məhbuslardan çəkinirdilər. Onlar siyasi məhbuslarla rastlaşdıqda zahiri qorumaq məqsədilə olsa da nəzakət dairəsindən kənara çıxmır və Şvetsariyalı müşavirlərin dövründən qalan keçmiş ehtiramı adət üzrə gözləyirdilər.

İçəri girdikdən sonra göstərilən səndəldə əyləşdim. Rasix həmişəki kimi ərizələri qabağına töküb baxır və məhbusları növbə ilə çağırırdı. Bu dəfə o, özünu mənə çox yenilik tərəfdarı olan bir adam kimi göstərməyə səy edirdi. Rasix belə göstərmək istəyirdi ki, o, məhbusların yolçuluğa göndərilməsi yolu ilə istnfadə etmək fikrində deyil. Mən sakit oturmuşdum. Niyrumənd çox ciddi qiyafə ilə əyləşmişdi. Rasix isə məhbusların hər birini boş cavablar ilə başından edirdi. O, hamı haqqında təqribən eyni sözü təkrar edərək geçən gün prokurorla, məhkəmə rəisi ilə sənin haqqında danışmışam deyirdi. Qəbula gələn məhbusların içərisində Qəzvin bıçaqçəkənlərindən birisi var idi. Onun qoluna çox əcaib bir xal döymüşdülər. Rəis həman xuliqanı başdan ayağa qədər nəzərdən keçirdikdən sonra öz hesabına görə atalıq nəsihətlərinə başladı...

Sonra Qasımxan adlı siyasi bir məhbusu çağırdılar. Onu casusluq ittihamı ilə tutmuşdular. Neçə il idi ki, təklifsiz olaraq zindanda qalırdı. O, çalışırdı ki, bəlkə də hərbi məhkəmə onun təklifini müəyyənləşdirsin.

Qasım içəri girəndə rəis ərizələrə baxırdı. O, özünü çox əsəbi göstərməyə səy edirdi. Qasımxan salam verdikdən sonra öz ərizəsinin məzmununu təkrar etmək istədikdə rəis hər bir iş ilə tanış olan adam kimi onun sözünü kəsərək dedi: bilirəm Qədir sən, nə demək istəyirsən. Yazıq Qasımxan udqunduqdan sonra özunün Qədir ölmadığını bildirmək istəyirdi. Lakin rəis macal verməyib əlavə etdi: Bəli, mən dünən gecə siyasi idarədə sizin barənizdə söhbət etmişəm. Siz nə üçün Zəncana getmirsiniz. Oranın ki, abı-havası yaxşıdır. Qasımxan hey çalışırdı ki, özünün Qədir olmadığını rəisə başa salsın. Lakin rəis dolu kimi sözləri yağdırıb, macal vermirdi. Yazıq Qasımxan öz-özünə deyirdi ki, mənim işimin Zəncan ilə nə kimi əlaqəsi var? Bu vəziyyət çox gülünc idi. Rəis onunla Azərbaycan dilində danışır. Qasımxan isə zorla çalışırdı ki, farsca cavab versin. Lakin farsı bilmədiyi üçün çox gülməli olurdu. Mən güc ilə öz gülməyimin qarşısını almaq istəyirdim. Nəhayət, yazıq Qasımxan çox çətinliklə başa sala bildi ki, o, Qədir Məmmədqulu oğlu deyil, onun işi başqadır.

Təsadüfən ərizə sahibi Qasımxan getdikdən sonra Qədiri istədilər. Rəis isə adət üzrə onun ərizəsini digər «sərəncam verilmiş» ərizələrin üstünə ataraq ayrı bir ərizə götürmüşdü. Bu isə təsadüfən Qasımxanın ərizəsi idi. Səhnə yenidən başlandı. Qədir deyirdi: Cənab rəis, bəs mənim işim hara çatdı? Nə üçün məni əbəs yerə Bəndər Pəhləvidən Zəncana sürgün etmişlər. Orada mən heç bir iş tapa bilmərəm. Bunun üstündə mən Tehrana gəlib siyasi idarəyə müraciət etdim. Mən ki, qaçqın deyildim, nə üçün məni tutub dörd il təklifsiz saxlamışlar.

Yanlış ərizəni oxumaqdan əl çəkmək istəməyən rəis yeni məhbusun da sözünü eşitmək istəməyərək, əvvəlki sözlərini təkrar edib, dedi: «Ağayi Qasımxan mən sizə dəfələrlə demişəm ki, işinizə bu tezlikdə yetişiləcək. Dünən qoşun prokuroru ilə sizin haqqınızda tam iki saat danışmışam. Hədər yerə bu ərizələri yazıb bizim vaxtımızı almayın». Nəhayət, ərizələrə yetişmək işi başa çatdı. Növbə mənə çatdı. Söhbətimiz çox ciddi oldu. O dedi: «Eşitmişəm mənim əleyhimə təhrikat aparırsınız. Mən hədə-qorxudan çəkinmirəm. Hesabı sözünüz varsa yazın, mən rədd edərəm. Daha təhrikat və daldada danışmaq nəyə lazımdır. Mən cavabında dedim:

Əvvəla, mən heç kəs haqqında təhrikat aparmıram. Bu işi də bacarmıram. Bunu da yaxşı bilirəm ki, ərizənin heç bir faydası yoxdur. O, dedi: Nə üçün? Siz nə vaxt ərizə yazdınız ki, cavabsız qoydular?

- Özüm yazmamışam, lakin ərizə yazan məhbusların nə kimi nəticə əldə etdikləri mənə məlumdur.

- Misal üçün Əbdülqadir Azadın yazdığı ərizə və onun nəticəsi! Bu sizin özünüzə də məlumdur. Yazıq qoca kişinin xəstə olduğuna baxmayaraq neçə ay onu qaranlıq otağa saldınız.

Bu zaman Rasixdən daha zirəng olan Niyrumənd söhbətə qarışaraq qəzəblə dedi:

- Siz nə fikir edirsiniz? Kim sizə demişdir ki, biz məhbusların ərizələrini açıb oxu.madan onları rədd edirik. Belə bir işi hansı axmaq görə bilər. Azad pis adamdır. O, həqiqətə uyğun gəlməyən töhmətlər yazmışdır. Əgər gündə beş yüz nəfərin tif xəstəliyi nəticəsində ölməsini iddia edən Abbas Qandinin ərizəsi ilə hesablaşsaq, saxlanılan məhbuslardan əlavə bir az da xaricdən borc etməli olarıq.

Görünür, Azadın haqqındakı söhbətlər zindan rəisini yaman yandırmışdı. O, dedi:

- Əbdülqadir kimdir? Eşitdiyimə görə Qumda lotuluqla məşğul olmuşdur.

- Bunların mənə dəxli yoxdur. Neçə illərdir bizi saxlamısınız, hələ də təklifimizi məlum etməmişsnniz.

Mənə nə. Mən nəçiyəm. Mən ki, sizi azad edə bilmərəm.

- Bizi qanunsuz olaraq saxlamağa sizin haqqınız yoxdur.

- Siz bu işə məsulsunuz.

- Mən yuxarıdan verilən əmrin əleyhinə rəftar edə bilmərəm.

R- əftar etsəniz nə olar?

- Nə olaçaq. Arvad-uşağımız acından ölər.

- Oğrular da bu sözü deyir. Bəs bizim arvad-uşağımız yoxdur? Onlar adam deyil.

Bu xoşagəlməz danışıqlardan sonra bir il müddətində mənə qohumlarımla görüş icazəsi verilmədi. Bundan başqa mən olan kameraya daha iki nəfər məhbus əlavə edərək məni artıq narahat etməyə çalışdılar.

Yuxarıda qeyd edilənləri xatırlatmaqla bunu nəzərə çatdırmaq istəyirdim ki, zindan ayaqyolusunun və ilk məhbusların saxladıqları dalanın kirayəsini artırmaq uçün əldən-ayaqdan çıxan bu adamlar diktatorluq üsuli-idarəsinin onlara tapşırdığı hörmətli şəxslər haqqında nə qədər soyuqqanlılıq və laqeydlik göstərirdilər.

Köhnə zindanın bir nömrəli koridoru ən ağır guşələrdən biri sayılır. Polis idarəsinin ən alçaq cinayətləri məhz burada həyata keçirilirdi. Şvetsariyalıların dövründə ən varlı və qüdrətli məhbusu belə orada bir aydan artıq saxlaya bilmirdilər. Lakin qanun olan dövrdə, islahat dövründə, hörmətli siyasi məhbusları illər boyu həmin koridorun qaranlıq və rütubətli kameralarında saxlayıb, bir dəqiqə belə bayıra çıxmağa qoymurdular. Məhbusların bir çoxu həmin kameralarda dörd ay saxlanıldıqdan sonra iflic olmuşdular. Yazıq Məmməd Bağır vərəm xəstəliyinə tutularaq ağır vəziyyətdə öldü. Məhəmməd Ənzabi başqa bir dərdlə fövt etdi. Azərbaycanlı gənclərin bir çoxu öz görmək qabiliyyətlərinin yarısını əldən verdilər. Məhəmməd Nünəkərani həmin kameradan çıxdıqdan sonra daha düzəlmədi. İkinci koridorda saxlanılan biz siyasi məhbuslar, birinci

koridorda əzab və işkəncəyə məruz qalmış məhbusların ah-naləsindən gecələr yata bilmirdik. Hətta, ən məharətli oğru və yolkəsənləri belə orada bir neçə gündən artıq saxlamırdılar. Birinci koridordan buraxılan adamların üzünə baxmaq mümkün deyildi. Onların saralmış sifətləri, şişmiş gözləri, açıq boyunları, bükülmüş qəddləri insanı dəhşətə gətirirdi. Həsən ağa Şimir birinci dərəcəli cəllad idi. Bu cəlladın yoğun və qorxunc səsini eşidən hər kəs ömrü boyu onu unuda bilməz.

Bir nömrəli koridorda saxlanılanlar öz qohumları ilə görüşə bilmirdilər. Onlara papiros verilmirdi. Xaricdən yemək gətirilməsinə imkan vermirdilər. Polislər burada tam özbaşınalıq edirdi. Şallaq vurmaq və söyüş vermək adi hal olmuşdu...

Söz yox ki, qanuni zindanlarda da qaranlıqkameralar vardır. Şuluqluq edən məhbusları cəzalandırmaq məqsədilə bir neçə saat müddətində orada saxlayırlar. Lakin qəsrdəki qaranlıq kameraları belə məhbuslar üçün deyil, məhz çox hörmətli adamlar üçün (siyasi məhbuslar) üçün hazırlamışdılar. Bu kameraların ilk qonaqları, Milli Şura Məclisinin vəkili Sovlətüd-dövlə Qaşqayi və onun oğlu Nasir xan oldu. Mən bunların keçmişi və gələcəkləri, məslək, əqidə və sinfi mövqeləri haqqında danışmaq istəmirəm. Hər kəs və hər karə olsalar da, onların hər ikisini qanun-əsasinin xilafına olaraq həbsə almışdılar. Bütün qanunlara zidd olaraq onlar məhkəmə edilmədən, təklifsiz bir vəziyyətdə həbsə salınmışdılar. Bu ata və oğulun zindandakı davranışları çox mətin və abırlı idi. Onlar birinci koridorda tək kameralarda saxlanılır, əzab və əziyyətə məruz qalırdılar.

Eşitdiyimə görə onları tək kameralarda saxlamaqla da kifayətlənməyərək sonralar kameraların qarşısında uca bir divar da çəkdirmiş və bununla da onları başqalarından ayırmışdılar. O günədək zindanda adam öldürülməmişdi. Əgər öldürülmüşsə də bizim xəbərimiz yox idi. Bir gün Sovlətüddövlənin qəddarcasına öldürülməsi xəbərini eşitdik. Onun oğlu da hadisə zamanı orada olmuş və bu vəhşi mənzərəni müşahidə etmişdi.

Sovlətuddövlə öldürüldükdən sonra Teymurtaşı oraya gətirdilər. Beləliklə, ölüm dalanı rəsmi şəkil aldı. Bu hadisədən sonra oraya göndərilən hörmətli məhbusların (siyasi) taleyi hamıya bəlli idi.

Yuxarıda qeyd etdiyimiz sonradan çəkilən divarın arxasındakı kameralardan biri tam qaranlıq idi. Onun qapısını yalnız məhbusu yoxlamağa gələn müfəttişlərin üzünə açırdılar.

## ADLI-SANLI MƏHBUSLAR

Keçmiş dövrün siyasətçiləri ictimai, siyasi partiya və dəstələrin olduğuna inanmırdılar. Hətta, məclisdəki vəkillərdən biri demişdir ki, İranda müəyyən cərəyan və ya siyasi fikirlər yoxdur. Xaricdə qəzetlərin hökumət və şah əleyhinə yazdıqları sözlərin əsası yoxdur. İran xalqı öz hökuməti və şahından tamamilə razıdır və bütün ixtiyaratı onun əlinə tapşırmışdır. Hökumət isə həqiqətdə xalqın uzun illərdən bəslənilən istək və arzularını həyata keçirir. Buna görə də partiya və siyasi dəstələr üçün ehtiyac da yoxdur. Heç kəs belə bir fikrə də düşməmişdir.

Müəllif həman sözləri vaxtı ilə Ayrumun dilindən də eşitmişdir. O, polis idarələrini təhvil alıb yoxladığı vaxt zindana gələrək otaqlara bir-bir baş çəkir və məhbusların əhvalını soruşurdu. Mənim həbs olunduğum vaxtdan cəmi üç-dörd ay keçmişdi. Zindan müdiri qapını açıb mənim kim olduğumu Ayruma bildirdi. Ayrum adi hal-əhval söruşduqdan sonra, nə günah üstündə həbs olunduğumu bilmək istədi. Bu sualın cavabında dedim: Özüm də başa düşmürəm, deyirlər siyasi ittiham üzrə həbs edilmişəm.

O, başını tovlayıb dedi: Siyasət nə deməkdir? Bizim ölkədə siyasət haradaydı? Boş söz deyirlər. Mən özüm sənin işinə yetişəcəyəm. Xatircəm ol, yalnız siyasi ittihamla həbs edilmiş olsan tezliklə səni buraxarıq.

# ÖLÜM DALANI

...Mühəndis Markov Qəsr zindanı planını hazırlarkən bir neçə şeyi yaddan çıxarmış və bir neçə yeri də artıq tikdirmişdi. Zaman keçdikcə zindandakı qayda-qanunun günü-gündən pisləşməsilə əlaqədar olaraq polis işçiləri zindan binasını təkmilləşdirərək oranı Asiya formalı despotizmin əsl işkəncə mərkəzlərindən birinə çevirmişdilər. Markovun əlavə tikdirdiyi yerlərdən biri yemək salonlarından ibarət idi. Eşitdiyimə görə polkovnik Paşa xanın göstərişi əsasında zindan binasının istifadəyə verildiyi birinci ildə həmin salonları zindan karxanalarının sərəncamına vermişdilər. Bizi Qəsr zindanına aparan zaman qeyd olunan tədbir sona çatmışdı. Təknəfərlik kameralarda qayrılmış əl-üz yumaq yerləri də bir ildən artıq davam etmədi.

Zindanın aradan qaldırılmış «nöqsanları» sırasında ölüm dalanının düzəldilməsini qeyd etmək lazımdır. Görünur əvvəldə mühəndis Markova qanuni bir zindan tikilməsi göstərişi verilmişdi, Buna görə də o, həmin göstəriş əsasında mədəni ölkələrdəki zindanlara oxşar bir plan tərtib etmiş, müxtəlif müttəhimlərin saxlanılması üçün yerlər ayırmış idi. Hətta, təknəfərlik kameralarda saxlanılan məhbuslar üçün xüsusi koridor ayırmış və elə otaqlar tikilmişdi ki, daha məhbusların xaricə çıxarılmasına ehtiyac olmasın. Yazıq Markov haradan biləydi ki, hər tərəfdən silahlı qüvvələrlə əhatə olunan bir zindana ölüm dalanı da lazımdır! O, qanuni zindanda siyasi məhbusları sssiz, sədasız boğmaq üçün qaranlıq zirzəmilərin lazım olduğunu haradan biləydi? Belə bir dəhşətli binanı mən həbsdə olduğum üçüncü ildə tikdilər.

Lakin hamımız bilirik ki, Ayrumun özü də çox qısa müddətdən sonra yəni (1931-ci ildə) siyasi idarəni meydana gətirərək, bununla da polis idarəsi məmurlarının günü-gündən təzyiq və zorakılığının artdığı bir ölkədə, xalqın öz əqidə, məqsəd və hətta narazılığını belə deməyə cəsarət etmədiyi bir mühitdə siyasi cərəyanın olduğunu əməldə etiraf etdi. Zindanda olarkən eşidirdim ki, ölkədə hətta ümumi və dini təziyələr, habelə toylar və sair şənliklər də polis nəzarəti altında keçirilirdi. Mətbuat, kitablar və başqa nəşriyyatın vəziyyəti isə çoxdan ölkədən qaçmasına, onların oğurlanmasına heç də təəcüb etmirdi. Bir çoxları məyusluğa qapılaraq, bu kimi hadisələri xalqın laqeydliyi ilə izah edirdilər. Onlar deyirdilər: Millət yatmışdır, millət ölmüşdür, millətdən əsər-əlamət qalmamışdır. Bu qədər təzyiq, çətinliklər, ağır vergilər, oğurluq, rüşvətxorluq, hiyləgərlik və sairənin hökm sürdüyü ölkədə hətta on nəfər belə bir yerə yığışıb hökumətin siyasətinə etiraz etməyir, heç olmasa belə bir ittiham üzərində on nəfər də həbs edilmir.

Əlbəttə, bu cür mühakimələrə, müəyyən dərəcədə haqq vermək lazımdır. Ona görə ki, həbsdə saxlanıldığımız müddətin yeddinci ilinədək zindana gətirilən müqəssirlərin hamısı yolkəsən və yaxud qatil, şah tərəfindən mülkləri alınan mülkədarlar və nəhayət, şahın qəzəbinə gəlmiş bəzi ali rütbəli dövlət qulluqçularından ibarət idilər. Buna görə də qeydlərimizin həmin bölməsində siyası təşkilatlar əvəzinə, həmin adamların, bəzi ayrı-ayrı şəxsləri haqqında danışmalı olacayıq. Belə bir məsəl var deyərlər: bir ovuc bir xarvarın nümunəsi hesab edilə bilər. Gəlin bunu sınaqdan keçirək. Bəlkə də bu yol ilə bəzi böyük adamların əhvali-ruhiyyəsini təsvir edə bildik.

# MÜŞİR HÜMAYUN (BƏLƏDİYYƏ RƏİSİ)

Zindanda saxlanıldığım müddətin ikinci ili idi. Qısa boylu bir kişini koridora gətirdilər. Söhbətlərdən məlum oldu ki, o, siyasi idarənin rəisi imiş. Lakin daha yüksək rütbəli başqa bir şəxsin göstərişindən imtina etdiyinə görə on səkkiz ay müddətinə həbs cəzasına məhkum edilmişdir. Siyasi idarənin rəisliyi ünvanı heç də bizim üçün yaxşı təsir buraxmasa da, daha yüksək rütbəli adamın göstərişindən onun boyun qaçırıb bu iş üstə həbsə alınması məni müəyyən dərəcədə maraqlandırdı. Belə hesab etdik ki, hər nə olsa yenə kişiliyi olmuşdur. Ayrumun qarşısında imtina etməyə, və ya heç olmazsa səhlənkarlıq göstərməyə cəsarəti çatmışdır.

Deyirdilər ki, o, özü üçün daha geniş səlahiyyət verilməsini tələb etmiş və demişdi: Adamları həbs etmək ixtiyarına malik olduğum kimi, onları buraxmaq haqqında da mənə səlahiyyət verilməlidir. Yoxlanışdan sonra təqsirsizliyi aydınlaşan adamları, saray və polis idarəsi rəisinin icazəsi olmadan həbsdən azad etməyə səlahiyyət və ixtiyarım olmalıdır.

Mən bu şayiənin nə qədər doğru və yalan olduğunu təsdiq edə bilmərəm. Bu qədər mənə məlumdur ki, bələdiyyə rəisi Müşir Hümayun on aydan artıq zindanda saxlanmadı. O, şahtərəfindən bağışlanaraq, azad edildi. Polkovnik dərəcəsi olan bu ağa həbs olunduğu ilk gecədə ruhiyyəsinin zəif olduğunu büruzə verərək demişdi: «Otaqda tək yata bilmirəm». Ona görə də koridorun təmizləyicisi Məşədi Əskər Mazandaranını onun yanına göndərmişdilər.

Əskər deyirdi: Qorxudan ağanı yuxu aparmırdı. O, məni də məcbur edirdi ki, səhərədək ayıq qalıb onun üçün keşik çəkim.

Məhbuslar heç də gözləmirdilər ki, siyasi idarənin rəisliyi vəzifəsində çalışan bir polkovnik bu qədər qorxaq olsun. Buna görə də o, zindanda qaldığı müddət ərzində məhbuslar əsla ona üz göstərmədilər. Heç kəs onunla oturub, durmaq istəmirdi. Buna baxmayaraq, ağayi Müşir Hümayun çox mülayim və xoşrəftar görünürdü. Vəziyyətdən narazı idi.

O deyirdi: İranın bədbəxtliyi bundadır ki, heç kəsi bacardığı işə göndərmirlər. Mən İranın birinci piyanoçalanı sayılıram. Yaxşı olardı ki, istedadlı gənclərin bir dəstəsini əlimin altına verəydilər, onları tərbiyə edəydim. Mənə deyirdilər ki, gəl polis idarəsində işlə, özün də siyasi idarənin rəisi ol. Eləcə də ağayi Muxtari, yaxşı olardı ki, onu polis idarəsi rəisinin müavini əvəzinə, musiqi məktəbinə təyin edəydi.

# TEYMURTAŞ

Biz hələ zindana düşməzdən əvvəl Teymurtaşın daş ürəkli və rəhmsiz olması haqqında çoxlu sözlər eşitmişdik. Doktor Heşmətin və digər Gilan azadıxahlarının edam olunmaları haqqındakı kədərli xatirələr yadımızda idi. Digər tərəfdən bilirdik ki, Teymurtaş İranın görkəmli siyasi şəxsiyyətlərindən, fəal, oxumuş yenifikirli və şöhrətli zabitlərindən biri sayılırdı. Biz onun müəyyən hadisələrə və çətinliklərə etinasızlıq göstərəcəyini, öz heysiyyət və məqamını qoruyacağını gözləyirdik.

Zindan həqiqətdə çox yaxşı məhək daşıdır. Zahiri cəhətdən Teymurtaşdan nəhayət dərəcədə yoxsul, zəif və yazıq görünən adamlar zindanda böyük şücaət və mərdlik göstərərək, çətinliklərə, aclıqlara, əzab və işgəncələrə dözüb polisə etinasızlıq edirdilər. Lakin Pəhləvi Sarayının naziri olan bu ağa, ilk gündən alçaq və miskin göründü.

Bayquş, əziyyətsiz bir heyvandır. Məhbuslar onu o qədər də şum hesab etmirdilər. Deyirdilər: Bayquşun oxuması iki cür olur. Onun qəhqəhə çəkib gülməsi məhbusların azad olunması əlamətidir. Ağlaması isə zindana yeni məhbuslar gətiriləcəyini xəbər verir.

Bəziləri isə deyirdilər ki, bayquş çox yaxşı heyvandır. Hansı adamın başı üstə oxusa o, labüd zindandan azad ediləcəkdir.

Lakin Teymurtaş məyus, bədbin olmuş, öz iradəsini əldən vermişdi. Bütün hadisələri özü üçün zərərli hesab edirdi. Hər hansı kiçik bir təsadüfdən qorxurdu. Məhz qorxudan cəmi bir neçə gün ərzində qocaldı, beli bükülub taqətdən düşdü. Həmişə əyləşib ağlayırdı. Ona yaxınlaşmaq üçün bizə imkan vermirdilər. Lakin təmizləyicinin vasitəsi ilə o, bizim siyasi məhbus olduğumuzu anlamışdı. Buna görə də bizi görəndə titrək səslə deyirdi: «Ağa siz bilmirsiniz, vallah bilmirsiniz...»

Eşitdiyimə görə məhkəmə zamanı ağlamışdı. Əvvəllər onu xəstəxanada saxlayırdılar. Ölümünə bir ay qalmış tək saxlanılan məhbusların yaşadıqları koridora köçürdülər. Deyildiyinə görə can verən zaman çoxlu əzab və əziyyət vermişdilər. Bir nəfər deyirdi ki, adyutant Soti onun üzüyünü oğurlamışdı. Oğlu ilə uzaqdan-uzağa xəstəxananın pəncərəsi arxasından görüşməyə icazə vermişdilər.

Ümumiyyətlə, Teymurtaşın ölümü zindanda o qədər də böyük təsir bağışlamadı. Onun zəiflik və acizlik göstərməsindən məhbusların xoşu gəlmirdi. Bir çox adamlar onun bu hərəkətlərinə təəcüblənirdilər.

# FƏRRUXİ

Teymurtaşın əksinə olaraq Fərruxi yaxşı sifətlərə malik idi. O, müvəqqəti həbsxananın pəncərəsindən özünü bütün məhbuslara tanıtdıraraq demişdi:

Mən şura məclisinin vəkili, «Tufan» qəzetinin müdiri ağzı tikilmiş Fərruxiyəm. Məni qanunsuz olaraq həbsə alıb buraya gətirmişlər. Mənə... in vasitəsi ilə cani təmin verərək Avropadan İrana qaytarmışlar. Gördüyünüz kimi verdikləri vədlərin əleyhinə olaraq məni həbs etmişlər.

O, Qəsr zindanında da həmişə mübarizə edirdi. Bir gün deşilmiş aftafanı keşikçi zabitin başına çırparaq demişdi: götürün, heç olmazsa bu şahənşah ölkəsinin aftafasını təmir edin. Əcəba, şahənşahi həbsxanasının nə üçün aftavası yoxdur?

Fərruxi ilə zindanda bir neçə dəfədən artıq görüşə bilmədim. Novruz bayramının birinci günü idi. Həmin bayramda o... bizim üçün bayram deyil... adlı şerini oxudu.

Həbsə düşməzdən əvvəl də Fərruxi ilə tanışlığımız var idi. Bir gün ona dedim: Nə üçün Avropadan geri qayıtdın? Yad adamlar olduğu üçün cavab verməк istəmirdi. Ona görə də üstü örtülü şəkildə «Mən biganələr əlindən heç vaxt nalə etmirəm»* şerini oxudu.

O, hamıdan şübhəli idi, hamını zindan casusu hesab edirdi. Heç kəsin yardım və köməyini qəbul etmirdi.

O deyirdi:

«Polis idarəsi müəyyən adamların əlilə məni öz əlaltısına çevirmək istəyir.

Fərruxi zindanda öz paltarını, ədyalını, kitablarını və sair şeylərini satmış idi. Bir dəst köhnə pijama və bir əzilmiş papaqdan başqa heç bir şeyi yox idi. Lakin əhvali-ruhiyyəsi çox mətin və möhkəm idi. Danışıq tərzi qətiyyən dəyişməmişdi. Həmişə olduğu kimi, yenə də təbəssümlü, qürurlu və eyni zamanda xoş rəftar və xoş söhbət idi. O, bəzən deyirdi:

Bu ağalara hər həftə görüş icazəsi verilir. Bəs nə üçün mənim dost və tanışlarıma görüşməyim üçun icazə verilmir?

Mən isə, - Axı sən Fərruxisən, siyasi şəxsiyyət və jurnalistsən. Bunu bilmirsən ki, damı çox olanın qarı da çox olar?-deyə cavab verərdim. O, sözlərimi təbəssüm və zarafatla qarşılardı...

Fərruxi ilə ikinci görüşümüz qədir bayramı günü baş verdi. Dostlarımdan biri iki gün çalışdıqdan sonra zindan müdirindən icazə alaraq məni nahara qonaq çağırmışdı. Bu hadisədən xəbərdar olan Fərruxi həmişə olduğu kimi gülə-gülə gəlib dedi: bilirsən? Yalnız sənin xatirinə gəlmişəm. Ev sahibi və onun dostu müsyo Boğosla da barışıram. Əsədidən də küsməmişdim. İndi hamınızla barışmağa gəlmişəm, hamınızı öpmək istəyirəm. Naharı da burada meyl edəcəyik. Ətli balığım var, onu kətə ilə yeyəcəyik. Dəmlədiyim əla növlü lahican çayını da bu saat sizin üçün gətirəcəyəm.

Həmin gün axşamadək bir yerdə olduq. Onun həyatına qəsd olunacağını heç kəs fikrinə belə gətirə bilmirdi. O, deyirdi:

Mən sizin kimi deyiləm, baltanı kökünədək vurmaram. Heç olmazsa özüm üçün bir əlyeri qoyaram.

Mən bu sözlərin cavabında dedim: Bəs nə üçün Avropaya getdin, nə üçün geri qayıtdın? O dedi: - getmək məsələsi çox sadə idi. Salar Zəfərin gizli vərəqə məsələsində məni də həbsə almaq istəyirdilər. Moskvada verilən pul mənə kifayət etmirdi. İran səfarətxanasından xərclik istədim. Səfarətxana isə mənə yalnız Avropada xərclik veriləcəyi imkanını bildirdi. Beləliklə, Berlinə gedib oradakı İran səfarətxanasından xərclik alaraq alman mətbuatının himayəsi altına sığındım. Orada istədiyim yerlərə gedir və hər yerdə böyük hörmətlə qarşılanırdım. O, dövrdə hələ alman demokratik vəziyyətdə idi. Müxtəlif qrupları yaxından müşahidə edirdim.

Fərruxi belə bir əqidədə idi ki, Almaniya gələcəkdə Rusiya ilə müharibə edəcəkdir. Fərruxi İrana qayıtması barədə deyirdi:

Mən heç də səhvə yol verməmişəm. Canımın təmin olunacağı haqqında mənə söz verdilər. İrana qayıtdıqdan sonra çoxlu çətinliklər çəkdim. Müəyyən müddət qarajda yaşadım. Sonra Dərbəndə köçdüm və orada da məni rahat qoymadılar. Qulluqçumu həbs etdilər. Dostlarımla gəl-get etməyə mane olurdular. Yanıma gələn adamları istintaqa çəkirdilər.

Bəzən şerdən danışaraq ona deyirdim: şairlikdə yalnız zindanda qalmağın çatışmırdı. Bədbəxtlik və sıxıntılara məruz qalmayan adam yaxşı şer deyə bilməz. Sənin son şerlərini, bütün ömrün boyu fars dilində dediyin ən səlis və ən təbii şerlər hesab edirəm. Sən əslində şer demək deyil, təbiəti, daha doğrusu həqiqəti təsvir edirsən.

Bu sözdən onun sanki xoşu gələrək dedi: Yenə də kələk gəlirsən.

Mən dedim: - Sən belə xəyal et. O gün, günün altında oturaraq dərin fikrə dalmışdım. Zənnimcə «Nə qədər çılpaq oluramsa, məni bir o qədər artıq isindirir. Heç bir yaz, günəş şüaları qədər mehriban deyil»**. Şerini

hazırlayırdın. O şəraitdə başqa bir təsəvvürün ola da bilməzdi. Demək bu, şer deyil, ilhamdır, təbiətin özüdür. Sən zindanda olmasaydın bu beyti belə orijinal şəkildə yaza bilməzdin.

Şair, şerinin belə qiymətləndirilməsindən ruhlandı. Mən əlavə edərək dedim: «-Söz yox ki, zindandan xaricdə söylədiyin rübailər də təqdirə layiq şöhrət qazanmışdır. Bu sözümün müqabilində Fərruxi dedi: - Mən daha çox öz qəzəllərimlə şöhrət qazanmışam. Moskvada gördüyüm bir hadisə heç vaxt yadımdan çıxmaz... Bir gün Moskvanın soyuq və qarlı küçələrindən birindən keçirdim. Qəflətən velosipedə minmiş bir qız arxadan çatıb öz velosipedini bir anlığa mənim yanımda saxladı. Mən təəcüblə ona baxdım. O, mənim baxışımı şirin bir təbəssümlə qarşılayaraq çox səlis bir ləhcədə farsca danışmağa başladı. Əl-ayağımı yığışdırıb söhbət açmaq istədim. O isə dərhal velosipedini sürüb gözdən itdi. Bu hadisədən sonra müxtəlif küçələrdə bir daha iki-üç dəfə həmin qızla rastlaşdım. Lakin heç vaxt onunla danışmağa fürsət olmadı. Halbuki, həman təsadüfdən etibarən həmişə onun fikri ilə yaşayır və istəyirdim ki, bir dəfə də olsa, onunla danışam. O qızın baxışı, cazibədar gözləri və xoş əndamı həmişə nəzərimdə təcəssum edirdi. Hətta bir an onu fikrimdən çıxara bilmirdim. Nəhayət, bir gün sakin olduğum mehmanxananın pillələri qarşısında həmin qızla rastlaşdım. Bir neçə gənc qız da onunla birlikdə idi. Onu görən kimi ürəyim titrədi. İnsafla deməliyəm ki, gözəl və məlahətli idi. Məni görən kimi yenə də duzlu təbəssüm edərək dayanıb salam verdi. Əleykəssəlam deyib soruşdum: - Bağışlayın siz məni haradan tanıyırsınız?

Mən sizin müridlərinizdən biriyəm. Siz «Tufan» qəzetinin mudiri cənab Fərruxi deyilsinizmi?

- Bəli həman adamam. Lakin siz məni haradan tanıyırsız?

Sizi, şəklinizdən tanıdım. Qəzəlləriniz, şəklinizlə bərabər, Leninqradda çap edilmişdir. Mən Leninqrad Şərq Dilləri İnstitutunun talibəsi olmuşam. Görürsünüz fars dilində pis danışmıram. Sizin kitabınızı çox xoşlayıram. Qəzəllərinizdən bir çoxunu əzbərləmişəm. Vaxt olsa bəlkə də sizin üçün oxuyaram.

Şair bu macəranı söylədiyi zaman zindanın bütün çətinliklərini unutmuşdu. O, sanki qəzəllərini bir daha velosiped sürən qızın dilindən eşitmək istəyirdi. Təəssuflər olsun ki, yazıq şair bu arzusunu da özü ilə qəbrə apardı. Ərbab Gudərzinin verdiyi raport nəticəsində faciəli bir surətdə həyatını başa vurdu. İndi onun məzarının harada olduğu məlum deyil. Bu məlum olsaydı yəqin ki, velosipedə minən iranlı qızlardan biri onun qəbri üstə bir dəstə çiçək qoyub deyərdi: yalnız Moskvadakı qızlar deyil, iranlı qızlar da sənin qəzəllərini ürəkdən sevir və əzbərləyirlər. Məgər sən bundan başqa bir şey istəyirdinmi?

* «Mən əz biqanəqan hərgez nənaləm».

** hər çe oryantər şəvəm bər mən begirəd gərmtər
heç yari-mehreban çon əşeeye-xorşid nist

# ƏLİMƏRDAN XAN BƏXTİYARİ VƏ DİGƏR MƏHBUSLAR

Bəxtiyari xanlarının içərisində ilk növbədə Əlimərdan xan, sonra isə Xanbaba xan Əsəd məhbusların husni-rəğbətini qazanmışdılar.

Əlimərdan xanın zindanda heç bir var-dövləti yoxidi. Buna baxmayaraq əlinə düşən bütün şeyləri ehtiyacı olan adamlara, məhbus dostlarına verərdi. Yeddinci koridorun həyətindəki hovuz və çiçəkliyi o tikdirmişdi. Deyildiyinə görə həmin iş üçün iki yüz tümən pul xərcləmişdi. O, bir çox cavanmərdlik sifətlərinə malik idi. Məsələn, müvəqqəti həbsxanada saxlandığı birinci ildə onun üzqırxan qutusunu yoxlamaq istəmişdilər.

Əlimərdan xan isə həman gündən etibarən zindanda saxlandığı səkkiz il müddətində qeyd olunan qutudan daha istifadə etmədi və üzünü qırxmadı. Zindan rəisi ilə həmin məsələ üstündə küsmüşdü. Deyildiyinə görə, Əlimərdan xan haqqındakı edam hökmü həyata keçirilən zaman zindan rəisi onunla üzbəüz olmağa və hökmü elan etməyə hazır olmamışdı. Lakin Əlimərdən xanın səmimi dostu olmuş və daima onun tiryək manqalı başında əyləşmiş ağayi İmadi bu göstərişi yerinə yetirmiş və həmin iş üçün mükafat olaraq zindanın müdirliyi vəzifəsinə keçirilmişdi... İmadi ilə səmimi dost olub, həman hadisə zamanı məhəldə şahid olmuş mötəbər bir adam bu məsələni bütün təfsilatı ilə bizə şərh etdi.

O deyirdi: keçmiş qayda üzrə səhər Əlimərdan xanın yanına getmişdi. Çay qoyub tiryək çəkmək şəraitini təzəcə hazırlamışdıq. Bu anda İmadi qapını döyüb daxil oldu. O, salam verərək qapının yanında dayandı. Sifəti bir qədər tutulmuş kimi idi. Biz belə fikir etdik ki, təklifimizi gözləyir. Bir halda ki, həmişə otağa gəldikdə təklif olunmasını gözləmədən keçib oturardı. Əlimərdan xan təəcüblə soruşdu, nə üçün keçib əyləşmirsiniz? İmadi başını aşağı salaraq dedi: Təəssüf olsun ki, əyləşə bilməyəcəyəm. Otaqdan xaricə çıxmanızı xahiş edirəm. Sizə gizli sözüm var.

Əlimərdan xan gülərək dedi: məqsədinizi başa düşdüm. Bunun üçün utanmaq və qapının yanında dayanmaq lazım deyil. Buyurun əyləşin işlərimi görüb qonağımı yola salım. Bir sıra yadigar şeylərim var onların da arxasını yazım. Bu işlər qurtardıqdan sonra gedərik. Əhəmiyyətli bir məsələ deyil.

İmadi istər-istəməz gəlib oturdu. Edama məhküm olunmuş Əlimərdan xan sanki özünü heç bir böyük hadisə qarşısında hiss etmirdi. O, ayrı-ayrı adamlara veriləcək şeyləri tam sakitliklə yığışdırdı. Yadigar vermək istədiyi kitablarının bircə-bircə dalını yazdı. Gündəlik adəti üzrə tam soyuqqanlılıqla səhər yeməyini yedi. Sonra ən yaxşı paltarlarını geyinib, çəliyini götürərək dedi: buyurun mən hazıram.

Mən və İmadi ayağa durduq. Əlimərdan xan qabağa düşdü. Biz isə onun ardınca otaqdan çıxdıq. Onu zindanın xəstəxanasında saxlayırdılar. Buna görə də ilk növbədə xəstə məhbuslarla xudahafizləşdi. Onlarla birbəbir görüşdü. Sonra oradan çıxıb bütün koridorların dalanlarına getdik. Orada da dəmir məcərlər arxasından bütün məhbuslarla vidalaşaraq yeddinci koridordan keçib ilk dalana çatdıq. Orada böyük təəssüflə biri-birimizdən həmişəlik olaraq ayrıldıq. Mən böyük həsrət və təəssüflə yaşadığım koridora qayıtdım. O isə İmadi ilə birlikdə çıxıb getdi.

Eşitdiyimə görə, yolda onunla birlikdə edama aparılan yoldaşlarının ağlamalarına qəzəblənərək demişdi: «Ana, mən qəribəm sözlərini yığışdırın. Ağlamaq və sızıldamaqla abırımızı tökməyin. Biz də müvəffəq olsaydıq onlarla belə rəftar edəcəkdik!».

Deyildiyinə görə, Əlimərdan xan güllələnməmişdən qabaq pəhləvi papağını başından götürüb cıraraq kənara atmışdı. Bütün məhbuslar bu rəşadətli insanın ölümünə təəssüf edib ağlayırdılar. Bir halda ki, hərbi nazir və sairlərin edam olunmasını məhbuslar çox soyuqqanlılıqla və laqeydliklə qarşıladılar. Edam olunmazdan əvvəl dəli olmuş İranban, Şahzadə Xaqani və onların yoldaşlarının ölümü məhbusları o qədər də təəssüfləndirmədi. Sərdar Əşair və Sovlətüddövləni də məhbuslar o qədər xoşlamayaraq deyirdilər ki, o, sümükləri qarışqa yuvalarının ağzına qoyurdu. Qarışqalar sümüyün üstünə yığıldıqdan sonra onu suya atır və qarışqaları öldürürdü. Bununla məhbuslar Sovlətüddövləni qısasçı və zəifləri əzən bir adam hesab edirdilər. Lakin zahirən ağıllı bir gənc kimi görünən onun oğlu haqqında, məhbusların fikri yaxşı idi.

Əmir mücahid Bəxtiyarını isə hətta qohumları və onun qardaşı uşaqları belə sevmirdilər. Deyirdilər ki, o, simic və ağzıboş adamdır. Heç kəsə bir şahı pul xərc etməzdi. Ona gətirilən şəkərçörəkləri o qədər saxlayardı ki, nəhayət kiflənərdi, sonra onları tullardı.

# QAİMMƏQAM RƏŞTİ

Qaimməqam Rəşti yeddinci koridorda saxlanılırdı. O. məhbusların nəzərini əsla cəlb edə bilmədi. Xüsusi təmizləyicisi də onun haqqında çoxlu sözlər danışırdı.

Təmizləyicisi məşhur peşəkar oğru Əli Kövsər idi. Qaimməqam həmişə ona deyirmiş «Tapşır mənim üçün yalnız bir nəfərlik xuruşlu plov gətirsinlər». Əli Kövsər isə həmin göstərişin əksinə olaraq heç olmazsa üç dörd-nəfərlik xörək sifariş edirdi. Belə olduqda xuruşlar da çürbəcür olurdu. Ərbab bu vəziyyəti gördükdə hamını söyüb deyirdi: «Bunlar məni müflis edəcəklər».

Məhbuslar onun uzun-uzadı ibadətlə məşğul olmasına və dua oxumasına pis nəzərlə baxardılar. Bu hərəkətləri onlar Qaimməqamın zəif ruhiyyə və iradəyə malik olması ilə əlaqələndirirdilər. Eyni zamanda onun xaricdə gördüyü işlər də məhbusların nəzərində təsirsiz deynldi.

# DƏBİR ƏZƏM VƏ DƏŞTİ

Deyildiyinə görə, Dəbir Əzəm pis adam olmamışdır. O, dördüncü koridorda saxlanılırdı. Onun yardım etmək haqqındakı təkliflərindən siyasi məhbusların xoşu gəlməzdi. Şeyx Əli Dəştiyə, o cümlədən diktatorluq dövrünün başqa adlı-sanlı adamlarına məhbuslar etina etməyir, hətta adi bir adam qədər əlaqə bəsləmirdilər. Bəziləri fürsət ələ keçirdikdə onları təhqir edib və hətta, söyüş də verirdilər.

# SƏRDAR RƏŞİD KÜRDÜSTANİ

Mənim əqidəmcə Rəşid Kürdüstaniyə hamıdan çox sədəmə dəydi. Yazıq təxminən on beş il idi ki, zindanda saxlanılırdı. Son vaxtlarda daha da ruhdan düşmüş, taqəti sarsımışdı. Arvadının ölümü ilə əlaqədar olaraq vəziyyəti tamamilə pozularaq dözülməz olmuşdu. Gündə ən azı on səkkiz saat gəzərdi. Çox vaxtlar kədərli və qəmli görünərdi.

Bütün bunlara baxmayaraq, yenə də başqalarına təsəlli verərdi. Məhbuslardan hər hansı xəstə olub və yaxud qeyri-təbii ölümlə fövt etdikdə, onun halı büs-bütün dəyişərək deyərdi: «Nəhayət, bizim də növbəmiz gəlib çatacaq». Muxtari şəxsən onun ən qorxulu hərifi idi. O, istəyirdi ki, nə vasitə ilə olursa-olsun sərdar Rəşidin atasının əmlakını əlindən çıxartsın. Bu iş nəhayət məhkəməyə və ədliyyəyə də çəkmişdi. Sərdar Rəşid bu məsələdən çox qorxurdu. O, hətta öz əmlakından əl çəkməyə belə hazır olmuşdu.

# GENERAL LEYTENANT CAHANBANİ

General leytenant Cahanbanini mən şəxsən görmədim. Çünki, onu mərkəzi zindana gətirmədilər. Eşitdiyimə görə, müvəqqəti həbsxanada sair məhbuslarla onun rəftarı pis olmamışdır. İmkan daxilində başqalarına

kömək edirmiş. Onun haqqında zindanda yayılmış şayiənin nə qədər düzgün olub-olmadığı barədə heç bir söz də deyə bilmərəm. Lakin deyildiyinə görə, şah ondan soruşmuşdu ki, İranın hərbi qüvvələri böyük dövlətlərdən birinin qarşısında nə qədər müqavimət göstərə bilər. Cahanbani bu sualın cavabında demişdi: Onlar hücum etdikləri anda İranın ordusu bütünlüklə məhv olacaqdır.

Bu cür şayiə, əksər halda keçmiş şahla müxalif olan adamlar tərəfindən yayılırdı. Məsələn, polkovnik Nəsrulla xan Kəlhor deyirdi ki, şah heç bir dövlətlə müharibə edə bilməz. O, yaxşı bilir ki, belə bir təşəbbüslə ilk növbədə öz şahlığı sona çatacaqdır. Buna görə də qonşu dövlətlər nə istəsələr şah onu qəbul etməlidir.

## GENERAL LEYTENANT ŞEYBANİ VƏ BAŞQA BİR AĞA

General leytenant Şeybani də, o qədər şöhrət qazanmadı. O, zindanın xəstəxanasında yaşayırdı. Çox məhdud adəmlarla rabitə və əlaqə saxlayırdı. Deyirdilər ki, çox ciddi adamdır, gahdan bir zindan məmurları ilə də höccətləşirdi. Məsələn, bir gün evindən göndərilmiş xörəyi təhvil alarkən portağalların biri əskik gəlmişdi. General portağalları geri qaytararkən demişdi: - Bunlar mənim deyil. Mənim üçün on ədəd göndərilməlidir. Bu isə doqquz ədəddir...

Adını qeyd etmək istəmədiyim bir ağa zindana belə bir şayiə yaymışdı ki, Şeybani də bizlərdəndir. Deyirdilər ki, bu xəbər generalın qulağına çatandan sonra əsəbiləşərək həmin adamı daha otağına yol verməmişdi. Bu general ağadan biz çox zərər gördük. O, belə xəyal edirdi ki, zindan dini təbliğat üçün münasib bir yerdir. Ac və lüt adamları asanlıqla ələ keçirmək olar. O, dini təbliğatı sadə və avam adamlara deyil, siyasi məhbuslara edirdi. Buna görə də lazımı nəticəni almırdı. Belə olduqda o, böyük təbliğatçılar kimi istiqamət, səbr və mətanət göstərmək əvəzinə, intiqam almaq qərarına gəlirdi. Deyildiyinə görə o, siyasi məhbuslar əleyhinə keçmiş şaha yazılı surətdə raport göndərmişdi. Həmin raport nəticəsində zindanı idarə etmək sahəsində böyük dəyişiklik törəndi. Zindana qəzet gətirilməsi qadağan olundu. Ordunun baş prokuroru polkovnik Xələtbəri və bir neçə nəfər general ilə birlikdə zindanı yoxlamağa gəldilər. Təsadüfən bu ağaların zindana gəldikləri gün mən ağır xəstə idim. Məhbusları həyətə çıxarmışdılar. Mən isə otaqda tək qalmışdım. Zabitlər bir-bir otaqları yoxladılar. Nəayət, mənim otağıma çatıb qapını açdılar. Bu dəbdəbəli heyəti gördükdə əlacsız qalıb çarpayıdan qalxdım. Zindan müdiri işarə ilə mənə başa saldı ki, öz sözlərimi deyim. Mən isə belə bir fürsət axtarırdım. İrəliyə gəlib dedim - :Ərzim var.

General İsmayıl xan dedi: Nə istəyirsən?

Dörd ildir ki, məni buraya atmışlar. İstəyirəm ki, işimə yetişsinlər, təklifimi müəyyən etsinlər.

İsmayıl xan soruşdu. Məgər səni mühakimə etməmişlər?

-Yox?

- Bəs səni necə burada saxlamışlar?

Mən bir qədər ürəklənərək fikirləşdim ki, yaxşı fürsət ələ keçmişdir. Başqalarının da vəziyyətini desəm daha yaxşı olar. Buna görə də dedim:-Ağa, mən tək deyiləm, burada təklifi müəyyən olunmamış şəxslərin sayı çoxdur.

-Məgər sizdən heç bir sorğu-sual olunmamış, istintaq edilməmişdir?

Nə üçün, ittilaat idarəsində bir-iki dəfə istintaq etmişlər.

İsmayıl xan qaşlarını çataraq dedi:-Daha nə istəyirsən, nə üçün deyirsən ki, tklifim müəyyən edilməmişdir.

Bu eybəcər məntiq qarşısında daha nə demək olardı. Öz-özümə dedim: «Yenə də allah keçmiş kəfən oğrusuna rəhmət etsin» .«Yenə də allah Ayrumun atasını bağışlasın». Heç olmasa o, deyirdi: Qanun sizin vəziyyətinizə şamil deyil.

Xülasə, komisyon zindandan çıxıb getdikdən sonra işgəncələr başlandı. Şahın elçiləri gedib demişdilər ki, zindan güya mehmanxanaya oxşayır, elə bir tədbir görülməlidir ki, məhbus tənbeh olunsun. Gecələr otaqların qapıları qıfıllanmalıdır. Bütün məhbuslar zindan paltarı geyməlidir. Müxtəlif koridorlarda yaşayan adamlar bir-biri ilə əlaqə saxlamamlıdırlar. Xəstə məhbuslar koridorda müayinədən keçirilməlidirlər. Xülasə, yoxlamadan sonra vəziyyətimiz daha da ağırlaşdı. Cənab generalın özü də etdiyi xidmətlərinin haqqını aldı. Onun raportu nəticəsində həyata keçirilən qaydalar qısa müddət üçün olsa belə özünə də şamil oldu. Zindan məmurlarından Hacı xan generalın sinəsindən yumruq ilə vurub təhqir etdikdən sonra, qapını onun üzünə bağlayıb qıfılladı. Həmin gündən etibarən oğurluq və sair günahlar üstündə tutulmuş adamların siyasi məhbuslar yaşayan koridora gəlmələrinə icazə verilmədi. Generalın özü də oğurluq üstündə tutulduğuna görə bizim koridordan köçüb getməli idi. Lakin o, bizim koridordan köçürülmədən əvvəl, şah tərəfindən bağışlandı və zindandan çıxıb getdi.

## GENERAL-MAYOR PESYAN

General-mayor Pesyan həmin yoxlama komisyonunun təsirli üzvlərindən biri sayılırdı. Həmin üzdən iraq yoxlama və kobud qaydalar tətbiq edildikdən dörd-beş il sonra general-mayor Pesyanın özünü oğurluq və rüşvət almaqda təqsirləndirərək zindana gətirdilər. Bir gün hamam koridorunda onunla rastlaşdım. Bizimlə tanış olmağa çox meyl göstərirdi. Salam əleykdən sonra birinci olaraq mən sözə başlayıb dedim: hələ də sizi mühakimə etməmişlər?

- Nə demək istəyirsən?

- Təklifsiz həbs olmağı xoşlayırsınızmı?

- Məqsədinizi başa düşmürəm?

O, artıq adi bir məhbus idi. Özü də bunu hiss etmişdi ki, daha general-mayor deyil. Buna görə də söhbətimiz çox adi qaydada gedirdi. Bu dəfə Azərbaycanca ona dedim: Dadaş bir neçə nəfər rütbəli zabitlə buraya gəlməyini yadından çıxarmısan? O gün heç fikirləşmirdin ki, bir gün gələcək səni də həmin yerə salacaqlar?

- Nə demək istədiyinizi indi başa düşdüm. O vaxtdan hələ də burada qalmısınız?

- Bəli, görürsünüz ki, xidmətinizdə dayanmışam. Lakin bir çoxları sizin qoyduğunuz qaydalara müqavimət göstərə bilməyərək Əlimüddövlə* qapısından çıxıb getmişlər.

- Yaxşı yadımdadır, siz həman xəstə olan adamsınız, yaxşıdır ki, ayağüstə dolana bilirsiniz.

- Əlbəttə, buna şükür etmək lazımdır.

Bu hadisədən sonra daha onunla görüşməyə çalışmadım. Məhbusların digər dövlət qulluqçuları kimi Pesyandan da xoşları gəlmirdi. Lakin Pesyan məhbuslarla, xüsusilə aşağı təbəqəyə mənsub olan məhbuslarla görüşüb söhbət etməyə çox meyl göstərirdi.

Çox təəssüf ki, hər şeyi yazmaq olmur. Biz bir çoxlarını görmüşük. Mazəndəran mülkədarlarını, Çahkutahı xanlarını. Bunlar da sadə və yaxşı adamlar idilər. Kəlhor tayfasının rəisləri sayılan Əmir Məxsus və Xosrov xan da bir sıra xüsusi ixtilaflara malik olduqlarına baxmayaraq, zərərsiz adamlar kimi görünürdülər. Cəfər Sultanın oğlanları və kürdlərin kobud olmalarına baxmayaraq onları da yaxşı adamlar sırasında saymaq olar. Muxtarinin qardaşı yeddi il əyninə uzun bir köynək geyib, çiyninə əba salaraq yeddinci koridorda qalmışdı. O vaxt o, mömin adama çevrilərək namaz qılırdı. Lakin eşitdiyimə görə, zindandan buraxıldıqdan sonra, Lalə mehmanxanasını açaraq içki satmaq və cürbəcür yollarla zindanda qaldığı yeddi ilin əvəzini çıxmaq istəyirdi.

Qatil Əskər də mərkəzi zindanda saxlanılırdı. Onun da çox qəribə əxlaq və davranışı var idi. Hacı Məhəmməd Bağır Gülpayəgani ilə dost olmuşdu. Zindan idarəsi tərəfindən istisna olaraq ona verilən qənd ilə isgəncəbin düzəldib, satırdı. Eşitdiyimə görə, o, bu yol ilə əlli-altmış tümən pul yığmış idi. Onun üçün istədiyi xörəyi düzəldirdilər. Bir gün yay fəslində təzə balıq istəmişdi, baha qiymətlə alıb gətirdilər. O, edam ediləcəyini heç də fikirləşmirdi. Çox qanmaz adam idi. Deyirdi ki, «Mən pis əməllərin kökünü kəsmək istəyirdim. Əlahəzrət bu iş üçün mənə yaxşı mükafat verəcəkdir».

Ömürlük həbs cəzasına məhkum edilmiş bir neçə məhbusu onun yanına salmışdılar ki, ehtimali cinayətlərə yol verməsinin qarşısını alsınlar. Bunlar isə Əskərin tamahkarlığından istifadə edərək tümənə bir qıran həftədə faiz vermək şərti ilə onun pullarını borc almışdılar. Onlar yaxşı bilirdilər ki, bir neçə gündən sonra Əskəri edam edəcəklər...

Məşhur Ağazadəni də bizim koridora gətirdilər, O, çox qorxurdu. Hətta digər məhbuslarla görüşmək və danışmaq da istəmirdi... Təəssüflər olsun ki, hazırkı vəziyyətdə bir çox məsələlərin ətrafında bəhs açmaq mümkün deyil. Ümid edirik ki, daha münasib mövqe gəlib çatacaq. Müəllifin ixtiyarında daha geniş vasitələr olacaq, həmin məsələlər bütün təfsilatı ilə yazılacaqdır.

* Əlpmüddövlə İran polis idarəsinin qanuni həkimi idi. Məhbusların ölüsünu zindanın dal qapısından çıxarıb aparırdılar. Haman qapını məhbuslar Ələmüddövlə qapısı adlandırmışdılar.

## KAZIMIN QATİLİ ƏBÜLQASIM ÇÖRƏKÇİNİN ETİRAFLARI

Əbülqasım çox qəribə bir adam idi. Onu adi qatillər və cinayətkarlar sırasında saymaq olmaz. Adi, siyasi terrorçu da deyildi. Əbülqasım tamahkar və pulsevən hacı Məhəmməd Bağır Gülpayganiyə, cinayətkar, şəhvətpərəst qatil Əskərə də oxşamırdı. Fanatizm, qisas almaq və digər hisslər üzündən cinayət edib zindana düşmüş adamlarla onun davranışı arasında böyük fərq var idi. Müəyyən siyasi məqsədə çatmaq üçün şahı öldürmək istəyən Yusif erməni və Firuz Nəmini ilə də onu bir sırada saymaq olmaz. Onun siyasətdən qətiyyən başı çıxmırdı. Çox adi və eyni halda əsəbi və incə adam idi. O.özünü təqsirkar hesab etmir və cinayəti boynuna almırdı. Biz belə təsəvvür edirdik ki, digər cinayətkarlar kimi, o da inkar yolu ilə özünü müdafiə etmək istəyir. Lakin onun ruhiyyəsi ilə tanış olduqdan sonra məlum oldu ki, cinayət etdiyi vaxt o,

təbii haldan çıxmış, nə etdiyini özü bilməmişdir. Bu hadisəni o, bizə danışanda hissləri o qədər yüksəlir və coşurdu ki, qiyafəsi hamını heyrətə salırdı.

Əbülqasım deyirdi: Mən Şəbüstərliyəm. Bir müddət Türküstanda qalmışam. Oradan isə Əliabada gedib çörəkçi dükanı açdım. Get-gedə işim yaxşılaşırdı. Lakin dövlət məmurları məni rahat qoymurdular. Onlar, cürbəcür bəhanələrlə hər gün gəlib məndən pul istəyirdilər. Mən isə azad bir mühitdə boya-başa çatdığım üçün tiryəki polislərə, şirə çəkən müstəntiqlərə yalvara bilməzdim. Qazandığım çörəyi özgələrə vermək istəmirdim.

Buna görə də polislərə tam qoluzorbalıqla cavab verib dükandan qovurdum. Axı mən haradan biləydim ki, vətənimdəki dövlət məmurları fahişə qadınlardan daha alçaq və daha namərddirlər. Demə bu ağalar tülkü kimi qorxub qaçırsalar da, öz kinlərini pərdə altında həyata keçirirdilər. Nəhayət, onlar işi bir şəklə saldılar ki, müfəttiş gəlib dükanı bağladı və dilimdən kağız aldı ki, dərhal Şahi şəhərindən çıxıb Tehrana gedim. Onlar mənə dedilər ki, bir müddət Türküstanda qaldığın üçün başın havalıdır. Sənin Şahi karxanası ətrafında qalmağın təhlükə törədə bilər. Bir halda ki, mən heç vaxt siyasət fikrinə düşməmişəm. Kommunist və sosialistin də nə olduğunu bilmərəm. Sair şeylərdən də baş çıxarmıram. Əlacsız qalaraq bütün var-yoxumu satıb Tehrana gəldim. Bütün yüksək məqamlara ərizə yazdım. Ağıla gələn hər hansı adamın yanına getdim. Laknn heç bir nəticə ala bilmədim. Şahdan, məhkəmə hakimindən, məclis rəisindən tutmuş, bütün qəzetlərədək, hər yerə öz dərdimi çatdırdım. Sözlərimə heç kim cavab vermədi. Bir neçə ay o yan-bu yana qaçıb nəticəsiz qaldıqdan sonra bütün pullarımı da xərcləyib qurtardım. Əlacsızlıqdan paltarlarımı da satdım. Həmin pul ilə bir iş görmək istəyirdim.

Şübhəsiz ki, bu yol ilə Tehranda alış-veriş etmək olmazdı. Alver üçün icazənamə və min cür şey istəyirdilər. Nəhayət, çörək alıb-satmaqla dolanmaq istəyirdim. Lakin çörəyi də alan yox idi.

Səhərdən axşama qədər gəzib, elə yorulurdum ki, yerimdən tərpənə bilmirdim. Başıma cübəcür fikirlər gəlirdi. İntiqam almaq, şahın, nazirlərin, vəkillərin, qarşıma çıxan bütün adamların qarnını yırtmaq istəyirdim. Axı, mənim kəsbkarımı əlimdən almışdılar. Bir tikə çörək qazanıb abırlı həyat sürməyimə mane olmuşdular. Axı, Riza xan özü kim idi? İlk vaxtlarda belə xəyal edirdim ki, o da bir kişidir, xahiş, təmənna başa düşər. Həyatının ilk çağlarında bizim kimi çətinliklə dolandığını eşitmişdim. Lakin Tehrana gələndən sonra onun sarayına baxıb, qəzetlərin yalan hay-küyünü gördükdən sonra, onun çox namərd olduğunu, ətrafındakı adamların özündən daha vicdansız olduğunu anladım, Bu namərdlərdən intiqam almaq, xüsusilə onu tərifləyən, ona yaltaqlıq edən qəzetçilərdən intiqam almaq qərarına gəldim. Qəzetçilərin yalan sözlərindən xüsusilə İttilaat kəlməsindən acığım gəlirdi. Onların səsini eşidəndə bədənim əsirdi.

«İttilaat» qəzeti müdirinin bisavad olduğunu eşitmişdim. Onun yaltaq və yalançı olduğunu bilirdim, axı, bu qədər yalan, bu qədər iftira, bu qədər yaltaqlıq nəyə lazımdır? Həqiqətdə bu boş sözləri və yalanları oxuyub səsini çıxarmayan xalqdan da acığım gəlirdi. Hamıdan intiqam almaq istəyirdim. Sanki sərxoş olmuşdum. Lakin məni sərxoş edən şərab deyil, dəhşətli xəyalat, intiqam hissləri olmuşdu. Hara getdiyimi bilmirdim. Şahı, məhkəmə hakimini, polis idarəsi rəisini, müfəttişləri, «İttilaat» qəzetinin müdirini, hamını öldürmək istəyirdim. Bütün kağızlara, qəzetlərə od vurub yandırmaq istəyirdim. Axı, mənə zülm etmişlər, həyatımı təhlükəyə salmışlar. Mən acından ölməli idim. İstəyirdim hamını da özümlə o biri dünyaya aparam, hamını öldürom. Nə üçün işləmək qabiliyyətinə malik olduğum halda, mən acından ölüm, Bu qədər hissiz heyvanlar isə şəhərdə alçaq həyatlarını davam etdirsinlər. Başım o qədər qızışmışdı ki, haraya gəlib çatdığımı bilmirdim. Yalnız bu yadıma gəlir ki, bir nəfər qəzet satan mənim yanımda qışqırıb «İttilaat... »qadınların çarşablarının götürülməsi sözlərini dedi. Bu səsdən sonra nə etdiyim yadıma gəlmir. Dərhal həmin qəzetin alçaq, yaltaq və yalançı müdiri yadıma düşdü. O, bizim bədbəxtliklərimizi ört-basdır edirdi. Bu səs şahın

namərdlikləri və cinayətlərini pərdələyən adamı, qəddarlığı ədalət kimi göstərməyə çalışan adamı yadıma saldı. Bu səs sanki öz oğurluqlarını, qarətçiliyni, vicdansızlığını, habelə qadınların çarşabını götürməyi başqa cür qələmə vermək istəyən şahın səsi idi. Mən belə bir səsi boğmaq, həmin qəzetləri cırıb dağıtmaq istəyirdim.

# HƏQİQƏTİ OLDUĞU KİMİ DEMƏK, YAXUD ÖMÜRLÜK ZİNDANDA QALMAQ

Polis idarəsi məmurları əzab-işgəncə və hədə-qorxudan başqa ayrı bir adi və dəhşətli silahdan da istifadə edir və hər bir məhbusun tutulduğu ilk gündən onun haqqında həmin silahı işə salırdılar. Bu silah «Ya ömürlük həbs cəzasını qəbul etməli, ya da həqiqəti deməlisən. Bu ikisindən birini özün seçə bilərsən »sözlərindən ibarət idi.

Polis məmurları həmişə deyirdilər: həqiqəti deməklə bizə yardım etsən, biz də səni himayə altına alarıq, Sənin istədiyin bütün şeylər, iş, rütbə, pul, nüfuz, nəhayət hər nə istəsən, bizim əlimizdədir. Özünü bədbəxt etmə, Tacbəxş həqiqəti olduğu kimi dediyinə görə indi gedib fılan idarədə işləyir və fılan qədər maaş alır. Sən ki, fılankəsdən artıq deyilsən. Xaricdə bir dəstə hayküyçü səni və sənin kimi adamları əlində oyuncağa çevirərək öz məqsədləri yolunda bədbəxt etdilər. İndi isə sən özünü həmişəlik bədbəxt etmək istəyirsən. Biz yalnız səndən bunu tələb edirik ki, həqiqəti açıb deyəsən. Öz meylinlə gəl və bütün bildiklərini açıb de, sonra çıx get. Bizim yalnız sənə və qohumlarına ürəyimiz yanır. Yoxsa o qədər də aciz deyilik. İstədiyimizi zor ilə öyrənə bilərik. Bir çox məsələləri onsuz da bilirik... və sairə.

Məhbus heç də axmaq deyildi. O, yaxşı bilirdi ki, nə polis idarəsində həqiqətləri açıb demək cümləsi altında xəyanətlər, yalan sözlər toxumaq, bir çox günahsız adamları bədbəxt etmək, iftira və töhmət vurmaq, vicdansızlıq və namussuzluq etmək deməkdir.

Öz vicdanına etina etməyən adamın işi çox rahat idi. O, müstəntiq qarşısında əyləşərək bir sıra yalan və əfsanələr toxuyur, onun altına qol çəkir, söz vermək, iqrar etmək, boyun əyməklə, polisə pulsuz xidmət göstərəcəyini bildirirdi. Lakin öz vicdanı və heysiyyətinə qiymət verən adam zindanda qalmağı və tədrici ölümü, yalan və iftira deməkdən ustün tuturdu.

Siyasi idarənin işçiləri bu yol ilə, necə deyərlər, bir oxla neçə nişan vururdular. İlk növbədə onlar uzun müddət zindanda təklifsiz saxlanılmış günahsız adamlar əleyhinə məlumat və sənədlər gətirirdilər. Digər tərəfdən həmin adamların yalan sözlərindən istifadə edərək bir dəstə ayrı adamı tora salıb, özləri üçün yeni dükan açır, uzun-uzadı raportlar yazmaqla yüksək rütbələrə çatırdılar. Nəhayət, onlar etiraf etmiş şəxsi rüsvay edərək, onu əbədi surətdə ictimai həyatdan məhrum edirdilər. Muxtari dövrəsində də onlar həmin üsuldan istifadə edirdilər. Lakin o vaxt öz vədlərinə əməl etməyərək yalan satanları da məhkumlar kimi cəzalandırırdılar. Muxtari hər hansı xəyanət və cinayətə yol versə də, mənim fikrimcə onun bu işi yaxşı idi. Bu işdən onun heç bir məqsədi olmasa da, hər halda məzkur hərəkətin nəticəsi günahsız adamların xeyrinə tamam olurdu. Muxtari heç də Ayrum kimi təslim olmasına qənaət etməyərək, etiraf aldığı adamları sonra cəzalandırırdı. Beləliklə, fırıldaqçılıq yolu müəyyən qədər bağlanır, xainlər cəzanın ləzzətini hiss etdikdən sonra öz səhvlərini başa düşür, zindanda öz səhvlərini düzəltməyə çalışırdılar. Bir çox aldanmış adamların son vaxtlardakı fəaliyyətini yalnız həmin səbəb üzündən aydınlaşdırmaq lazımdır. Onların davranışında intiqam hissləri də müəyyən yer tuturdu. Lakin bütün bunlara baxmayaraq, bu heç də Muxtari və onun əlaltılarının alçaq hərəkətlərini aradan aparmır və xəyanətlərinin üstünü pərdələmirdi.

# 1310-CU İL TARİXLİ QANUN*

Bir dəstənin tutulması və xəyanətkarların yalan etirafları siyasi idarənin əlinə bəhanə verdi. Onlar bu məsələni böyük hay-küylə şaha çatdıraraq kəsbi-təklif etdilər. Şah və onun əlaltıları heç bir böyük hadisə baş vermədiyini yaxşı bilirdilər. Onlar bilirdilər ki, polis idarəsinin siyasət ittihamı ilə tutduğu adamlar həqiqətdə günahkar olmamış və qanunun əksinə heç bir iş görməmişlər. Hətta, polis idarəsinin ən adi bəhanələri olan casusluq, sui-qəsdçilik ittihamlarını da bu dəstəyə heç bir bəhanə ilə yapışdırmaq mümkün deyildi. Xainlər, şarlatanlar da öz böhtanlarını lazımi yerlərə çatdıra bilmədilər. Lakin azadixah olmalarına heç kəsin şübhə etmədiyi həmin dəstəni də belə sadəliklə zindandan buraxmaq istəmirdilər. Buna görə də istər-istəməz ayrı bir yolla fəaliyyətə başlayır. «Ölkə təhlükəsizliyi əleyhinə tədbirlər görmək» məsələsini ortaya ataraq qanuni-əsasiyə zidd olan 1931-ci ilin 1 may ayı tarixli qara qanunu Davərin əlilə məclisə gətirdilər. Kommunist məramı əleyhinə yönəlmiş bu qanun zahirdə «ölkənin təhlükəsizliyini qorumaq üçün tədbirlər görməyə» aid olduğu halda, həqiqətdə o qədər elastik şəkildə hazırlanmışdı ki, istənilən təşkilatı təqib etməyə, istənilən adamı üç ildən onilədək həbs cəzasına məhkum etməyə imkan verdi. Biz həmin qanunu oxuduqdan sonra həm təəssüfləndik, həm də sevindik. Təəssüfümüz ona görə idi ki, demokratik və məşrutə üsulu ilə hökm sürən bir ölkədə qanuni-əsasinin bünövrəsi hesab edilən yığınçaq azadlığı aradan gedirdi. Eyni halda buna görə sevindik ki, həmin qanuna uyğun olaraq bizi həbsdən buraxmalı idilər. Qanunda açıqcasına deyilir ki, bu qanun keçmişə aid deyil. 1931-ci ilin iyun ayının əvvəlindən etibarən icra olunmalıdır.

Mən1930-cu ilin dekabr ayında tutulmuşdum. Hətta, siyasi idarənin məmurları da belə bir əqidədə idilər ki, qeyd olunan qanun təsdiq edildikdən sonra bizi zindandan buraxacaqlar. Lakin əməldə belə bir iş görmədilər. Bizi yenə də təklifsiz vəziyyətdə saxladılar. Soruşduqda, deyirdilər ki, «Sizi həmin qanunla mühakimə etmək olmaz. Çünki bu qanun sizin vəziyyətinizə şamil olmur. Siz qanuna zidd olaraq tutulduğunuz üçün, qanuna zidd şəkildə də azad olunmalısınız ».

Bu o demək idi ki, həbsdən buraxılmağınız öz əlinizdədir. Haçan həqiqəti söyləsəniz, siyasi idarəyə sadiq olmağınızı göstərsəniz o zaman buraxılacaqs-ız. Əlbəttə, bu sözləri bizə əvvəllər də deyirdilər. Sonralar rəsmi surətdə bildirdilər ki, « Sizin işiniz allaha qalıb, müəyyən ittifaq və hadisələrin baş verilməsini gözləməlisiniz. Ərizə yazmaq və teleqraf göndərməyinizin faydası yoxdur. Hədər yerə bu kimi işlərə əl atmayın. »

Nəhayət, bizi həmin qara qanunla mühakimə etdilər. Lakin bu mühakimə doqquz il təklifsiz saxlanıldıqdan sonra həyata keçirildi. Bu mühakimənin özünün maraqlı bir dastanı vardır.

* 1931- ci ildə XIII çağırış məçlisinin kommunistləri 10 il həbs cəzasına məhkum etmək haqqında təsdiq etdiyi qara qanundur.

# ƏZAB VƏ İŞGƏNCƏ

Söz yox ki, ən böyük və ən geniş tətbiq edilən işgəncə növü qaranlıq otaqda, (kamerada) tək saxlanılmaqdan ibarət idi. Siyasi idarənin məmurları digər cinayətkar işlərdə olduğu kimi, həmin işdə də çox ifrata yuvarlanırdılar. Bir nəfərlik qaranlıq otaq istər qış fəslinin soyuq günlərində, istərsə də yay fəslində

xəfələyici və üfunətli idi. Xüsusilə yayda bu otaqlar müxtəlif həşərat ilə dolu olurdu. Bundan əlavə palaz, yorğan-döşək və hətta paltarlardan da istifadə olunmasına yol verilmirdi. Burada məhbusları bu qaranlıq otaqlarda bir gün, iki gün deyil, aylarla və bəlkə illərlə saxlayırdılar.

Axı insan ictimai bir canlıdır. O, ağac, daş və ya kərpiç deyil. O, danışmaq, zarafat etmək, dərdləşmək, kitab oxumaq, çay içmək, papiros çəkmək istəyir O, öz yoldaşları və tanışları ilə qonuşmaqdan ləzzət almaq, faydalı bir şəxs kimi cəmiyyətin tərəqqisi yolunda çalışmaq istəyir. O, işləyib balaları üçün həyat şəraiti yaratmaq istəyir. Bütün bu adətləri birdən-birə yaddan çıxartmaq heç də asan iş deyil. Həmahəng, məqsədsiz və yorucu həyata heç də aylar və illərlə dözmək olmaz. İnsanın bədəni polad olsa da bu təzyiq qarşısında nəhayət davam gətirə bilməz, O, öz qüdrət və iradəsini itirir. Bir neçə dəqiqəlik azad buraxılmaq, nəfəs almaq üçün imkan əldə etmək xatirinə, ən ağır günahları belə boynuna götürməyə, hətta ölümə, edama belə razılıq verir. Dost və tanışlarının bir çoxu altı, yeddi və səkkiz aylarla bu cür çətin şəraitdə yaşayıblar. Onlardan bir neçəsi ağır ürək, revmatizm və sair xəstəliklərə tutulmuşdular. Mən özüm cürbəcür xəstəliklərdən başqa gözlərimin yarıdan çox nurunu itirmişəm. Yoldaşlarımızdan bir neçəsi hətta, siflis naxoşluğuna da tutulmuşdu.Biz bu vəziyyətə təəssüfləndik. Lakin doktor (S) dedi ki, bu heç də təəcübləndirici deyil. Ona görə ki, bir qayda olaraq məhbusların xörək qabları yuyulmur, bəzən yuyulduqda vəziyyət daha pisləşir. Belə ki, min ədəd kasanı böyük bir qab içində, natəmiz su ilə yuyub hamısını çirkli, köhnə bir parça ilə silirlər. Bundan əlavə, cürbəcür adamların yatdığı köhnə yorğan-döşək bir məhbus getdikdən sonra digərinə verilir, onları dezinfeksiya etmirlər...

Muxtarinin rəis olduğu dövrdə məhbusların içərisində kimin qəhrəman seçilməsini səsə qoysaydılar, mən öz səsimi ərdəbilli qaçaq İzzətə verərdim. O, üç ildən artıq bir müddətdə əli və ayağı bağlanmış şəraitdə Qəsr zindanının ən dəhşətli və qaranlıq təknəfərlik otaqlarından birində saxlanıldı və nəhayət, onun başına nə kimi bəlalar gətirilməsi məlum olmadı. Mən bu iradəli adamın şərhi-halını olduğu kimi yazsam, bu, oxucular üçün ən yaxşı bir hədiyyə olar. Söhbət qəhrəmanlıqdan getdikdə Xanbaba, Əsəd və doktor Ərani kimi qəhrəmanları yaddan çıxarmaq olmaz. Onlar da tam cəsarət və mərdliklə müqavimət göstərərək ömürlərinin sonunadək tək və qaranlıq otaqlarda qaldılar.

Qeyd etdiyimiz kimi, uzun müddət qaranlıq otaqda qalmaq çox ağır və təhlükəlidir. Müttəhim nəhayət, canından doyur, istənilən günahı boynuna alır, öz dedikləri üçün dəlil və sübut da gətirir.

Yuxusuz saxlamaq və ya polislərin dili ilə desək, yuxunu almaq da, ayrı bir işkəncə növüdür. Bu işgəncə o müttəhimlər haqqında həyata keçirilirdi ki, onların tezliklə mühakimə olunmaları və ittihamları tez boyunlarına götürmələri lazım gəlirdi.

Hamıya aydındır ki, insan heç də uzun müddət yuxusuz qala bilməz. Bu, bir çox hallarda aclıq və susuzluqdan daha çətin olur. Dostlarımdan biri deyirdi ki, Damğanda onu üç gecə-gündüz ərzində yatmağa qoymayıblar. Başqa dostumu altmış saat yuxusuz saxlamışdılar. O, deyirdi ki, ətrafıma dörd nəfər adam qoymuşdular. Gözlərimi yummaq istədikdə onlar çənəmin altından yumuruq ilə vurub məni ayıldırdılar. Başım şişmişdi, əsəblərim titrəyirdi, ürəyim döyünürdü. Xüsusilə üçüncü gecə büsbütün dəli olmuşdum. Haray çəkmək istəyirdim. Hətta, hazır olmuşdum ki, neçə dəqiqə yatmağıma icazə verilsin, sonra aparıb məni gulləməsinlər, odun içinə atsınlar. Keşikçilər manqalın ətrafında oturub tiryək çəkirdilər, araq içirdilər. Onlar növbə ilə çarpayıların üstünə uzanıb yatır və beləliklə məni incidir, yatmağa təhrik edirdilər. Əsnəmə məni taqətdən salmışdı. Bədənim başqa bir şəklə düşmüşdü. Bir yerdə otura bilmirdim. Heç olmazsa ayağa qalxıb dolanmaq, əl-üzümü yuyub, yuxumu qaçırmaq istəyəndə məmurlar qollarımdan yapışır, tərpəşməyə qoymurdular, sayıqlayırdım...

Polis qarşıma kağız-qələm qoyub deyirdi :«həqiqəti yaz, özünü xilas et. »Bunlar daşürəkli, qəddar və heç bir şeyi başa düşməyən adamlardan ibarət idi. Mənim ağır və dözülməz vəziyyətimdən ləzzət alırdılar. Mən isə ilan çalmış adamlar kimi çabalayırdım. Onlar yenə də öz sözlərini təkrar edib gülüşürdülər. Onlar gahdan mənə öcəşir, bəzən hədələyir və yeri gəldikdə məni döyürdülər.

Qapan adlı əl qandalı daha ağır idi. Bu işkəncənin təsiri daha tez zahirə çıxırdı. Bu dəhşətli alətdən Muxtari dövründə daha çox istifadə olunurdu. Azacıq adam tapılar ki, bu işkəncəyə dözə bilsin. 53 nəfərlərin bir neçəsinin həmin işkəncə nəticəsində qolu çıxmış və əli şikəst olmuşdu. Onlardan biri deyirdi ki, mənim qollarım kiçik və kök olduğuna görə üç-dörd nəfər əllərimi burub, kürəyimin arxasından bir-birinin üstünə qoyaraq qandal vurdular. Sinəm az qalırdı partlasın. İsfəndiyari sinəmi və qollarımı yumruqlayır və bununla istəyirdi ki, qandal öz yerini alsın.Dəhşətli ağrılar başlandı. gözlərimdən od çıxırdı. Sanki bütün sümüklərimi əzirdilər. Qollarım az qalırdı sınsın Polislər isə məni tək buraxaraq o biri otağa keçib biri-biri ilə mərc bağlayırdılar. Biri deyirdi: Gönü qalındır, bu tezliklə günahlarını boynuna almayacaq. Bəlkə də beş-altı saat tab gətirə biləcək.

Digəri deyirdi: Yox ağıllı və zəkalı gəncdir, zənnimcə özünə çox da zəhmət verməyəcək, bir az üzə düşüb.

Digəri sözə qarışaraq deyprdi: daha bəsdir. Gəlin qandalı açaq, ürəyi zəifdir, təhlükəli vəziyyət qarşıya çıxa bilər, qandalı açın həqiqəti deyər...

Şallaq vurmaq da geniş yayılmış idi. Müttəhimi taxtabənd üzərinə uzadıb üç tərəfdən onu xüsusi iplərlə möhkəm bağlayırdılar. Sonra üç nəfər zorba polis avtomobil təkərlərinin haşiyəsindən düzəldilən rezin şallaqları götürərək biri-birinin ardınca müttəhimin kürəyinə döşəməyə başlayırdılar. Ayrı bir polis karandaş ilə şallaqların zərbəsi nəticəsində göyərən yerlərin üzərinə xət çəkirdi.Bunun əzabı şallaqdan daha dəhşətli olur. İkinci koridorda olduğum vaxt bu qəbil bədbəxt adamların ahu-naləsindən gecələr yata bilmirdim. Xüsusilə bizi tək otaqlarda saxladıqları vaxtlarda gözümüzü qorxutmaq üçün tez-tez belə oyunlar düzəldirdilər. İşgəncənin başlanmasının ilk mərhələlərində qışqırıq və fəryad daha çox olurdu. Şallaq vurulduqca onların səsi get-gedə azalır, məhzun naləyə və sızıltıya çevrilirdi. Nəhayət, şallağın səsindən başqa ayrı bir səs eşidilmirdi.Sanki məhkumun həyatı sona çatırdı. Bəzi vaxtlarda müttəhim üç-dörd və ya neçə dəfə huşunu itirirdi. Lakin hər hansı yolla olursa-olsun onu huşa gətirir və cinayəti o qədər təkrar edirdilər ki, məhbus müstəntiqlərin könlü istədikləri sözləri təkrar etsin. Məhkum isə bu ağır və dözülməz vəziyyətdən xilas olmaq üçün onların dediyi ilə razılaşırdı. Əks təqdirdə şallaq altında ölüb aradan gedprdi. Qanuni həkim isə dərhal hazır olub «adi xəstəlik» nəticəsində məhbusun ölməsini təsdiq edərək onun basdırılmasına icazə verirdi.

Bir sözlə, iqrar almaq üçün yeganə vasitə əzab və işgəncədən ibarət idi. Bu isə, o qədər ağır idi ki, insan öz canını xilas etmək üçün ən böyük təqsirləri belə boynuna götürmək məcburiyyətində qalırdı. Ədliyyə isə polis idarəsi tərəfindən hazırlanan işi sənəd kimi qəbul edib, günahsız adamları çox ağır həbs və ya edam cəzalarına məhkum edirdi.

İşgəncə cürbəcür yollarla verilirdi. Hər bir müstəntiq öz meyli ilə müəyyən işgəncə və əzab yolunu tətbiq edirdi. Hacı Məhəmməd Bağır Gülpayəganiyə dağ basmaq və biz batırmaq yolları ilə onu, heyrətləndirici iqrarlar verməyə məcbur etmişdilər. Bir müttəhim deyirdi ki, arvad-uşağımı həbs etdilər. Öz abır və namusumu xilas etmək üçün yalan sözlər düzəltmək məcburiyyətində qaldım.

Həsən Haşim deyirdi: «Polis haradansa mənim rəfiqəmi tanımış və ona həddindən ziyadə məhəbbət bəslədiyimi bilmişdi. Bir gecə şöbə rəisi məni zindandan çıxarıb özü ilə birlikdə Dərvazeyi-Qəzvin-də

rəfiqəmin yanına apardı. O, yaxşı süfrə döşənilməsi haqqında qabaqcadan göstəriş almışdı. Məni incitdilər. Sonra şöbə rəisinin göstərişi əsasında rəfiqəm mənə yalvarmağa başladı. O, xahiş etdi ki, rəis ağanın təklif etdiyi bütün sözləri boynuma götürüm. Mənim isə vəziyyətim aydın idi. Dedim: Əhəmiyyəti yoxdur hər nə istəyirsiniz yazın altına gözyumulu qol çəkərəm. Sabahı günü on dəfə oğurluq etmək ittihamını boynuma qoydular. Bir halda ki, onların bir çoxundan heç ruhumun da xəbəri yox idi.»

# KÜRDLƏR VƏ LORLAR

Ümumiyyətlə, Lorlar, Kürdlərdən daha mülayim adamlardırlar. Zindan idarəsi kürdlərlə lorlar arasındakı ixtilafdan istifadə edərək, onları biri-birinin canına salırdı. Lorlar islam dininin şiə təriqətinə mənsub olduqları halda, kürdlər həmin dinin sünni təriqətinə mənsub idilər. Polkovnik Rasix isə bu vəziyyətdən çox yaxşı istifadə edirdi. O, daha çox lorların tərəfini saxlayırdı. Niyruménd isə kürd olduğunu bildirmişdi. Belə bir şayiə yayılmışdı ki, Muxtari də kürddür. Niyrumənd kürdləri irəli çəkir, lorlara işkəncə verirdi. Həm kürdlər və həm də lorlar avam, lakin pak qəlbli adamlar idilər. Onların şəhərlilərə nisbət taqət və dözümləri az idi. Onlardan bir çoxları zindanda yoluxucu xəstəliklər nəticəsində ölüb aradan getdilər. Kürdlər və lorların dörddə bir hissəsi müqavimət göstərib sağ qala bildi. Lorlar kişmiş, kürdlər isə xurmanı çox xoşlayırdılar...

Lor Əbdüləli çox huşlu gənc idi. O, zindanda olduğu vaxt gizli surətdə oxuyub yazmağı öyrəndi. Lorların haqqında şirin hekayələr danışardı. Deyərdi: «Biz çayın nə olduğunu bilməzdik. Bir gün bir neçə sandıq çay ələ keçirdik. Biz əvvəlcə elə xəyal etdik, bu yarmadır. Onu qazana töküb bişirmək istədik. Bişirəndə acı və bir təhər oldu. Bildik ki, bu yarma deyil » O, deyirdi: «Mən özüm min ədəddən artıq gümüş çəngəlin nə olduğunu başa düşmədiyim üçün tollamışam». Sonra o, əlavə etdi :« Biz o qədər də ləyaqətsiz deyildik, bizi aldatdılar. Quran gətirib and içdilər. Ayda neçə batman kişmiş verəcəklərini bildirdilər. Buna görə biz təslim olduq. Allah kəndxuda Çuğundurun evini yıxsın. Bütün bu bəlaları o bizim başımıza gətirdi.»

Lor Kərim də qəribə bir tip idi. O həddindən ziyadə qadın düşkünü idi. Məqsədinə çatmaq üçün hətta, edam olunmağa belə razı olduğunu bildirərdi. Gördüyü ilk qadının macərası haqqında danışardı...

# DİGƏR MƏHBUSLARLA ƏLAQƏ

Qəsrdə yaşayanlar ilə çox tez tanış olduq. İlk növbədə qeyd etməliyik ki, tək saxlanılan məhbusların koridoru zindanın eyni halda səyasət mərkəzi hesab edilirdi. Qayda-qanundan kənar iş görənlər məhz həmin koridordakı tək otaqlarda saxlanılırdılar. Zindanın lotuları, qəsdən savaşaraq bizim görüşümüzə gəlirdilər. O vaxt bizim sayımız az idi və hamı bizi görmək istəyirdi. Əkbər Vəli, Həsənqulu, Əkbər Lətif, Əkbərov, Əli Bürucerdi və onların sonralar dəli olmuş bədbəxt yoldaşı Firuz, qəsdən qayda-qanundan kənar hərəkət edərək özlərini ikinci koridora çatdırdılar. Bu bir qədər çətin vasitə idi. Ona görə ki, savaşmağı və ya polisi döyməyi hamı bacara bilmirdi.

İkinci koridora gəlmək üçün başqa bir asan bəhanə də var idi. O da həkim yanına gəlmək idi. Hamı xəstə-xanaya gedib həkim ilə görüşə bilərdi. Beləliklə, doktorun qəbul otağı ən yaxşı görüş otağı idi. Ayrı-ayrı koridorlardan məhbuslar gəlir və doktordan dərman alırdılar. Növbə gözləmə vaxtında hamı maneəsiz surətdə biri-birinin vəziyyətindən xəbər tuturdu.

Kafeyə getmək, şey almaq da ayrı bir bəhanə yolu idi. Hamam isə hər yerdən daha münasib və daha dərdisərsiz idi. Bunlardan əlavə, məhərrəm və rəməzan aylarında zindan daxilində təşkil olunan rozəxanlıq və moizə məclisləri də çox yaxşı imkan idi. Tək otaqlarda saxlanılıb heç kəs ilə görüşməyə imkanımız olmadığı, hətta adi vaxtlarda koridora çıxmağımıza belə icazə verilmədiyi üçün, rozəxanlıq və moizə məclislərinə getməyi bəhanə edərək, axşamlar orada biri-birimizlə söhbət edirdik.

Zindanın və hətta siyasi idarənin işlərindən baş çıxarmaq olmurdu. Burada bəzi adamları illər boyu tək otaqlarda saxlanılan məhbus hesab olunduqlarına baxmayaraq, zindan daxilində azad buraxılır, istədikləri yerlərə gedir, hətta, zindandan xaricə də çıxırdılar. Məsələn, Lapidus işlərini elə sahmana salmışdı ki, hər gün zindandan çıxıb, hətta şəhərin ən yaxşı restoranlarında nahar da yeyə bilirdi. Məhkəmə rəisi bir gün ona demişdi ki, Müsyo Lapidus! Axı siz fars dilini bilmədiyinizi söyləyirdiniz? Bəs necə oldu ki, indi farsca belə rəvan danışırsınız. Lapidus cavabında belə demişdi :dörd il bundan əvvəl məni göndərdiyiniz tək otaqda, yəni heç bir adamla əlaqə saxlamağa və görüşməyə icazə vermədiyiniz bir otaqda öyrənmişəm.

Qəsrin on bir il bundan əvvəlki vəziyyəti belə idi. Biz isə təklifi müəyyən olunmamış məhbus sayılırdıq. İstər zindan məmurları və istərsə də məhbuslar bizə hörmət edirdilər.Bir halda ki, Muxtari dövründə təhqir məhbuslar üçün adi bir hala çevrilmişdi.

## ACLIQ ELANI

Belə bir rəvayət var, deyirlər ki, qədim Çində adamlar zülm və təcavüz qarşısında aciz qaldıqda hörmətli adamlardan biri daha çox zülm olunmuş şəxslərdən biri ilə gecə şəhər dərvazasına gedərək özünü dərvazadan asırdı. Şəhərin hakimi bu xəbəri eşitdikdə öz təklifini başa düşüb təxirə yol vermədən, yuxarı orqanın hökmünü gözləmədən çul-palazını yığışdıraraq şəhərdən çıxıb gedirdi. Keçmiş İranda da əlacsız qalan və çarə yolu tapa bilməyən məzlumlar özlərini şahın və ya hakimin karetasının qarşısına toplayır və başlarına neft töküb, şah küçədən geçən zaman, özlərinə od vurub yandırırdılar. Beləliklə, şah və ya hakim, xalqın cana gəldiyini, biçağın sümüyə dayandığını başa düşürdü. Məhbusların isə bu kimi tədbirləri həyata keçirməyə imkanları yox idi. Onların özlərini yandırmaları və ya ayrı vasitələrlə intihar etmələrinin də heç kəsə təsiri yox idi. Zindan məmurları adi bir raport yazmaqla bu cür məsuliyyətləri öz boyunlarından atırdılar. Belə hadisələr tez-tez baş verir, lakin heç bir məmur təqibə məruz qalmırdı. Hətta, intihar etmiş adamların ailələrinə belə məlumat verilmirdi.

Zindanda cürbəcür bəhanələrdən biri də dəlilik, xəyalat xəstəliyinə tutulmaq və sairədən başqa, özünü öldürmək idi. Adamların tiryək yemələrinə, öz damarlarını kəsmələrinə, özlərini zindanın pəncərələrindən asmalarına çox təsadüf olunurdu. Lakin bu tədbirlərin heç biri zindan işçilərinə təsir göstərə bilmirdi. Hətta, məhbuslardan biri özünü öldürmək məqsədilə bir dəfə mıx, sonra isə iynə udmuşdu. O, zindandan buraxılandan bir neçə gün sonra ölmüşdü. Lakin qeyd olunduğu kimi, bu təkbaşına etirazlara heç kəs etina etmirdi. Bu hadisələr zindanın divarlarından kənara çıxmırdı. Yalnız intihar etmiş adam özünü əziyyətdən xilas edir və bununla da iş qurtarırdı.

Bütün dünya zindanlarında çox qədim zamanlardan ümumi etiraz vasitəsindən istifadə edilmişdi. Hələ bu gün də məhbuslar qanunsuz təzyiqlər həddindən aşdığı vaxtlarda həmin etiraz vasitəsindən istifadə edirlər. Bu etiraz məhbusların ümumi şəkildə yeməkdən imtina etmələrindən ibarətdir. Eşitdiyimə görə, bu tədbir heç də bütün yerlərdə eyni şəkildə həyata keçirilmirdi. Bəzi Avropa ölkələrində məhbuslar yalnız yeməkdən imtina edərək papiros çəkir, çay və su içirlər. Lakin bir çox zindanlarda papiros çəkmək və su içməkdən də

imtina olunur. Hətta, bəzi hallarda yorğan-döşək və çarpayıdan da istifadə etməyərək quru yerdə uzanıb yatırlar. Qanun hökm sürən ölkələrdə məhbuslar aclıq elan etməzdən əvvəl, öz qərarlarını, habelə təkliflərini zindan idarəsinin rəhbərlərinə çatdırırlar. Belə bir vəziyyətdə prokuror və qanuni həkim dərhal zindana gəlirlər. Məhbuslar tibbi müayinədən keçirilirlər. Aclığa davamı olmayan xəstə və zəif məhbusların tələblərinə dərhal yetişir, onlara qənaətləndirici cavablar verilir. Beləliklə də aclıq elan olunmasının qarşısı alınır. Digər məhbuslar isə aclıq sona çatan müddətədək ciddi surətdə həkimin nəzarəti altında saxlanılırlar. Bir qayda olaraq xörək yeməkdən imtina olunması müddəti bir neçə gündən artıq çəkmir. Mətbuat və əfkariümumi həmin hadisəni böyük nigarançılıqla izləyir. Bəzi hallarda zindandan xaric təşkilatlar da işə qarışırlar. Ölkənin parlemanı və digər yığıncaqları bu qəbil hadisələrə bitərəf və laqeyd yanaşa bilmirlər. Beləliklə, hökumət məcbur olaraq məhbusların işinə yetişir. Hər hansı qiymətə olursa-olsun xörəkdən imtina etmiş adamlara qənaətləndirici cavablar verir. Zindan və ya polis idarəsi məmurlarının qaydadan kənar hərəkətlərinin qarşısı alınır.

Biz zindanda saxlanılan vaxt İranda hətta məhbus olmayan adamlara da etiraz etmək icazəsi verilmirdi. Heç kimin öz hüququndan müdafiə etməyə cəsarəti yox idi. Biz yaxşı bilirdik ki, haqqımızı əldə etmək yolunda hər hansı addım götürsək, yalnız özümüzə arxalanmalıyıq. Yaxşı bilirdik ki, nə parleman, nə mətbuat, nə prokuror, nə qanuni həkim, nə şah, bir sözlə, heç kəs bizim dadımıza çatmayacaq. Bizim səsimiz siyasi məhbuslara xas olan koridorlardan kənara çıxmayacaqdır. Digər tərəfdən rəyləri birləşdirmək də çox çətin bir iş idi. Polis idarəsi bizim nə məqsəd daşıdığımızı, ümumi aclığın nə olduğunu o vaxt başa düşməsə də, müxtəlif boş vədlər ilə məhbusların başını qatırdı. Hətta, sadə məhbusların bir çoxu məmurların sözünə inanaraq hər gün yuxudan duran kimi zindandan getmək üçün hazırlaşırdılar. Zindanda kiçik məqsədlərə çatmaq üstündə, məsələn, otağın qapısını açıq qoymaq, tək otaqda saxlanılmamaq, bir nömrəli koridora köçmək üstündə tək-tək və ya bir neçə nəfərdən ibarət adamlar tərəfindən aclıq elan edilmişdi. Bəziləri bu işdən müəyyən nəticələr də əldə etmişdilər. Lakin bütün bunlara baxmayaraq, məhbusların hamısını bu işə cəlb etmək heç də asan deyildi. Buna görə də heç kəs bu sahədə ilk addım atmağa cəsarət etmirdi...

## İLK QURBANLAR

Bizim ilk qurbanımız Məhəmməd Bağır Sadıqpur olmuşdu. Bu təmkinli məhbusu, digər on səkkiz siyasi müttəhimlə birlikdə Astara və Ərdəbildən gətirmişdilər. Digər məhbuslar kimi onun arvad-uşağı başsız qalmışdı. Deyildiyinə görə iki qızı və iki oğlu var idi. Böyük oğlunu daha çox sevərdi. həmin oğlanın öz xətti ilə məktub yazmasına çox sevinirdi. Məhəmməd Bağır bizdən bir il sonra, yəni 1931-ci ildə həbs edilmişdi. O, bir nömrəli müvəqqəti həbsxanada vərəm xəstəliyinə tutuldu. Məhəmməd Bağır Qəsrin xəstəxanasına Göndərildikdən sonra aclıq, qaranlıq və otağın natəmiz havası onun xəstəliyini daha da ağırlaşdırdı. Nəhayət, ağzından qan gəldi. Çox arıqlamış və candan düşmüşdü. Bizim ciddi təşəbbüsümüz nəticəsində zindanın həkimi siyasi idarəyə müraciət edib nə kimi tədbir görəcəyini soruşdu. Bu hadisədən sonra dərman göndərmək, xəstəyə əlac etmək və ya onu buraxmaq əvəzinə, siyasi idarənin nümayəndəsi zindana gəldi. Həmin nümayəndə indiki kimi yüksəlməmişdi. Heç də bir neçə avtomaşın sahibi və bu günkü kimi kök və qarnıyoğun deyildi.

## XƏSTƏNİN DANIŞMAĞA QÜDRƏTİ YOX İDİ

- Ağa özünüz də mənim təqsirsiz və günahsız olduğumu bilirsiniz. Mən heç kəsin divarından düşməmişəm. Heç kəsin namusuna pis gözlə baxmamışam. Əgər öz əlinizdədirsə özünüz, yaxud tezliklə əlahəzrətə raport verərək, məni zindandan azad edin, arvad-uşağım ac-yalavacdır, başsızdır. Heç olmazsa imkan verin öz

arvad-uşağımın yanında can verim.

Polis etinasız, quru, şiddətli və dəhşətli səslə belə cavab verdi: Öl, cəhənnəməki! Hamınız gərək öləsiniz! Nə də başından yekə danışır. Əlahəzrətin işi qurtarıb ki, sizin kimi adamların haqqında raport oxusun!

Bu hadisədən iki saat sonra Məhəmməd Bağır öldü. Bu xəbər siyasi məhbuslar arasında bomba kimi səsləndi. hər kəs öz gələcəyini düşünür, hissləri cuşa gəlir və qanı qaynayırdı. Hamının səbri tükənmişdi.

Tədrici ölüm bizim üçün yaramaz. Bizi də Məhəmməd Bağır kimi tədriclə, əzab-əziyyətlə öldürmək istəyirlər. Buna dözmək olmaz. Biz ya hamılıqla bir yerdə ölməli, ya da işlərimizə mümkün qədər tez yetişilməsinə nail olmalıyıq.

Bu səslər bütün koridorları bürümüşdü. Daha heç kəsi təbliğ etmək lazım deyildi. Etiraz başlandı. Yarma doldurulmuş bütün kasalara heç kəs əlini vurmadı. Dolu kasaları qaytarıb apardılar. Otuz altı nəfər siyasi müttəhim, vahid bir adam kimi xörək yeməkdən imtina etdi. Siyasi idarənin və zindanın qulluqçuları əl-ayaqlarını itirdilər. Nə edəcəklərini bilmirdilər. Cürbəcür hədə-qorxular, müxtəlif vədlər də təsir etmədi. Qərar qəti idi. Səkkiz gün ərzində heç kəs bir qurtum su içməyib, papiros belə çəkmədi. Bu ilk siyasi aclıq elanı idi. Zorakılıq və özbaşınalığın hökm sürdüyü zindanda bu qəbil hadisələr gözlənilməz idi. Bütün «Qəsr» hərəkətə gəlmişdi. Kürdlər, Lorlar və hətta adi müttəhimlər belə həyəcanlanaraq bizə qoşulmaq istəyirdilər. Zindanda polisin sayı hər saat artırılırdı. Əlimüddövlənin özü də gecə-gündüz xəstəxanada qalmağa məcbur olmuşdu. Polkovnik Rasix qorxusundan telefonun dəstəyini yerə qoya bilmirdi. Zindanın müdiri Sərtipzadə hey o yan bu yana gedir, bəzən məhbuslara yalvarır, bəzən isə təhdid edirdi. O, məsuliyyətdən qorxduğu halda, bizim tələblərimizin düzgün olduğunu da boynuna alır, tanışlıq və xüsusiyyətdən dəm vururdu. Cavanşiri, Füruzeşi və siyasi idarənin digər məmurlarını çəkib bizim yanımıza gətirirdi. Elan etdiyimiz aclıq zamanı hamımız çox ciddi və mətin, nizam-intizamımız isə çox möhkəm idi. Hamı polisin fırıldaq düzəldəcəyini gözləyirdi. hamı bilirdi ki, polis hay-küy və şuluqluq törətmək yolu ilə çalışaçaq ki, sözlərimiz yuxarılara çatmasın. hər koridorda məhbuslardan yalnız bir nəfər məmur edilmişdi ki, polis idarəsi işçilərinin cürbəcür suallarına qısa cavab verib sonra öz otağına qayıtsın. Onlardan başqa heç kəs işə qarışmırdı. Zindanın hər yerində məhbuslarda böyük təmkinlik və mərdlik ruhiyyəsi hiss olunurdu. Hətta, cinayətkar məhbusların saxlandıqları koridorlarda belə, xüsusi mətanət gözə çarpır, sakitlik hökm sürürdü. Birlik, vəhdət, nizam- intizam tam mənası ilə özünü göstərirdi. Xüsusilə yeddinci və səkkizinci GÜNLƏRdə üç, dörd və yeddi nömrəli koridorlarda daha şiddətli mənzərə törənmiş idi. Dalanlarda və qapılarda polislərdən başqa heç kəs yox idi. Hamı öz otağına uzanaraq ölümün getdikcə yaxınlaşan dəhşətli kabusunu gözləyirdi. Biri-birinə kömək hissi olduqca qüvvətli idi. Hətta, bəziləri özlərini yaddan çıxararaq səssiz-səmirsiz, acından huşunu itirmiş dostlarına xidmət göstərirdilər. Heç kəs şikayətlənmir və heç kəs peşiman deyildi. Heç kəs, hətta, ən şiddətli qüvvətsizlik üz verdikdə belə, özünə qüvvə iynəsi vurulmasına icazə vermirdi. Hamı ağlamağı, sızlamağı, ümidsizlik hallarını eyib sayırdı. Ya iftixarla azad olmaq, ya ölmək!!! Mərkəzi zindanda ilk aclıq elan edənlərə qoşulanların hamısının şüarı belə idi.

# SİYASİ İDARƏNİN MƏMURLARI

...Nəhayət, səkkizinci gün bizlərdən bir neçəsini şəhərə, siyasi idarəyə çağırdılar. Ehtişam, Füruzeş, Cavanşir və sairələri ilə çox ciddi müzakirələrdən sonra aşağıda qeyd edilən şərtlər əsasında aclığa son qoymağa hazır olduğumuzu bildirdik.

1-Bir ayadək bütün təklifsiz məhbusların təklifi müəyyən edilməlidir.

2-İstintaq cərəyanı qurtarmış bütün məhbuslar daha tək otaqlarda saxlanılmamalıdırlar. Otaqların qapısı gecə-gündüz açıq qoyulmalı, məhbuslar zindanın daxilində azad olmalıdırlar.

3-Digər koridorlar kimi kiçik koridorların da həyət qapıları açıq olmalıdır. İstisna olunmadan bütün siyasi məhbuslar havaya çıxıb həyətdə gəzişmək imkanına malik olmalıdırlar.

4-Siyasi məhbuslar üçün kifayət qədər xüsusi yemək verilməlidir. Bu yemək, heç olmasa gündüz beş sir* süddən, iki ədəd yumurtadan və adi çörəyin dörddə bir hissəsindən ibarət olmalıdır.

5-Müntəzəm surətdə məhbuslara sabın verilməli və onlar hamama aparılmalıdırlar.

Aclıq elanı nəticəsində verilmiş həmin tələblərin bəziləri həyata keçirildi, bəziləri isə mürur-zamanla aradan aparılıb vəziyyətimiz yenə də ilbəil pisləşdi. Daha bir aclıq elan olunması lazım gəldi. Məsələn, yuxarıda qeyd edilən xörəyi cəmi üç ay verdilər. Məhbusların az bir hissəsini buraxıb bir çoxunu isə sürgün etdilər. Lakin daha əhəmiyyətli hesab etdikləri adamları yenə də saxladılar. Həyətə çıxıb havadan istifadə etmək məsələsi davam etdirilirdi. Tək otaqda saxlanılmaq və məhdudluq tədbirləri sonradan yenə də bərpa olmuşdu. Buna görə də ikinci aclıq elanı üç il sonra baş verdi. Primus saxlamaq məsələsi buna bəhanə oldu. Xörəkdən imtina etmək cəmi üç-dörd gün çəkdi və ümumi şəkildə yayılmadı. Bu məsələ ilk baxışda sadə görünsə də, bizlər üçün həyati əhəmiyyətə malik idi. Zindanın xörəkləri soyuq olurdu. İstifadə olan kəsif və iylənmiş suyu qaynatmaq lazım gəlirdi. Xəstələr üçün isti su düzəltmək lazım idi. Bir sözlə, yanacaqsız yaşamaq çətin idi. Bunu da nəzərə almaq lazımdır ki, biz məhbuslar məhdud, kiçik şəhərdən uzaq bir yerdə yaşayırdıq. Hər hansı yaşayış vasitələrindən məhrum idik. Bu dözülməz hal idi. Lakin hər hansı zindan məmuru yeni qaydalar qoyur, təzə göstərişlər verirdi. Biz isə yenə də canımızdan doymuşduq. Günü-gündən artan yeni qaydalara daha dözə bilmirdik. Bunların qarşısında müxalifət göstərirdik. Həmin müxalifət göstərmək üçün əlimizdə olan yeganə vasitə öz varlığımız və canımızdan ibarət idi. Biz həyatımızla polisə qarşı mübarizə edir və bununla onun könlü istədiyi kimi bizi tapdalamasına yol vermirdik. Bu yol ilə biz öz həyatımızı qoruyub, ölüm vaxtını mümkün qədər geriyə atmaq istəyirdik.

Zindan bizə getdikcə daha pis təsir edirdi. Axı, yeddi il zarafat deyil. Yeddi il zindan Guşəsində, kecə-gündüzlərin həmahəng olduğu bir vəziyyətdə, insan üçün heç bir mənəvi və cismani bir məşğuliyyət olmadığı şəraitdə həyat nə qədər qüdrətli olsa belə yenə də çətindir. Bu vəziyyət necə möhkəm adam olsa belə, onu nəhayət yıxar. Həqiqətdə biz hamımız mürur zamanla belə bir vəziyyətə düşmüşdük. Sadə bir sözdən əsəbiləşir, başqalarının əhəmiyyətsiz bir hərəkəti ilə özümüzdən çıxırdıq. Hətta, sadə və kiçik bir zarafata belə dözmürdük, cürbəcür əsassız eyib və nöqsanlar quraşdırmaqla getdikcə biri-birimizdən uzaqlaşırdıq. Zindan məmurları isə bu vəziyyətdən istnfadə edərək aramızdakı təfriqəni mümkün qədər dərinləşdirdilər. Onlar bu yol ilə özləri üçün həmişə zərər törətmiş olan vəhdət və birliyimizin qarşısını alırdılar.

Təklifsiz qalmaq çox ağır idi. Biz yeddi il zindanda təklifsiz qalaraq azadlıqdan bütünlüklə məyus olmuşduq. Siyasi idarənin məmurları ilə təsadüfən rastlaşdıqda onlar bizi daha da ümidsiz edib, deyirdilər ki, işiniz allaha qalıb. Biz bəhanə axtarır və istəyirdik ki, cəsarətli bir təşəbbüs ilə bəlkə də öz həyatımıza son qoya bilək.

Koridorlardakı məhbuslar bir neçə dəstəyə bölünmüş idi. Onlar biri-birilərini təqsirləndirirdilər. Bu vəziyyət daha pis və daha kəsif idi. Bir gün adi bir bəhanə məni çox əsəbiləşdirdi. Zindan rəisi mənim bir Guşədə oturub tək qalmağa çox meyl göstərdiyimi bilirdi. O, məni incitmək məqsədilə mənimlə həmfikir olmayan

iki məhbusun otağıma gətirilməsi haqqında göstəriş verdi. O, bu yol ilə mənim istirahətimi tamamilə pozdu. Otaq kiçik və xəfə idi. Mən isə ürək xəstəliyinə tutulmuşdum. Buna görə qış gecələri belə, nəfəs almaq xatirinə pəncərəni açıq qoyurdum. Otaqda üç adama yer verilməsi mənim haqqımda ölüm hökmü çıxarmaq demək idi. Əlacsız qalıb etiraz etdim. Yorğan-döşəyimi götürüb koridora tolladılar. Rəisin yanına gedərək vəziyyəti ona izah etdim. Məlum oldu ki, müxalif adamların verdikləri raportlarla əlaqədar, məndən çox acıqlıdır. O dedi: «mütləq üçünüz bir yerdə yaşamalısınız». Qayıdıb koridorda oturdum. Bütün təklifləri rədd etdim. Bir tərəfdən hava soyuq idi. Digər tərəfdən isə qrip xəstəliyinə tutulmuşdum. Bütün bunlara baxmayaraq aclıq elan edərək bildirdim ki, təklifim məlum olmayanadək xörək yeməyəcəyəm. Mən heç də məhbus deyiləm, mənimlə məhbuslar kimi rəftar olunmamalıdır. Siz məhbuslara itdən də pis yanaşırsınız. Buna dözmək olmaz.

Belə bir gərgin vəziyyətdə düz səkkiz gün yeməkdən imtina etdim. Rəis, onun müavini, həkim və sair adamlar gəlib cürbəcür vədlər versələr də onların hamısını rədd etdim.

* Sir çəki ölçüsüdür.

# ACLARLA NECƏ RƏFTAR EDİRDİLƏR

Doqquzuncu gün çox zəif və taqətsiz olmuşdum. Bir qayda olaraq ac qalmaq üçüncü günədək çətin olur. Adam sonralar adət edir. Üç gündən sonra daha adamın qarnı ağrımayır. Əzab hiss olunmur. Sanki bütün mədə-bağırsaq hissiz olur. Mən yalnız su içirdim. Sanki suyun özündə də müəyyən qida maddələri vardır. Bu adama bir qədər qüvvət verir. Doqquzuncu gün çox ağır vəziyyətdə idim. Boğazım qurumuşdu. Tərpənməyə, danışmağa qüdrətim çatmırdı. Başıma dəhşətli fikirlər və düşüncələr hücum edir, ruhiyyəmi əzirdi. Əsəbiləşirdim, o yan bu yana çönurdüm. Sonra isə zəiflik qalib gəlir, huşumu itirirdim. Xörəkdən imtina etmək, ölüm qərarına gəlmək olsa da, insan bu yol ilə yaşamaq üçün mübarizə edir və ölümdən qorxmur. Bədəndə hər bir əzələ qeyri-iradi olaraq özü müəyyən fəaliyyət göstərir. Mən iki qüvvə qarşısında qalmışdım. İradə ilə təbii olaraq yaşamaq meyli arasında ciddi mübarizə gedirdi. Bilə-bilə tədrici ölüm yoluna düşmək çox çətindir. Lakin şərəfi qorumaq, haqlı olduğunu sübut etmək, nəhayət, hər bir insanın təbii haqqı olan azadlığa çatmaq üçün ölümdən başqa ayrı bir çarə yox idi. Muxtarinin göstərişinə görə zindan məmurları altıncı günədək mənim yanıma gəlmədilər. Rasix inad üzündən bir yaxşı xörək hazırlayıb otaqda mənim gözümün qarşısına qoyulması haqqında göstəriş vermişdi. Dostluq və mənə yardım xatirinə aclıq elan etmiş bir dostumun vəziyyəti məndən daha ağır idi. O, yatdığı çarpayıdan tərpənə bilmirdi. Mən isə tam zəif və qüvvətsiz olduğuma baxmayaraq çox vaxt huşunu itirmiş dostuma yardım göstərmək məcburiyyətində qalmışdım. Zindanın rəisi bizdən intiqam çəkmək, bizi əzmək, məğlub etmək və bununla öz qoluzorbalığını başqalarına göstərmək istəyirdi. Zindan rəisinin nisbətən yumşaq əxlaqa malik olan müavini, özünün uzun-uzadı nəsihətləri ilə ruhumuza qovra çəkirdi. Biz huşdan gedib yoldaşlarımız isə ağzımıza su tökərək bizi hala gətirməyə səy etdikləri bir halda, o, hələ də öz İsfahan zərbül məsəllərini və nəsihətlərini qurtarmırdı. Bu adam şəxsən mənə hörmət etmiş və birinci aclıq elanı zamanı mənim ürək xəstəliyimi siyasi idarəyə yazıb bildirmişdi. Bu dəfə də boğazıma zorla xörək tökülmədiyi təqdirdə həyatım üçün təhlükə törənəcəyini bildirmiş idi. Zindan həkimi nədənsə bu dəfə siyasətini dəyişmişdi. O, ağız açmaq üçün istifadə olunan xüsusi aparatını və sairəni götürərək ən rəhmsiz məmurlarla birlikdə koridora gəldi. O, tibb köməkçisinə yazılı surətdə göstəriş vermişdi ki, zorla ağzımı açsın və mənə xörək yedirtsin. Bu vəziyyəti gördükdə mən bərk əsəbi oldum. Zəiflik və qüvvətsizlik bütünlüklə yadımdan çıxdı. Özümdə güclü intiqam hissi, mübarizə hissi, cavanmərdlik və şərəfimi qorumaq hissi duydum. Çarpayıdan qalxaraq belə qərara gəldim ki, nə qədər canımda can var, cəllad həkimin istəklərinin həyata keçirilməsinə mane

olum. Çox sərt və kobud sözlər deməyə başladım:

- Gedin zindan rəisinə deyin ki, əgər kişiliyi çatırsa özü gəlsin. Əgər vicdan və namusu varsa bu cinayətkar işi özü görsün. Bizi nə vaxtadək təklifsiz olaraq burada saxlayacaqlar... Sizin ki, vicdansız qaziləriniz, alçaq və ləyaqətsiz prokurorlarız çoxdur. Onlara göstəriş verin mənim üçün edam hökmü çıxarsınlar.

Həmişə riyakarlıqla özünü hökumətin müxalifi kimi qələmə verən həkim, bu dəfə öz çirkin niyyətini zahirə çıxararaq, tam mənasında quru və kobud bir polisə çevrilmişdi. Sözlərimi kinayəli gülüşlərlə qarşılayaraq, tibb köməkçisinə müəyyən işarələr verib çıxıb getdi. Mən özümdə qəribə bir zor və qüdrət hiss edirdim. Xəyalıma belə gəlirdi ki, bütün dünya ilə döyüşüb hamını məğlub edə bilərəm. Üzümü tibb köməkçisinə tutaraq dedim: Ağalar məndən əl çəkib öz işinizin dalınca gedin. Siz yazıq və iradəsiz məmurlar olduğunuz üçün mənim sizə qarşı heç bir düşmənçiliyim yoxdur. Lakin mənə əziyyət etdikdə labüd surətdə öz tutduğum qərarı müdafiə etmək xatirinə sizinlə mübarizəyə girişməli olacağam. Məndən inciməyin. Gedin özünüzdən böyüklərinizə çatdırın ki, Mir Cəfər deyir: «Nə qədər diriyəm, nə qədər ki, zor və qüdrətim vardır, özümdən müdafiə edəcəyəm. Təhqir və ya ədəbsiz hərəkətlərə əl atsanız, onda mən başqa bir tədbirlərə əl atacağam.

Mənim qiyafəm və danışıq tərzim Muxtarinin məmurlarını qorxutdu. Onların heç biri irəliyə gəlməyə cəsarət etmədi. Həkim qapının dalında mənim sözlərimi eşitmişdi. O, dərhal polis çağırmaq haqqında göstəriş verdi. Qapı açıldı, səkkiz nəfər heyvərə polis biri-birinin ardınca gəlib çarpayımın qabağında durdular. Bütün bədənim titrəyirdi. Get-gedə özümü daha güclü hiss edirdim. Həkimin göstərişi həyata keçirildi. Polislər əl-ayağımı möhkəm tutub qurbanlıq qoyun kimi uzatdılar. Çapalamaq və hər cür çalışmaq heç bir nəticə vermədi. (Cək) adlanan xüsusi maşını dişlərimin üstünə qoyub işə saldılar. Naşılıq üzündən və yaxud qəsdən, maşını elə işlətdilər ki, dişlərimin biri sındı, ağzımın içi bir neçə yerdən yaralandı. Quru rezin zontu boğazıma soxanda az qala nəfəsim kəsilirdi. Ağzımdan qan axmağa başladı. Huşumu itirdim. Lakin xörək yeməmək haqqındakı qərarım yenə də qəti idi.

Bir qayda olaraq zorakı xörək verilən məhbuslar işgəncəyə dözə bilməyib aclığı sındırdılar. Lakin mən belə bir adəti pozmaq istəyirdim. Ona görə də zindan rəisinə sifariş göndərərək bildirdim ki, siyasi idarənin rəisi məni çağırıb vəziyyətimə yetişməsə ac qalmağı davam etdirəcəyəm. Siz yenə də öz cəlladlığınızı davam etdirmək məcburiyyətində qalacaqsınız. Belə bir vəziyyət uç gün də davam etdi. Siyasi idarənin rəisi bildirmişdi ki, belə bir vəziyyətdə məni əsla qəbul etməyəcəkdir. Mən də öz qəti qərarımı bildirmişdim. Nəhayət, çərşənbə günü məni şəhərə istədilər. Maşında dayana bilmək, yolda huşumu itirməmək xatirinə yoldaşların məsləhəti əsasında, polis işə qarışmadan, aclığı pozub bir az süd içdim... Bu aclıq elanı şübhəsiz ki, mənim sağlamlığım üçün çox ağır başa gəldi. Bir neçə ay yataqda qaldım. Qüvvəmi bütünlüklə itirmişdim. Lakin bu aclıq elanını sındırmaq fikrini boşa çıxarmaq nöqteyi-nəzərindən olduqca əhəmiyyətli idi. Sair məhbuslar nəhayət, başa düşdülər ki, həmin yol ilə zindan məmurlarının son tədbirini də puça çıxarmaq olar.

## DAHA BİR MÜVƏFFƏQİYYƏTLİ KÜTLƏVİ ACLIQ ELANI

Həbsxanada saxlanıldığımız müddətin doqquzuncu ilinədək əhəmiyyətli aclıq elanı olunmadı. Siyasi idarənin məmurları deyirdilər ki, İranda bu məsələ aradan qaldırılmalıdır. Aclıq elan etməyə əhəmiyyət versək, başımıza hər gün müxtəlif oyunlar açılacaq, məhz həmin nöqteyi-nəzərdən aclıq elanı yolu ilə çox əhəmiyyətsiz tələbləri belə qəbul etmirdilər. Buna baxmayaraq biz düz iki il müddətində daha geniş bir aclıq

elanı üçün zəminə hazırlayırdıq. Məhbuslar daxili ixtilaflar və kiçik çəkişmələr üzərindən birgə aclıq elan olunmasına hazır olmurdular. Hər adam bir bəhanə gətirirdi. Zindan rəisi isə öz təzyiqini günü-gündən artırmaqda idi. Koridorları çox məhdud etmişdilər. Xəstəxanaya getməyə icazə verilmirdi. Xörəklər gündən-günə azalır və pisləşirdi. Qablar getdikcə daha kəsif saxlanılırdı. Vəziyyət o qədər gərgin idi ki, hamama gedən vaxtda ayrı koridorlardakı vəziyyəti öyrənə bilmirdik. Polis başçıları öz həddlərini aşmışdılar. Hər hansı adi polisin bir kəlmə sözü ilə bizi aylarla qaranlıq otaqlarda saxlayırdılar. Kiçik bir bəhanə üstündə məni otuz dörd gün qaranlıq otağa saldılar. Zindan bütünlüklə casusların, müfəttişlərin əlinə keçmişdi. Pul xərcləyən, zindanın vəziyyəti haqqında polisə raport verən adamlar azad buraxılırdılar. Bu işlərə qol qoymayıb, boyun əyməyən bizim kimi məhbusların vəziyyəti isə dözülməz idi.

Zindana qəzet gətirilməsini də qadağan etmişdilər. Siyasi məhbusların bir çoxu üçün əhəmiyyətsiz gəlir mənbəyi sayılan papiros bükmək karxanasını da bağlamışdılar. Siyasi məhbuslara zindanın karxanasında işləmək imkanı verilmirdi. Maddi və mənəvi vəziyyətimiz günü-gündən pisləşirdi. Nəhayət, bir gün hamamda siyasi məhbuslardan biri ilə hamam rəisi arasında xoşagəlməz deyişmə baş verdi. Hamam rəisi məhbusu söydü. O günədək söyüş eşitməmiş siyasi məhbus belə bir vəziyyətə dözə bilməzdi. Digər tərəfdən söyüşə məruz qalan şəxs, yəni Əsədulla Şərifi tamamilə təqsirsiz, bitərəf və qərəzsiz bir adam idi. Onu İsfahandan tutub Qəsrə göndərmişdilər. Üç ildən artıq həbs oldu. Vəkil, məhbusları incitmək yolu ilə özü üçün yeni məqam və rütbə əldə etmək istəyirdi. Nəhayət, danışıqlar ucaldıqda yenicə soyunub hamama daxil olmaq istəyən yeddinci koridorun məhbusları hamam rəisi vəkili dövrələdilər. Vəkil çox qorxuya düşmüşdü. Şərifi onu döymək istəyirdi. Lakin bu, məhbuslar üçün əlverişli deyildi. Biz hamamdan xaric olduq. Vəkil isə əhvalatı raport verməyə getdi. Məhbuslar o yandan bu yandan yığışıb bir guşədə həmin məsələni müzakirə etməyə başladılar. Hamının fikri bir idi. Hamı istəyirdi ki, yenə də kütləvi aclıq elanı yolu ilə məmurların özbaşınalığının qarşısı alınsın. Yavaş-yavaş məsələ böyüdü. Nəhayət, təklifləri müəyyən etmək, zindandan buraxılmaq fikri ortaya atıldı. Koridordakılar iki dəstəyə, muvafiq və müxalif dəstələrə ayrıldılar. Koridorda danışıqlar hələ qurtarmamışdı. Birdən qapı açıldı. Kasalara doldurulmuş qurutlu şilələri yenə gətirdilər. Daha müzakirə üçün vaxt qalmamışdı. Hər kəs dərhal öz rəyini bildirməli idi. Xörəkləri bölüşdürən kimi, təqribən otuz kasaya heç kəs əlini vurmadı. Xörəkləri geri apardılar. Niyrumənin sağ əli hesab edilən nayib Gürcüyə bu haqda məlumat verdilər. O həmişə olduğu kimi yenə də başdan-ayağa hədə-qorxudan ibarət olan nitqini işə saldı, lakin məhbusların qərarı ciddi və qəti idi.

Həmin gün əlimizdə olan vasitələrdən istifadə edərək aclıq elanının başlanmasını ikinci, dörduncü və səkkizinci koridorlarda saxlanılan məhbuslara çatdırdıq. O koridorlarda da bir sıra məhbuslar bizə tərəfdar çıxdılar. Aclıq elanı demək olar ki, özünə kütləvi xarakter aldı. Müxaliflər məcbur qalaraq öz otaqlarına gedib səslərini çıxarmadılar.

Hələ aclıq elan olmamışdan əvvəl, Niyrumənd təzə zindan rəisi olmuşdu. Muxtaridən məhdud edilməz səlahiyyət almışdı... Biz yaxşı bilirdik ki, kiçik bir bəhanə, şəraitə uyğun olmayan hər hansı bir hərəkət, yersiz hay-küy bütün işləri korlayacaq və bütün çəkilmiş zəhmətlər hədərə gedəcəkdir. Buna görə də hamı polislə əlaqə saxlamaqdan çəkinərək öz otağında tək oturmuşdu. İlk ümumi aclıq elanı kimi bu dəfə də hamının sözü bir idi: «Ya təklifimiz müəyyən edilməli, ya da hamımız öləcəyik».

Niyrumənin cürbəcür hədə-qorxusu heç bir nəticə vermədi. Polislə heç kəs danışmağa hazır olmadı. Bizi qorxutmaq üçün rəsmi təhqiqata başlayıb birini digərinin ardınca istintaqa çəkirdilər. Qabaqcadan heç bir şərt olunmasa da, aclıq elan etmiş bütün məhbusların sözü bir idi. Zindandakı casuslar daxili təfriqə və müxalifətdən istifadə etməyə və bununla aclıq elanı hərəkətinin daha geniş yayılmasına imkan verməməyə çalışırdılar. Neçə nəfəri istisna etməklə demək olar ki, heç kəs casusların sözünə əhəmiyyət vermədi. Onlar vəziyyəti belə gördükdə səslərini kəsdilər.

Niyrumənd hələ də zindanın bütün daxili işlərini tam surətdə əlinə ala bilməmişdi. Buna görə də polkovnik Rasixin əlaltıları və həmkarlarının bu aclıq hərəkətindən o qədər də acıqları gəlmirdi. Getdikcə digər koridorlarda saxlanılan məhbuslar da etiraz səslərini ucaltdılar. Niyrumənd çox böyük bir od yandırmışdı. Bütün məhbuslar öz gələcəklərindən qorxurdular. Söhbət daha sərt tədbirlərin həyata keçiriləcəyindən gedirdi. Niyrumənd demişdi ki, hamını adi koridorlara dolduracaq. Siyasi məhbusları da oğru və yolkəsənlərin vəziyyətinə salacaqdır. O, deyirdi ki, yalnız bir dəst paltar və yataqdan başqa siyasi məhbusların da bütün şeylərini alacaqdır... Neft çiraqlarını, xörək qızdırmaq üçün istifadə olunan pirimusları yığıb aparmışdılar. Bütün kitabların, jurnalların, kağız və karandaşın yığılacağı gözlənilnrdi. Rüşvətxorlar və Bəxtiyari xanlarının saxlanıldığı yeddinci koridor üçün nəzərdə tutulmuş güzəştlər bütünlüklə ləğv olunmuşdu. Danışmağa, etiraz etməyə heç kəsin cəsarəti çatmırdı. Uzun müddətlərdən bəri zindanda saxlanılaraq bir dəri və sümüyü qalmış siyasi məhbuslar belə bir təhlükəli vaxtda aclığa əl atmaqla mübarizəyə başlamışdılar. Yenə də şirin canımızdan başqa ayrı bir silah və mübarizə vasitəmiz yox idi. Hamı zəif, arıq, xəstə və taqətsiz idi.

Adi günləri çox çətinliklə başa vururduq. Xörək yeməmək nəticəsində bir çoxları taqətdən düşmüşdü. Keçmiş aclıq elanı vaxtında olduğu kimi bu dəfə də heç şey yemirdik. Lakin bu dəfə qüvvə iynəsi vurulmaqdan imtina etmədik. Dördüncü gün yeddinci koridorda məhbusların səsi ucaldı. Lorların başçıları bildirirlər ki, günahsız bir dəstə onların gözü qarşısında acından öldüyü şəraitdə xörək yeyə bilməzlər. Tayfa başçılarının bu sözlərinə Muxtari və Niyrumənd etinasızlıq göstərsələr də o, bizim üçün çox faydalı oldu. Bu sözləri eşitməklə iradəmiz möhkəmləndi. Daha çox müqavimət göstərdik. Nəhayət, Niyrumənd bizlərdən beş nəfərini çağırıb qısa müddət ərzində qəti cavab verəcəyi barədə vicdanla söz verdi. Aclıq elanı hərəkətimiz müvəffəqiyyətlə qurtardı. Beləliklə doqquz il təklifimiz müəyyən olunmadan zindanda saxlanıldıqdan sonra nəhayət, işlərimizi məhkəməyə göndərdilər. Məhkəmədə də işlərə necə baxılması barədə sonra məlumat verəcəyik.

# MƏHBUSLARI NECƏ ÖLDÜRÜRDÜLƏR

Zindan daxilində bəzən adamın ruhu kiçilir. O, mövhumatçı olur. hər hansı bir hadisəyə xüsusi qiymət verir. O, bütün eşitdiklərini öz nəzərində ayrı cür mənalandırır və təbir edir. Məhbus hətta, küləyin əsməsindən, ağac yarpağının yerə düşməsindən, adi sərçənin uçmasından, kiçik heyvanların səsindən özü üçün müəyyən nəticələr çıxardır və onları öz müqəddəratı ilə əlaqələndirir. Noxud falı, Hafiz və Sədinin əsərindən fal açmaq, istixarə etmək, yuxuları təbir etmək, əlin içindəki xətləri oxuyub öyrənməyə çalışmaq məhbusların demək olar ki, gündəlik işləri idi. Bu işlər bəzən onun ürəyini sakitləşdirir, ümidini artırır, bəzən isə məyus və ümidsiz edirdi. Yoldaşlarımızdan biri ağır xəyala dalmaq xəstəliyinə tutulmuşdu. O, heç kəsə qoşulmur, həmişə bir Guşədə oturaraq dizlərini qucaqlayır, uzun-uzadı fikir və xəyala dalaraq özünü yorurdu. Biz onu bu təhlükəli vəziyyətdən xilas etmək üçün çoxlu çalışırdıqsa da müsbət nəticə əldə edə bilmirdik. Günlərin bir günündə o, təsadüfən bir məhbusun əlində Hafizin əsərini görüb ondan xahiş etmişdi ki, bir fal açsın. Fal açarkən Hafizin (İtmiş Yusif yenə də Kənana qayıdar, qüssə etmə) misrası ilə başlanan məşhur qəzəli çıxmışdı. Sadə gənc bu təsadüfdən ürəklənmişdi. O gündən etibarən o, büsbütün dəyişərək, bir-iki həftədən sonra zindanın ən yaxşı idmançılarından birinə çevrildi. O, xarici dil də öyrənməyə başladı. Guşənişinlik xəstəliyindən özünu xilas etdi. Fiziki, zehni və mədəni fəaliyyət sahəsinə qədəm qoydu.

Qeyd etmək lazımdır ki, həmin hadisənin əksi də baş verə bilərdi. Münasib olmayan bir fal müəyyən məhbusu ümidsizlik və məyusluq girdabına sövq edərək, onu taqətdən salırdı. Yazıq Seyid Məhəmməd Tənhanın başına məhz belə bir hadisə gəldi. Xaricdə onun yalnız bir anası var idi. Bu yazıq ana bir il idi ki,

İsfahanda qalaraq öz oğlundan xəbərsiz idi. Nəhayət, zindanda saxlanılmış bir yolkəsən buraxıldıqdan sonra təsadüfən Seyid Məhəmməd Tənhanın həbsə alınması xəbərini onun anasına çatdırmışdı. Bu bədbəxt qarı evlərdə qulluqçuluq etmək və paltar yumaq yolu ilə bir təhər həyat sürürmüş. O, oğlunun tutulması xəbərini eşitdikdə özünü bir təhər Tehrana çatdırır, çoxlu zəhmətdən və üç ay avaraçılıqdan sonra, nəhayət, Qəsr zindanına gəlib, dəmir məcərlər arasından oğlunu görərək onun saralmış üzündən öpüb demişdi: «Anan sənə qurban olsun, inşallah tezliklə səni buraxacaqlar. Qapıdakı polislə danışdım. O, sənin tezliklə buraxılacağın haqqında mənə söz verdi. Qəm etmə, yenə də sənin yanına gələcəyəm. Al bu köynəyi gey. İkinci dəfə gələndə sənin üçün ip köynək toxuyub gətirəcəyəm. Qabağı qışa gedir, qoy sənə soyuq olmasın...»

Seyid Məhəmməd Tənha anasından ayrılandan sonra bir-iki həftə ümidli və fərəhli yaşadı. Üçüncü həftə yenə də darıxdı. Dördüncü həftə yenə də nigaran oldu. Həftələr, aylar ötüb keçdi, anadan bir xəbər çıxmadı. O, zindan idarəsinə müraciət etsə də qənaətləndirici cavab ala bilmədi. Siyasi idarənin rəisi polkovnik Seyfə ərizə yazdı... Ərizədə anasının çağırılmasını tələb edirdi. Eşitdiyimizə görə Seyid Məhəmməd Tənhanın anası hələ də Tehranda idi. O, hər gün siyasi idarəyə gedir, ikinci dəfə öz oğlunu görməyə icazə verilməsi üçün çalışırdı. Lakin ağayi polkovnik Seyfin ürəyi daşdan və poladdan möhkəm idi. Siyasi idarənin məmurları qoca ananın döşündən vurub eşiyə salırdılar. Nəhayət, bu qarını çağırıb demişdilər ki, əbəs yerə polisə dərdisər vermə, sənin oğlun buraxılmayacaq. Bütün nicat və xilas yolları oğlunun üzünə bağlanmışdır. Bu vəziyyət artıq gənc fəhləni taqətdən salmışdı. Bizim və sair yoldaşların nəsihətləri onun ruhiyyəsinə təsir göstərə bilmədi. Bir guşəyə çəkilib xəyal və düşüncələr dənizinə qərq oldu. Bir aydan sonra o, dəli oldu. Daha bir neçə gün sonra eşitdik ki, zindan cəlladları Seyid Məhəmməd Tənhanı da Əlimüddövlə qapısından çıxarıb adsız qəhrəmanlar qəbristanına aparmışlar. Belə cinayətlər törətmiş adamlar hələ bu gün də iş başında dırlar.

Siyasi məhbusların ikinci qurbanı Məhəmməd Dadizadə (Ənzabi) olmuşdur. Bu gənc yoxsul bir ailədə doğulmuş, hələ kiçik yaşlarından əzab-əziyyətə və çətinlnklərə adət etmişdi. O, öz qoca anasını, bacı və qardaşlarını dolandırmaq üçün gecə-gündüz çalışırdı. İbtidai məktəbdə dərs deyirdi. Bəzi ticarətxanalarda mirzəlik və mühasiblik vəzifələrində də işləmişdi. Boş vaxtlarında isə şer deyib məqalə yazardı. Onun yaxşı istedadı parlaq gələcəyə malik olduğunu göstərirdi. Hələ çox gənc yaşlarında gözəl əxlaqı, mülayimliyi və səmimiliyi sayəsində çoxlu dost qazanmış və hamının sevimlisi olmuşdu. Zindanda saxlanıldığı ikinci ildə qəflətən xəstələndi. O, daima qusur, şiddətli qarın ağrıları çəkirdi. Bu vəziyyət cəmi bir neçə saat ərzində Ənzabini taqətdən saldı. Çox çalışdıqdan sonra onun görüşünə getmək üçün icazə ala bildim. Rəngi qaçmış, üzü arıqlamışdı. Lakin simasında heç bir vəhşət və nigaranlıq görünmürdü. Otağa girən kimi gülərək dedi: Yaxşı gəlib çatdın, vəziyyətim deyəsən ağırdır. Deyirlər kor bağırsağım çirkləyib partlamışdır. Nəyin bəhasına olursa-olsun cərrahiyyə əməli aparılmalıdır. Başım çox bərk ağrıyır, qarnımın ağrısı sanki azalıb. Şerlərimi Məhəmməd Nünəkəraniyə tapşırmışam. Eləyə bilsən onları zindandan çıxar.

Zindanda olduğumuz ilk dövrlərdə xəstə yoldaşlara özümüz xidmət göstərirdik. Zindanın həkimi məhbuslardan biri idi. O vaxt bizim üçün belə bir icazə verilirdi. Zindan həkimləri məhbusları özləri müalicə edirdilər. Sonra isə bu kiçik imkan da əlimizdən alındı. Xəstə məhbuslar qədim dövrlərin dustaqbanlarından daha kobud, daha əxlaqsız, daha cinayətkar olan Bərazəndələrin, doktor Əhmədilərin, doktor Xosrov Xavərlərin əlinə düşdülər. Onlar xəstələrə dava-dərman əvəzinə söyüş verirdilər. Ağızında bir qızıl dişi və ya əynində bir dəst təmiz paltarı olan adam özünü bu həkimlərin əlindən xilas edə bilməzdi. Doktor Əhmədi qışda xəstə məhbuslardan birini həyətdə saxlayaraq dondurmuş, səhər isə onu səssiz-sədasız Əlimüddevlə qapısından qəbristana göndərmək istəyirmiş. Günortaya yaxın meyiti çıxaran zaman məlum olmuşdur ki, xəstə hələ də ölməmişdir. Deyildiyinə görə, bu cinayət yalnız məhbusun bir dəst yaxşı paltarı və neçə tümən pulu xatirinə həyata keçirilmişdir.

Dadizadə (Ənzabi) ömrünün son dəqiqələrində belə gülərüzlü idi və zarafat edirdi. Bir sıra mərhəmətli. sözlərdən sonra dedi: Ağayi (Sin) yenə də mənimlə doktorcasına rəftar edir. O məni könlüm istədiyi şeyi yeməyə qoymur, rejim saxlamağa məcbur edir. Mən istəyirəm öləndə də azad ölüm. Dərman və limonad nəyə lazımdır. Halımın getdikcə yaxşılaşmasını hiss edirəm. Deyəsən qızdırmam yoxdur...

Əlindən tutdum. Əlləri soyumuşdu. Nə qədər çalışdım nəbzini tapa bilmədim. Mən onun yanından çıxandan bir neçə dəqiqə sonra cərrahiyyə əməliyyatı adı ilə xəstəni zindandan götürüb apardılar. Cansız bir cəsəd polis xəstəxanasına təhvil verildi.

Bu kədərli hadisədən iki-üç ay əvvəl Ənzabinin anası öz oğlunu xilas etmək üçün Tehrana gəlmişdi. O, bu iş üçün bir çox idarələrə gedirdi. Bir gün görüş zamanı deyirdi: «Bala, mən ki, fars dilini bilmirəm, sözümə heç kəs qulaq asmır. Sırağagün polis idarəsi rəisinin az qala maşınının altında qalacaq idim. Nəhayət, ərizəni ona çatdırdım. İki-üç gün əvvəl siyasi idarəyə getmişdim. Orada mənimlə çox pis rəftar etdilər. Polis yumruqla döşümdən vurub məni çölə atdı. Yenə də siyasi idarəyə gedirəm, Yenə də gedəcəyəm, səni azad edənə qədər gedəcəyəm».

Başqa görüş zamanı qoca ana böyük sevinclə oğluna deyirdi: «Polis idarəsinin rəisi səni buraxmaq haqqında söz vermişdi...»

Bu hadisədən beş ay sonra yazıq ananın ürəyi tab gətirməyərək öz ev əşyalarını satıb yenidən Tehrana gəldi. Bu dəfə daha o ərizə vermir, ona-buna yalvarmırdı. Oğlunun ölüm xəbərini eşitmişdi. Balasını itirmiş şir kimi nalə edirdi. O təhqirdən, hətta ölümdən də qorxmurdu. Daha heç kəs onun sinəsinə yumruq vurub çölə atmağa da cürət etmirdi. O öz oğlunu istəyirdi.

- Oğlumu öldürmüsünüz, heç olmasa onun meyitini verin. Heç olmasa onun qəbrini mənə göstərin...

Qoca arvad polisləri təhqir edib, söyürdü. O, öz zəif və titrək əlləri ilə cəlladları boğmaq istəyirdi. Bununla ürəyindəki həsrət alovunu söndürməyə çalışırdı.

- Sarayı od tutub yansın, ürəyi kabab olsun, ciyərn mənim ciyərim kimi alovlansın,-deyib haray çəkirdi. Nəhayət, ananın əlinə bir dəst köhnə paltar verib yola saldılar.

## DOKTOR ƏRANİNİN ÖLDÜRÜLMƏSİ XƏBƏRİ

Yeddinci koridorda artıq uca gülüşmələrdən, şux zarafatlardan əsər görünmürdü.

Siyasi məhbuslar gizli vasitələr ilə əldə etdikləri kağız, kitab və karandaşı da bir kənara qoymuşdular. Heç kəs gündəlik məşqələsi ilə də başın qatmırdı. Hər tərəfi tam ölüm sükutu bürümüşdü. Ehsasatlı başlar aşağı sallanıb, alovlu ürəklər məhzun və tutqun idi. Heç kəs başqasından bir kəlmə söz soruşmaq, yaxud öz nigaranlığını öz yaxın dostuna bildirmək, bu həyəcanlı xəbərin doğru olub-olmamasını müəyyənləşdirmək istəmirdi. Hamı yayılmış şayiənin düzgün ola biləcəyindən qorxurdu.

Hətta, o gün heç kəs həyətə çıxmaq, təzə hava almaq da istəmirdi. Koridorlarda gəzən yox idi. Hətta, həyətə çıxmaq imkanından bir dəqiqə də belə qəflət etməyən Sərdar Rəşid Kürdüstani də otaqdan bayıra çıxmırdı.

Məhbusların çoxu ağlayır, onların kədərli ürəkləri kin və intiqam hissi ilə dolmuşdu.

Onlar bir-birinin gözünə belə baxa bilmirdilər. Eşitdikləri xəbərin doğruluğunu bildirən hər hansı bir əlaməti görüb məyus olacaqlarından qorxurdular. Ürəklər bir idi. hamının hissiyyatını bir qüvvə həyəcanlandırırdı.

Hamı bir cür fikirləşir, bir cür hərəkət edir, bir cür intizar çəkirdi. Bədbəxt hadisə demək olar ki, hamını vahid şəklə salmışdı.

Günortaya bir saat qalanadək heç kəs yemək-içmək fikrinə belə düşmədi. Əsəbilikdən hamının boğazı qurumuşdu. Nəhayət, günorta radələrində həmişə gülüşü ilə zindan mühitini lərzəyə gətirən (Y) zindan qapısının səkkiz qat dəmir məcərləri arxasında göründü. O, qara əbası altında büzüşmüş, gözlərini yerə dikmişdi. Daha həmişəki kimi şən görunmürdü. Çox ciddi və son dərəcə kədərli idi. Sanki başındakı ağ tüklərin sayı daha da çoxalmışdı.

Nəhayət, o içəri daxil oldu. heç söz demək istəmirdi. Lakin məhbuslar inanmaq istəmədikləri hadisəni başa düşdülər. O, bizə tərəf gəlmədən öz otağına getdi. Yolda da heç kimlə danışmadı. Bir dəqiqədən sonra qətl hadisəsi bütün təfsilatı ilə zindana yayıldı. Məlum oldu ki, doktor Əranini neçə ay bundan əvvəl tif xəstəliyinə tutulmuş bir məhbusun saxlanıldığı otağa salmışdılar. O, həmin yerdə dərhal xəstələnib zindan xəstəxanasına köçürülmüşdü. Qohumları və dostlarının təkidinə baxmayaraq, evdən onun üçün yemək, dava-dərman, hətta meyvə gətirilməsinə icazə verməmişdilər. Qırx dərəcə qızdırmanın içərisində olan zaman ona kinin iynəsi vurub öldürmüşdülər.

Bu hadisədən bir saat sonra, zindanın bütün koridorlarında gizli matəm yığıncaqları təşkil edildi. Mən bir çox bu qəbil matəm yığıncaqları görsəm də, qeyd etməliyəm ki, Əraniyə həsr edilmiş matəm yığıncağı onların heç birinə oxşamırdı. Bu matəm mərasimində hamının simasında intiqam hissi duyulurdu. Baxışlar məhzun, qəzəbli və dəhşətli idi.

Məhbusların etdikləri hərarətli nitqlər adamın əsəblərini titrədir və həyəcanlandırırdı. Hamı doktor Əraninin qəsdən müəyyən plan əsasında öldürülməsini başa düşürdü. Hamı düşünürdü ki, zindan rəisi bu yol ilə İran azadixahlarını başsız və rəhbərsiz qoymuşdur.

## POLKOVNİK FULADİ VƏ ONUN YOLDAŞLARI

Mən zindanda polkovnik Fuladinin özünü görmədim. Həbsə alındığım zaman artıq onu güllələmişdilər. Mən onun yoldaşları ilə rastlaşdım və uzun müddət onlarla yaxından əlaqə saxladım.

Fuladinin siması və xatirəsi məhbusların yadından hələ çıxmamışdı. Onlar bu barədə mənə çoxlu sözlər danışdılar. Təəssüf ki, on bir il müddətində başımıza gələn dəhşətli hadisələr nəticəsində onların bir çoxunu yaddan çıxarmışam. Burada yalnız bir sıra mühüm məsələləri, dumanlı şəkildə zehnimdə qalmış bəzi hadisələri şərh edəcəyəm.

Umumiyyətlə bütün məhbuslar Fuladinin çox rəşadətli və mətanətli bir zabit olduğunu qeyd edirdilər. Həbs olunduğu və istintaq edildiyi müddətdə əsla zəiflik göstərməmişdir. O, edam ediləcəyini yaxşı bilirdi. Lakin buna əsla əhəmiyyət vermirdi. Deyildiyinə görə, güllələnəcəyi ona xəbər verilən gecədə, çox mətin və sakit imiş. Onda heç bir həyəcan və qorxu əlamətləri görünməmişdir. O, başını və üzünü qırxdırıb, təzə libaslarını geyib, hətta, üzünə ətir də vurmuşdu. Edama aparılarkən hamı ilə vidalaşıb fateh bir əskər kimi yola duşüb getmişdi. Deyildiyinə görə güllələnmə zamanı atəş hökmünu də özü vermişdi. Əlimərdan xan Bəxtiyarinin, Xanbaba xan Əsədin və doktor Əraninin qəhrəmanlıqla həlak olunmalarından əvvəl, Fuladi siyasi

məhbusların qəhrəmanı sayılırdı. Adları qeyd olunan şəxslərin fədakarlıqlarından sonra Fuladinin mövqeyi ikinci və üçüncü yerə keçdi. Tədriclə məhbuslar onun adını yaddan çıxardılar.

«Haym»da zindanda yeddi il müqavimət göstərdi. O, Fuladinin yoldaşlarından idi. Vaxtı ilə qəzet müdiri olmuşdu. «Haym» çox diqqətə layiq bir insan idi. O, tam yeddi il müddətində öz sözünün üstündə möhkəm dayanaraq müstəntiqlərin sualına cavab verməyə hazır olmadı.

O deyirdi: «Həbs edildiyim vaxt mən şura məclisinin vəkili olmuşam. Toxunulmamazlıq qanunu mənə də aiddir. Bütün siyasi işlərə qarışa bilərdim. Bundan əlavə, mən hərbçi olmadığım üçün işimə hərbi məhkəmə baxa bilməz».

Bu etirazlarına baxmayaraq onun işini hərbi məhkəməyə verdilər. Məhkəmə-«Haym» üçün müdafiə vəkili təyin etdi. Nəhayət, yeddi il əzab və əziyyət çəkdikdən sonra onu edam etdilər.

O günlərdə biz yenicə həbsə alınmışdıq. Bu hadisə bizə çox dərin təsir etdi. Axı, buna nə ad vermək olardı? Bir adamı yeddi il işgəncə və əzab altında saxladıqdan sonra nəhayət, mühakiməsiz, müdafiəyə imkan verilmədən edam edəsən. Əvvəllər bu iş bizə çox təəcüblü gəlirdi. Lakin sonralar yavaş-yavaş adət etdik...

Qəsr zindanının tikintisi başa çatmazdan əvvəl məni də iki nömrəli müvəqqəti həbsxanada vaxtı ilə «Haym»ın saxlandıqı daxmada həbs etdilər. O, bu qaranlıq daxmanın divarında öz dırnağı ilə aşağıdakı sözləri yazmışdı: «İran! Ey əziz vətən! Sən heç vaxt səadətə çatmayacaqsan! Ona görə ki, sənin oğulların pozğun olmuş və alçalmışlar».

Söz yox ki, bu sözlərin təsir qüdrəti zaman və məkandan asılı olaraq fərqlənir. Yenicə zindana düşdüyüm vaxt həmin sözlər mənə çox dərin təsir etdi. Öz-özümə dedim: «Haym» düz deyir. İranın oğulları həqiqətən pozğunlaşmış, onların igidlik və kişiliyindən əsər və əlamət qalmamışdır. Çox təəcüblüdür. Bir millət bu qədər azğınlığı, zülm və təcavüzü görə-görə səsini çıxarmır, dözür, yenə də dözür! Şübhəsiz ki, bu əxlaqi düşgünlük ölkəni fəlakət və bədbəxtliyə sövq etməyə bilməz.

«Haym» zindanda olduğu bütün müddətdə qapını bağlayıb heç kəs ilə dostluq etmirdi. Yalnız gecələr öz su qabını tapmaq üçün polis ilə bir yerdə bayıra çıxırdı. Yay fəslində, hava açıq və buludsuz olan gecələrdə, bütün məhbuslar yatdıqdan sonra «Haym» əbanı başına çəkərək həyətə çıxıb uzun müddət bir guşədə dayanırdı. O, bir dünya kədər və qüssə ilə ucsuz-bucaqsız səmaları, ulduzları seyr edirdi. O vaxt zindanda kitab oxumaq hələ qadağan edilməmişdi. «Haym» gecə-gündüz daima öz vaxtını kitab mütaliəsi ilə keçirirdi. O, Flamaryonun «Ümumi heyət» adlı kitabına daha çox maraq göstərirdi. O, səma cisimlərinin heyrətləndirici, eyni halda dəqiq qayda-qanunla hərəkət etməsini öyrənir, fransuz aliminin geniş baxışları ilə ucsuz-bucaqsız səmada xardaldan da kiçik görünən Yer kürəsini və onun sakinlərini istehza edirdi. «Haym» rəsmi surətdə ali təhsil almamışdı. Lakin daima ömrünü mütaliədə və kitab oxumaqda keçirmiş bir adam idi. Fars dilini, ərəb dilini Şam ləhcəsini yaxşı bilir və danışırdı. Fransız və ingilis dillərini də kitablardan istpfadə etmək hududunda bilirdi. O, heç də xəyal etmirdi ki, axırda edam olunacaq. Onun bacılarına mənim çox ürəyim yanardı. Bu yazıq qadınlar yeddi il müddətində ona yemək daşıdıqdan sonra bir gün nəhayət, belə cavab aldılar. «Müsyö Haym daha qəsrdə deyil, hədər yerə özünüzə zəhmət verməyin!».

Belə bir şayiə yayılmışdı ki, yəhudilərə mənsub səhyunist partiyası tərəfindən «Haym» üçün ayda əlli-altmış tümən xərclik verilir. Mən «Haym»i zindandan xaricdə görməmiş və onunla heç də dostluğum da olmamışdı. «İttihad» qəzetinin baş redaktoru olduğu vaxt yaxşı şöhrət qazana bilməmişdi. Rizaxanın meydana çıxdığı ilk günlərdə onun ciddi tərəfdarlarından sayılırdı. Buna görə də azadixahlar «Haym»a bədbin idilər. Bunlara baxmayaraq «Haym» müsbət siyasi məhbuslardan biri idi. Yeddi il müqavimət

göstərmək, yeddi il müddətində öz sözunun üstündə durub təslim olmamaq, yeddi il müddətində hamıdan ayrılaraq bir guşədə tək yaşamaq heç də asan iş deyil. Bu qəbil işləri görmək üçün iradə, qüdrət və möhkəm səbr lazımdır.

Polkovnik Nəsrullaxan Kəlhor və polkovnik Fuladinin digər dostları «Haym»a yaxşı nəzərlə baxmırdılar. Polkovnik Nəsrullaxan deyirdi: «Mən «Haym»ı yaxşı tanıyırdım. Kirmanşahda o, Vasili adı ilə şöhrət tapmışdı. Xaricilərlə əlaqə saxlayırdı. Mən işin əvvəlində rəhmətlik Fuladiyə demişdim ki, bu qəbil ünsürlərlə işləmək olmaz. O, yaxşı hərbçi idi. Lakin yaxşı siyasətçi deyil idi. Bu adamların hamısını məhz o, işə cəlb etdi».

Polkovnik Kəlhor, Fuladiyə böyük əlaqə bəslədiyinə baxmayaraq, onun işləri haqqında yaxşı nəzəri yox idi. Kəlhor deyirdi: «Mən dəfələrlə ona dedim ki, bizim işimiz heç də gizli vərəqələr yazıb onları xalq arasında yaymaqdan ibarət deyildir. Biz əməli tədbir görməliyik. O, özü də müəyyən taktika və iş qaydası irəli sürmürdü. Gördüyü işlər ilə nə məqsəd daşıdığını bilmirdi».

Ümumiyyətlə, «Haym»ı heç kəs sevmirdi. O, məhkəmə olunan günlərdən birində Kəlhor mənə dedi: «Qorxuram dostumuzu şahənşah zabitlərini yoldan çıxarmaq kimi saxta bir ittiham ilə gulləsinlər».

Mənimlə dost olan kürdüstanlı sərdar Rəşid də «Haym»a xoşbin deyildi. O deyirdi ki, «Haym Kirmanşahda özündən heç də yaxşı xatirələr qoymamışdır. Bütün bunlara baxmayaraq «Haym» diktatorluq dövründə aradan aparılmış görkəmli siyasi şəxslərdən biri olmuşdur.

# POLKOVNİK NƏSRULLA XAN

Həbsə alındığım ilk ildə təsadüfi olaraq polkovnik Nəsrulla xan ilə tanış olub dostlaşdım. O, bütün həbs müddətinin yeddi ilini zindanın xəstəxanasında keçirmişdi. Bu müddətdə o, özünü tam mətanətlə aparmışdı. Vəziyyətin ağır olmasına baxmayaraq ruhiyyəsi möhkəm idi. Zindan məmurları onunla hesablaşmağa məcbur idilər. O, məhbusların bir çoxu ilə dostlaşmışdı. Mənə də yaxşılıq göstərirdi. Üç-dörd ay müddətində hər gün səhərdən axşamadək xəstəxananın həyətində birgə dolanırdıq. Keçmiş şahın əhvali-ruhiyyəsi haqqında dərin məlumata malik idi. O deyirdi: «Riza şah qorxaq bir adamdır». Nəsrulla xanın bu sözlərini qərəzli hesab edirdim. Lakin onun minlərlə qənaətləndirici dəlilləri var idi. «Daxilində heç bir şey yoxdur. Riza şah hay-küylə adamların sadəliyindən istifadə edir».

Nəsrulla xanın qoşundan, hərbi işlərdən yaxşı xəbəri var idi. O vaxt bu barədə böyük hay-küy qoparılmasına baxmayaraq o, mövcud vəziyyəti düzgün qiymətləndirirdi. Nəsrulla xan deyirdi: Bütün bu hay-küy parad və nümayiş üçündür. Qoşunun bütün hərbi təlimatı yalnız zahiri görünüş üçün həyata keçirilir. Naşı zabitlər hərbi texnikadan yalnız ayağı yerə möhkəm güpsəməyi bilirlər. Bu isə qarın-bağırsağın yırtılmasından başqa ayrı bir səmərə vermir.

Nəsrulla xan deyirdi ki, şahın hətta, boyu hündür zabitlərdən də xoşu gəlmir. O, özündən uca adamı görmək istəmir. Başqa bir adam mənə dempşdi ki, polkovnik Kəlhori yalnız boyu uca olduğuna görə təqaüdə çıxarmışdılar...

Polkovnik Nəsrulla xan uşaq xasiyyətli bir adam idi. O, Fuladi dəstəsinin xaricilər tərəfindən təhrik olunması haqqında yayılmış şayiələrdən, habelə xalqın nadanlığı və məlumatsızlığından çox kədərlənirdi. O deyirdi: Belə şayiə yaymışlar ki, biz ölkəni guya hərcmərcliyə sövq etmək istəyirmişik. Bununla da

qadınları, bizi qarğış etməyə məcbur edirdilər.

# NƏ İSTƏDİKLƏRİ MƏLUM DEYİLDİ

Bütün bunlara baxmayaraq, Fuladinin dostları vətən və xalq haqqında çoxlu sözlər danışdıqlarına baxmayaraq, hansı üsuli-idarəni yaratmaq istədiklərini, hakimiyyəti ələ aldıqları təqdirdə hansı məqsədi güdüb nə kimi planlar həyata keçirəcəklərini bizə aydınlaşdıra bilmirdilər. Onlar dövrün bir çox mənfi siyasətçiləri kimi yalnız tənqid etmək və bədbin fikirlər yaymaqla kifayətlənirdilər. Polkovnik Fuladi də bu cəhətdən zəif olmuşdu. Məlum deyil idi ki, müqəddiməsini özü hazırladığı dövlət çevrilişini həyata keçirdiyi təqdirdə hansı yol ilə gedəcək. Onların taktikası və iş qaydaları yox idi. Elə həmin nöqsan da onların işinin irəliləməsinə maneçilik törətmiş və həbsə alınmalarına səbəb olmuşdu. Onların hansı inqilabi iş üstə belə bir aqibətə düçar olmaları məlum deyildi.

Deyildiyinə görə, mayor Lahuti həmin hadisədən bir neçə il əvvəl mərhum Fuladini Azərbaycanın Şərəfxana məntəqəsində tutmuş və onu nəzarət altında Təbrizə göndərmişdi. O vaxt Fuladi Azərbaycana göndərilmiş ordu hissəsinin komandiri olmuşdu. Lahuti onu Rizaxan əleyhinə üsyan etməyə razı sala bilməmişdi. Buradan aydın olur ki, ilk vaxtlarda Fuladi Rizaxanla müxalif deyilmnş. Sonralar isə öz səhvini təcrübədə başa düşərək Lahutinin təcrübəsindən öz xeyrinə istifadə etmək istəmişdi. Lakin o, zamanın dəyişdiyini dərk etməmişdi... Bundan başqa Lahutinin öz əskərləri içərisində böyük nüfuzu var idi. Əskərlər onun şüarlarını müdafiə edirdilər. O vaxtlarda hökumətin də Azərbaycanda nüfuzu yox idi. Lakin Fuladinin dövlət çevrilişi yaratmaq istədiyi vaxt hökumət bütün işləri öz ixtiyarına almışdı. Fuladi hətta, öz əli altında olan adamlara da inana bilmirdi. Ona görə də əlacsız qalaraq Əmir Münzəmin (ağayi Mirqafqazinin) ərəbəçilərinə hərbi paltar geyindirərək onların əli ilə şahı həbs və sarayı işğal etməyə çalışırmış...

Bir sözlə. Fuladi də özündən sonra onun aydın siyasi əqidəyə malik olmasını göstərə bilən heç bir iz qoymamışdır. Bu, diqqətə layiq mövzulardan biri sayılır. Dövrumüzün tarixçiləri həmin məsələ ətrafında diqqətli axtarış və tədqiqat edərək onun müvəffəqiyyətsizliyi səbəblərini zahirə çıxarmalıdırlar.

Deyildiyinə görə, polkovnik Fuladi kasıb bir ailədə boya-başa çatmışdı. Onun bir və ya iki qardaşı birinci dünya müharibəsi zamanı Şirazda baş vermiş hadisə nəticəsində ölmüşdü. Fuladini güllələdikdən sonra onun oğlanlarını hərbi məktəbdən də çıxarmışdılar. Bu iş polkovnik Nəsrulla xanı çox qəzəbləndirmişdi.

Diktatorluğun yarandığı və irticanın canlandığı bir dövrdə mübarizə meydanına qədəm qoyaraq öz canlarını qurban verən fədakar zabitlərin böyüklüyünü və şəxsi əhəmiyyətini heç kəs inkar edə bilməz. Bu hadisə öz-özlüyündə zabitlərin ruhiyyəsini qiymətləndirmək nöqteyi-nəzərindən də diqqətə layiqdir. Lakin zabitlərin bu etirazlarını ictimai bir hərəkat və ya ümumi inqilabi bir hərəkat kimi qiymətləndirmək olmaz. Fuladi Azərbaycanda bütün qüvvələrin rəisi və başçısı olduğu vaxtda Lahutinin əməli təkliflərini qəbul etsəydi, bəlkə də ölkədə işlər indi ayrı şəkildə idi. Biz Lahutinin səhvlərini inkar etmirik. O, özü də Şeyx Məhəmməd Xiyabaninin qatilindən intiqam alsaydı, o qatili salamat Tehrana göndərməsəydi, Fuladinin dostlarından birinin dediyi kimi güvə yemiş pambıq (M. h...) uzun illər baş nazirlik postunu ələ keçirməzdi. Bir çox ailə üzvlərini özbaşına yüksək maaşlarla idarələrdə məsul vəzifələrə yerləşdirməzdi.

Bəziləri rəhmətlik Fuladini qorxaqlıqda ittiham edib deyirdilər ki, o, şahla üz-üzə gəldiyi vaxt onu öldürsəydi ölkəni xilas edə bilərdi. Şübhəsiz ki, bu müddəa əsassız ittiham və boş bir fikirdən başqa bir şey

deyil. O dəqiqədə Fuladi heç bir iş görə bilməzdi. Əmir Münzəmin və sairlərinin qabaqcadan gördükləri tədbirlər nəticəsində general mayor Dərgahinin hər şeydən xəbəri var idi. Şahla görüş vaxtından qabaq o, zəminəni elə hazırlamışdı ki, Fuladi yerindən belə tərpənə bilməzdi. Bundan əlavə, şah Fuladini qabaqlayaraq silahını onun sinəsinə tuşlamışdı. Fuladi bilirdi ki, sarayda yalnız bir nəfər dost və həmkarı vardır. Onun da vəzifə başında olub-olmadığı məlum deyildi. Bütün bunlardan əlavə, şahın gəlməsi onun üçün gözlənilməz bir hadisə idi. Belə bir anda adam nə qədər rəşadətli olsa da, fikrini dərhal cəmləşdirə bilməz. Deyildiyinə görə, ali rütbəli ordu zabitlərinin bir çoxu Fuladinin edam olunması və onun dostlarının məhkum edilməsinə müxalif idilər. Buna görə də məhkəmə dəfələrlə təkrar olunmuşdu. Deyildiyinə görə, birinci məhkəmədə Fuladi və dostlarına bəraət qazandırmışdılar. Yuxarıda qeyd etdik ki, Fuladi və onun dostlarının siyasi əqidələri və əsas məqsədi məlum deyildi. Onların tərəqqipərvər və hətta bəzilərinin azadixah və inqilabçı olmalarına baxmayaraq, iş metodları və qaydaları yanlış idi. Çünki çevriliş düzgün olmayan metoddur. Təəssüflər olsun ki, Seyid Ziyaəddin Təba-təbainin Qafqaz səfərindən sovqat gətirdiyi və Riza xanın «Çevrilişin səbəbkarı mənəm» ünvanlı məşhur bəyannaməsi ilə özünə yapışdırmaq istədiyi bu təhlükəli xəstəlik ölkəmizdə geniş yayılmışdı. Yuxudan tez duran, öz dövrəsində iki-üç nəfərin toplandığını görən hər kəs çevriliş fikrinə düşürdü. Hətta, adlı-sanlı adamlardan bəziləri də həmin qələt fikrə yuvarlanaraq özlərinin və bir dəstənin həyatını təhlükəyə salırdılar. Çevriliş heç də inqilab demək deyil. Xalqın əzəmətli kütlələri, cəmiyyət daxilində əmələ gələn intizamlı təşkilatlar iştirak etmədən, iqtisadi və siyasi hərəkat törənmədən inqilab həyata keçirilə bilməz. Çevriliş çox bir az adamların və yaxud vahid bir şəxsin təşəbbüsü nəticəsində meydana gəlir. Çevriliş hər hansı şəkildə hər hansı adamın əlilə həyata keçirilsə də, o, diktatorluğun müqəddiməsidir. Çevrilişin iyirmi illik diktatorluq dövründə gördüklərimizdən başqa, ayrı nəticəsi yoxdur və ola da bilməz. Bir neçə nəfər ziyalının yardımı ilə cəmiyyəti dəyişdirmək istəyən müəyyən adamlar və dəstələr həmişə məhv olurlar. Bu qələt təşkilatların məqsədlərinin nə olduğuna baxmayaraq nəhayət, onlar müvəffəqiyyətsizliyə uğrayıb aradan gedirlər. Müvəffəqiyyət qazandıqları təqdirdə isə öz istək və arzularının əksinə olaraq nəhayət, diktatorluq və özbaşınalıq tədbirlərinə əl atırlar. Bir dəstə ziyalının əlilə cəmiyyəti dəyişmək iddiasında olan məşhur Fransa inqilabçısı Lui Blanın fikri təhlükəli və yanlış fikir olmuşdur. Bu gün həqiqi inqilabçıların heç biri qeyd olunan fikrin arxasınca getmir.

## MAYOR ƏLBURZUN TƏŞƏBBÜSÜ

Mayor Əlburzu rüşvətxorluq üstə həbsə almışdılar. həbsə alınmazdan əvvəl o, Kirmanda polis idarəsinin rəisi olmuşdu. Vaxtı ilə o, Xozistanda da işləmişdi.

Məhbusun kim olduğundan asılı olmayaraq, onunla digər məhbuslar arasında müəyyən əlaqə vasitələri vardır. Ağayi Əlburz ilə digər məhbuslar arasında mövcud olan həmin əlaqə isə onunla zarafatlaşmağa və vaxtı bir təhər söhbətlə keçirməyə göstərdiyi meyildən ibarət idi. Polis zabiti rəsmi paltar geyəndə özünü çox öyür, lakin həmin gözəl paltarı onun əlindən aldıqda dərhal dəyişir. Yalnız belə şəraitdə lazım gəldiyi vaxt bu tip adamlarla söhbət etmək olur. Əlburz isə öz mayorluq rütbəsindən bir addım belə geri çəkilməyə hazır deyildi. Lakin məhbuslar yavaş-yavaş onunla baş-başa qoyur və zarafatlaşırdılar. Əlburz-özü də başını qatmaq üçün məhbuslara qoşulur və çalışırdı ki, onların söhbət, mübahisə və münaqişələrində mümkün qədər iştirak etsin.

O günədək müəllifin və digər məhbusların polis idarəsinin daxili işləri haqqında məlumatımız yox idi. Lakin zindanda həmin mayor Əlburzun habelə bir iki nəfər başqa polis zabitinin vasitəsi ilə biz bir çox şeyləri öyrəndik. Məsələn, Xozistanın polis idarəsi rəisi deyirdi: «Bizə göstəriş verilmişdi ki, rus dili bilən bütün adamları təqib edək». Ayrı bir polis deyirdi: «Göstəriş verilmişdli ki, bəhailərin yığıncaqlarını təqib edək».

Başqası təhlükəsizlik idarəsi şöbələrinin rəislərinin gecə işləri haqqında ağılasığmaz söhbətlər edirdi. O, deyirdi ki, filan müstəntiq və filan rəis zirək oğru ilə əlbirdilər. Görürsünüz, gecələr onu oğru tutmaq bəhanəsi ilə həbsdən çıxarıb oğurluğa göndərirlər. Bu oğrular xalqın evini talayıb bilavasitə müstəntiq və ya şöbə rəisinin evinə təhvil verirlər...

Oğruların özu də həmin mövzu haqqında çoxlu xəbərlər söyləyirdilər. Onların dediklərinin hətta yüzdə biri doğru hesab edilsə, belə bir nəticə çıxarmaq olar ki, Tehranda baş vermiş oğurluqlar məhz polis idarəsi işçilərinin əli ilə həyata keçirilir.

Belə bir iddia da olunurdu ki, polis idarəsinin illik raportlarında böyük oğurluqların kəşf olunması haqqında verilən bütün məlumatlar, müəyyən plan əsasında axtarış idarəsi məmurlarının öz əlilə tərtib edilirmiş. Xüsusilə Ərəbşahi haqqında çox qəribə söhbətlər edirdilər. Bu söhbətlərdən nəhayət biz belə bir nəticəyə gəldik ki, axtarış idarəsinin özü müəyyən xüsusi məqsədlər xatirinə oğrular təşkilatı yaratmışdır. Beləliklə, bir və ya neçə nəfər müstəntiq və ya şöbə rəisi ikitərəfli işləyir və necə deyərlər, oğru ilə şərik, karvan ilə yoldaşlıq edirmiş. Şubhəsiz ki, şöbə rəisləri başqa polis məmurlarının xəbəri olmadan uzun müddət bu işi davam etdirə bilməzdilər.

Mayor Əlburzun təşəbbüsü haqqında söhbət etmək istəyirdik. Bir gün gizli polis büdcəsi haqqında ona sual verdim. Gülərək dedi: gizli polis üçün büdcə lazım deyil. Nə üçün büdcə lazım deyil. Onun məhdudedilməz etıbarı bəs hansı orqan tərəfindən ödənilir?

- Belə bir etibar da yoxdur.

- Zarafatdan əl çək. Düzünü de görək polis idarəsinin təxminən neçə nəfər gizli polisi vardır?

- İstənilən qədər. Demək olar ki, hamı gizli polis vəzifəsini ifa edir.

Mən belə bir vəziyyətin imkan xaricində olduğunu dedikdə, o, bu iş çox asandır-deyə cavab verdi. Sonra əlavə etdi: Mən öz təcrübəmdə saysız-hesabsız bu gizli polislərin haradan meydana gəlməsini görmüşəm. İndi sizə də şərh edəcəyəm. Dərgahinin dövründə mən polis idarəsinin mühasibat şöbəsində işləyirdim. O, bir gün məni öz yanına çağırıb dedi: gizli polis üçün nə qədər büdcəmiz vardır. Mən həmin büdcənin çox az olduğunu bildirib dedim ki, o, hətta min tüməndən də azdır. Dərgahi təəcüblə, -axı sən ki, Xozistanın polis idarəsinin rəisi olubsan. haman idarənin gizli polisi üçün nə kimi vəsait ayrılmışdı, -dedi. Mən bu sualın cavabında: Qurban neçə yüz tüməndən artıq deyildi, -dedim.

- Bu pul ilə son necə işləyirdin? Yəqin ki, heç yerdən xəbərin yox idi.

- Hansı vasitə ilə işləməyimi, kiçik hadisələrdən xəbər tutmağımı icazə versəniz sizə şərh edərəm, Dərgahi maraqlanaraq söhbətimi eşitməyə hazır olduğunu bildirdi. Mən dedim: Polis rəisi olan vaxt mən çox cüzi maaş alan cəmi bir neçə gizli polisin bir iş görə bilməyəcəyini düşünüb qərara gəldim ki, işləri polis idarəsi ilə əlaqədar olan adamlardan həmin məqsəd üçün istifadə edim. Buna görə də göstəriş verdim ki, şəhərdəki bütün şoferləri, faytonçuları, nökərləri, çayxana işçilərini, restoran işçilərini, dəllalları və alverçiləri axtarış idarəsinə çağırsınlar. Onları hədələyib və eyni zamanda tamahlandırdıqdan sonra hamısının dilindən kağız aldım ki,, onlar hökumət haqqında olan bütün hadisələri, bu barədə danışılan bütün sözləri, habelə kiçik və böyük rütbəli bütün dövlət qulluqçuları və xüsusilə əlahəzrət haqqında hər cür mənfi söhbətləri müvafiq idarəyə dərhal məlumat verməlidirlər. Bu işdən boyun qaçırdıqları təqdirdə onların işinə maneçilik törədiləcək və Xozistandan sürgün olunacaqlar. Beləliklə, heç bir pul xərclənmədən çox geniş təşkilat yaratdım. Həmin təşkilatın köməyi ilə bütün şəhərdə baş verən hadisələrdən, hətta, evlərdə danışılan

söhbətlərdən belə xəbərimiz olurdu.

Dərgahi mənim sözlərimi eşitdikdə çox sevindim.Haman tarixdən eibarən hər gün şəhərdəki faytonçular, şoferlər, nökərlər və s. Dəstə-dəstə axtarış idarəsinə cəlb olunurdular. Onların dilindən kağız alınır və hamısını xalqın canına salırdılar.

Ağayi Əlburzun təşəbbüsü ilə polis və axtarış idarələri üçün hazırlanan casuslar çox faydalı olsa da, onların fəaliyyət dairəsi zəhmətkeş təbəqə və avam camaatın çərçivəsindən kənara çıxa bilmirdi. Bu casuslardan yalnız oğruları və kiçik hadisələri kəşf etmək üçün istifadə edilirdi. Dövlət idarələrində baş verən hadisələri, habelə böyük siyasi əməliyyatı kəşf etmək üçün siyasi idarənin «zəkalı» polis zabitləri başqa bir yol tapmışdılar. Bunların müəyyən hissəsini biz on bir illik xatirələrimizdə qeyd edəcəyik.

## SEYİD FƏRHADIN ZİNDANDAN QAÇMASI

Məhbuslar nə üçün qaçmaq fikrinə düşürlər. «Qəsr-Qacar» adlanan zindanın istifadəyə verilməsinin birinci ili idi. Zindanın böyük həyatində hələ də tikinti işləri, ağac basdırılması və sair tədbirlər davam edirdi. Məhbuslar hər gün dəstə-dəstə qala daxilindən çıxarılır, zindan binasının tikinti işlərinə rəhbərlik edən polkovnik Rasixin göstərişi əsasında torpaq işlərində və ayrı çətin işlərdə işlədilirdilər. Verilən xörəyin çox az olması, digər tərəfdən zindan məmurlarının pis rəftarı və çirkin sözləri məhbusları cana gətirmişdi. O vaxt zindan müdiri olan Nasir xan beyni boş və cəfəng bir gənc idi. O, məhbuslara hər çür əzab və əziyyət verməkdən çəkinmirdi. Zindandakı su kəsif və qoxumuş idi. Süd, qatıq və sairəyə adət etmiş kürdlər və lorlar iylənmiş lobya şorbasını və başqa çimçəşdirici xörəkləri yeyə bilmirdilər. Həbsxanada ömürlük məhbusların da sayı gündən-günə artırdı. Onların harayına heç bir kəs etina etmirdi. Bütün məmurlar məhbuslara söyüş verir, onları şallaqla döyürdülər. Zindan müdiri Nasir xan eyni halda cəllad vəzifələrini də yerinə yetirirdi. O, məhbusları döyür, onları təhqir edir, öz bacarıq və qudrətini göstərirdi. Eyni zamanda o, bu təzyiq və kobudluq qarşısında məhbusların müqavimət göstərməməsini, hamının ona qul kimi səcdə etməsini tələb edirdi. Bu tələbi yerinə yetirməyən məhbuslara o, öz əlilə kötək vururdu. Onun təpikləri altında bir çox möhtərəm adamlar əlil olmuşdular. Məsələn, Firuz Nəminiyə o qədər təpik və rezin şallaq vurmuşdular ki, nəhayət, bu cavan ağlını itirmişdi.

Bu mətin və siyası gənc dəli olduqdan sonra, paltarlarını çıxardaraq məhbusların qarşısında lüt dolanırdı.

Zindan məmurları əxlaqi və dini təhqirlərə də əl atırdılar. Lorlar öz uzun saqqallarını çox xoşlayır, onu vuqar, mərdlik və yüksəklik əlaməti hesab edirdilər. Saqqal qoymaq iranlıların qədim ənənələrindən biri kimi yadigar qalmışdır. Həqiqətdə də uca boylu, geniş sinəli, uzun sifətli, incə burunlu lorlara tom saqqal xüsusi bir görkəm verirdi. Qıvraq gənc kimi addımlayan bu uca boylu, həştad yaşlı lor qocalarını görəndə adam ləzzət alırdı. Onlar uzun, ağ saqqalları ilə zindanın həyatində dolananda xoşagəlim bir mənzərə yaradırdılar.

Əliallahi kurdləri isə öz bığlarına böyük əlaqə bəsləyirdilər. Onlar bığlarının qırxılmasını kafirlik hesab edirdilər. Günlərin bir günündə nayib Nasir xan öz qüdrət və səltənətini nümayiş etdirmək üçün hamının saqqal, bığ və başının ülgüc ilə qırxdırılması haqqında göstəriş vermişdi. Dəlləklər məhbusların bir çoxunun qaşlarını da qırxmışdılar. Belə bir hərəkətə dözmək olmazdı. Qocalar utandıqlarından öz otaqlarından çıxa bilmirdilər. Əliallahilər başlarını aşağı salır, özlərini ən ağır təhqir olunmuş vəziyyətdə hesab edirdilər. Həyat və bəzəkdən yalnız başın tükünü saxlamış gənclər onun qırxılması ilə sanki şəxsiyyətlərini itirib,

kişiliyi əldən vermişdilər.

Bu tədbir, mərdümazarlığın və sarsaqlığın demək olar ki, son nöqtəsi hesab olunurdu. Sonralar faşist Almaniyasına casusluq üstündə tutulmuş polis zabiti Əşrəfi o günlərdə zindanın rəisi idi. O, məhbusların ahnaləsini eşitmirdi. Onların etirazlarına əhəmiyyət vermir, ərizələrini oxumurdu. Nəticədə məhbusların qəzəbi gündən-günə artırdı. Hər adam öz növbəsində hazır olmuşdu ki, canını qurban vermək bahasına olsa belə, intiqam alsın. Bütün məhbuslar ölümü, belə biyabırçı həyatdan daha üstün hesab edirdilər. Zindanın daxili dəmir kürəsi kimi qaynayırdı. Hamı işarə gözləyir, fürsət axtarırdı. Onlara müəyyən adamın rəhbərliyi lazım idi. Bu zaman yalnız Seyid Fərhad öz rəşadəti, imanı və düzgünlüyünə görə hamının etimadını qazana bilmişdi.

Seyid Fərhad zülm və təzyiq əleyhinə mübarizədə öz imtahanını vermişdi. O, öz abır və namusunu qorumaq üçün bir neçə ay müddətində dövlət ilə təkcanına vuruşmuş, jandarm və silahlı dövlət məmurlarını cana gətirmişdi. O, namusuna əl uzatmış yuxarı rütbəli bir şəxsi layiqincə cəzalandırmışdı. Sonra isə acizlik göstərməmiş və təslim olmamışdı. Yalnız xəyanət və namərdliklə onu aldadaraq Tehrana gətirib sonra alçaqcasına onu həbs etmişdilər. Seyid Fərhad zindanda olduğu müddətdə bütün məhbusların diqqətini özünə cəlb etmişdi. O, çox danışmazdı. Təzahürdən, bir-birinin ardınca danışmaqdan, yalançılıqdan acığı gəlirdi. Bütün məhbuslar onu cavanmərd, dəyanətli, düz danışan və mətanətli bir adam kimi tanımışdılar. O, həmişə çalışırdı ki, təzahür etməsin. Məhbuslar daxilində rəqabət hissi törətməsin. O, yaxşı bilirdi ki, xəyanətkar məmurlar adi insanların namusunu tapdalamış şəxslərə himayət göstərən, onları müdafiə edən ünsürlər heç də sadəliklə onun yaxasından əl çəkməyəcəklər. O, zindanın dəmir qapılarından bir daha xaric ola bilməyəcəyini hiss etmişdi. Ona görə də ilk gündən etibarən qaçmaq fikrinə düşmüşdü. Məhz bununla əlaqədar olaraq qaçmaq üçün vasitələr axtarmaqdan başqa ayrı bir fikir etmirdi. Bu haqda dəfələrlə plan çəkmişdi. Lakin onların həyata keçirilməsinin mümkün olmadığını sonralar başa düşmüşdü. Nəhayət belə bir fikrə gəlmişdi ki, başqa məhbusların yardımı olmadan, təklikdə Qəsr zindanından qaçmaq mümkün olası iş deyil.

Zindan müdirinin kobud rəftarı, xüsusilə məhbusların saqqal, bığ və başlarını qırxdırmaq, onu daxilən həyəcanlandırmış idi. Ona görə ki, şahın qarşısında əyilməmiş bir başı, zor ilə aşağı əyib tükünü qırxmışdılar. Seyid Fərhad dəlləyin ülgücü altında olarkən son qərara gəlmişdi. Məhz həmin gün o. son planını məhbus kürdlərin və lorların böyükləri ilə müzakirə etmişdi. Bu planın hamının tərəfindən rəğbətlə qarşılanacağına baxmayaraq,. o, ehtiyatını yenə də əldən verməyib çalışmışdı ki, həmin məsələ bir neçə nəfər adamın arasından kənara çıxmasın. Hətta, o vaxt sayı çox az olan siyasi məhbuslara da bu haqda heç bir məlumat verməmişdi. Bu, müəyyən qədər düzgün bir hərəkət idi. Ona görə ki, sonralar həmin məhbusların daxilində təhlükəli adamların necə deyərlər, oğru ilə şərik və karvan ilə yoldaşlıq edən ünsürlərin olması aşkara çıxdı.

Seyid Fərhadın planı çox sadə və əməli bir plan idi. Məhbusları hər gün tikinti işlərinə cəlb etmək, ağır işlərdə işlətmək məqsədilə böyük həyətə gətirirdilər. Bu həyətin darvazaları çox vaxt kərpic, əhəng və sair tikinti materialları gətirən ərəbələrin üzünə açılırdı. Qaravulxana və darvazanın yanında iki nəfər silahlı polis keşik çəkirdi. Keşikçilər üçün sursat saxlanılan anbarın qapısı isə həmişə açıq olurdu. Bu qaravulxana zindanın birinci dalanında, böyük dəhlizin iki darvaza qapısının ortasında, yəni qaçmaq əzmində olan məhbusların yolu üstündə idi. Keşikçi zabitin digər otaqda başı qarışıq olurdu. Onun darvazaya və anbara əli çatmırdı. Qaçmaq fikrində olan məhbuslar keşikçi polislərin bacarığını da öyrənmişdilər. Onlar bu iş üçün elə bir gün seçmişdilər ki, digər məhbuslar üçün böyük məsuliyyət törənməsin. Qaçmaq əzmində olan məhbusların hər hansının nə iş görəcəyi qabaqcadan müəyyən edilmişdi. Bu vəzifələr qaçmağa başlayan zaman onlara bildirilməli idi. Qaçmaq planından və həmin planın həyata keçiriləcəyi gündən yalnız Seyid

Fərhad və onun iki nəfər yaxın yoldaşından başqa, heç kəsin xəbəri yox idi.

Nəhayət, müəyyən olunmuş gün gəlib çatdı. Hər adamın nə edəcəyi müəyyənləşdirildi. Zindan çox səssiz və sakit görünsə də vaxt yaxınlaşdıqca ürəklər döyünür, qanlar coşurdu. Adamların daxili aləmi təşvişə düşürdü. Hər kəs bir cür fikirləşirdi. Azadlıq eşqi bütün ürəklərə təkan vermişdi. Bir çoxlarının əli titrəyirdi. Qorxu, ümid və minlərlə digər hisslər bütün zindan mühitini burümüşdü.

Hər kəs ayrılıqda səssiz-sədasız, ciddi ehtiyatla özünü azad etmək üçün qaçmağa hazırlaşırdı. heç kəs öz qərarını hətta qardaşı və atasına belə deyə bilməzdi. O, hətta söz və ya işarə ilə yoldaşlarla vidalaşmalı, gündəlik işini olduğu qaydada davam etdirməli idi. Buna baxmayaraq hər bir adam özü üçün lazım olan şeylərinn götürmüşdü.

Hər kəs onun təklikdə qaçacağını və başqalarının qaçmasına yardım göstərə bilməməsi üçün təəssüflənirdi. Bu həyəcan və intizar dövrü cəmi bir neçə dəqiqə davam etdi. Polislər qapını açıb məhbusları dəstə-dəstə böyük həyətə buraxdılar. Keçmiş qayda üzrə, məmurlardan hər biri bir neçə nəfər məhbusu təhvil aldı. Beləliklə də gündəlik iş başlandı.

Mart ayının axırları idi. hava yaxşı idi. Zindan həyətindəki arxların qırağında nanə bitkiləri torpağı deşib, öz başlarını qaldıraraq ac məhbuslara göz qırpırdılar. Lakin keçmiş günlərdən fərqli olaraq,, bu gün aclıq heç kəsin yadına düşmür, hətta bitkilərə də etina olunmurdu. Günəş dağın arxasından bir süngü boyu qədər yuxarı qalxmışdı. O da öz ılıq şüaları ilə məhbusların həyəcanlı ruhunu oxşamaq istəyirdi. Lakin yazıq məhbusların öz təhlükəli qərarlarını həyata keçirməkdən başqa heç bir fikirləri yox idi. Onlar ətrafdakı şeylərə belə baxmırdılar. hətta, başqa vaxtlarda onların ən yaxşı dostu, yoldaşı sayılan Forruxi tərəfindən «çılpaq olduqda məni daha da isindirir, heç bir dost günəş şüaları qədər mehriban deyil» misrası ilə mədh edilən günəş şüalarına da etina etmirdilər... Hamı titrəyən əllərlə gündəlik işi həyata keçirir, hamı işarə gözləyirdi.

Nəhayət, ərəbələr gəlib çatdı. Böyük darvaza qapılarının hər ikisi açıldı. Gözətçilik vəzifəsini ifa edən Həsən Qümi siqnal əlaməti olan uca səslə müəyyən edilmiş vaxtın gəlib çatdığını məhbuslara bildirdi. Bir andan sonra darvaza yanındakı bütün polislərin silahları alındı. Zindanın ən zalım məmurlarından sayılan Həkim Riza xan məhbusların yumruğu altında huşunu itirib yerə sərildi. Keşikçi zabit və sair qoruqçu polislər əlayaqlarını itirdilər. Qaravulxanadakı tüfənglər məhbusların əlinə keçdi. Seyid Fərhadın göstərişinə əsasən məhbusların hər biri müəyyən bir tərəfə qaçmalı idi. Ona görə ki, hamısı birlikdə qaçdıqları təqdirdə onları daha asanlıqla təqib edib yenidən tuta bilərdilər. Xaricdəki polislər nəhayət, əl-ayaq edib məhbusların dalınca qaçaraq atəş açmağa başladılar. Məhbuslar isə icbari surətdə cavab atəşi açdılar. Bir neçə nəfər öldü və yaralandı. Seyid Fərhad və bir neçə nəfər ayrı məhbus istisna olmaq şərti ilə qaçan məhbusların hamısı tutuldu. Bir neçə nəfər isə məcbur olaraq, öz meyli ilə yenidən zindana qayıtdı.

Seyid Fərhadın qaçması ilə əlaqədar zindandakı qayda-qanun daha da ağırlaşdı. İlk növbədə Nasir xanı həbs etdilər. Sonra isə onu şəhərdəki polis idarələrindən birinə göndərdilər. Zindan rəisini də işdən çıxarıb onun yerinə Muxtari dövrünün məşhur cəlladı polkovnik Rasixi təyin etdilər. Sərtipzadə zindanın müdiri oldu. Böyük həyətdə məhbusların işlədilməsi müvəqqəti olaraq ləğv edildi. Təcili məhkəmə başlandı. Sonra zindanın həyətində bir neçə nəfəri hamının gözu qarşısında güllələdilər. Bəzi məhbusların zindanda saxlanılma müddətini bir-iki il artırdılar. Yenidən zorakıçılıq, şallaq ilə kötək vurmaq geniş surətdə tətbiq olundu. Zindan tam mənasında yanar bir cəhənnəmə çevrildi.

# SEYİD FƏRHADIN YERİNƏ KİMLƏRİ HƏBS ETDİLƏR

Seyid Fərhad müəyyən müddət qaçaq idi. Kaşan və İsfahan ətrafında onu tanıyan adamları tutub zindana göndərdilər. Hətta, yolüstü şübhələndikləri adamları da tutub zindana saldılar. Seyid Fərhad ölənədək onları buraxmadılar. Seyid Forhadın həştad yaşlı atasını və onyaşlı oğlunu da girov kimi tutub Qəsr zindanına gətirdilər. İstintaq zamanı bu zarafatcıl qocanın verdiyi cavablar çox məzəli və dişsındırıcı olmuşdu. Müstəntiq uzun-uzadı sorğu-sualdan sonra ona demişdi: Əmi, ayrı bir çarə yoxdur. Əlahəzrət Seyid Fərhadı səndən istəyir. Bu hazırcavab kişi drhal belə demişdi: Aydındır ki, Əlahəzrət bu məsələdə çox təkid edir. Siz isə Seyid Fərhadı məndən istəyirsiniz və yaxşı bilirsiniz ki, mənim əlim ona çatmır. Beləliklə, yaxşı olar əlahəzrətə deyəsiniz o, mənim həbsxanada evlənməyim haqqında göstəriş versin. Yalnız bu şərt ilə mən doqquz aydan sonra sizin üçün ayrı bir Seyid Fərhad təhvil verə bilərəm. Bundan başqa bir yol mənim ağlıma gəlməyir.

Gözümün qarşısında can vermiş ayrı bir qocanın vəziyyəti daha kədərli idi. O deyirdi: «Dəmavənddən şəhərə gəlirdim. Bayramqabağı uşaqlara bir az yemiş və sair şeylər almaq fikrində idim. Dünyanın heç yerindən xəbərim yox idi. Birdən adamların qaçmasını gördüm. Ayrı bir dəstə onların ardınca qaçırdı. Qaçanlar uzaqlaşıb getdilər. Onların arxasınca gələnlər isə mənə çatdıqda söyüş verməyə başladılar. Nəhayət, məni çoxlu döydükdən sonra əl-ayağımı bağlayıb buraya gətirdilər. Axı, mənim dörd uşağım var. İndi onların gözü yolda qalmışdı. Onlar mənim harada olduğumu bilmirlər. Azyaşlı uşaqdırlar. Əllərindən bir iş gəlməz. Arvadım isə əlildir. O, yerindən hərəkət edə bilmir.

Bu günahsız kişi neçə gün keçdikdən sonra xəstələndi, çox ağır bir şəraitdə can verdi.

# TERRORÇULARIN GİZLİ TƏŞKİLATI

## MUSƏVİ VƏ ONUN DOSTLARI

Mirzə Riza Kirmani, Heydər Əmoğlu, Abbas ağa və Şahbazinin tarixdə yüksək məqamları olsa da, həyat terrorçuluğun qələt bir hərəkət xətti olduğunu dəfələrlə sübut etmişdir. Çünki bu metod nəticəsində irtica daha da güclənir, inqilabçılar isə məhv olub aradan gedirlər. Aydındır ki, bir və ya neçə nəfər başçını öldürməklə heç bir ölkədə hakimiyyət üsulunu, cəmiyyətin ictimai əsaslarını dəyişdirmək mümkün deyil.

Siyasi məqsədlər tamamilə başqadır. Bu məqsədləri cəmiyyətin özü, geniş xalq təşkilatı həyata keçirməlidir. Tək-tək adamların və yaxud məhdud dəstələrin əməliyyatı nə qədər hissiyyat və fədakarlıqla həyata keçirilərsə belə, nəhayət o fərdi və məhdud olacaqdır. Lakin təəssüflər olsun ki, diktatorluğun gündən-günə şiddətlənməsi sağlam olmayan beyinlərin və zəif əsəblərin məhsulu olan bu qələt fikri xalq içərisində daha geniş yayırdı. Fədakar gənclərin bir çoxu terrorçuluqdan başqa ayrı bir yol və mübarizə üsulu tapa bilmirdilər. Hamı belə xəyal edirdi ki, şəxsən diktator aradan aparıldığı təqdirdə azadlıq yolu açılacaq, nəticədə cəmiyyətin səadət dövrü başlanacaq və millət öz müqəddəratını təyin etməkdə azad olacaqdır.

Hələ bunu demirik ki, terrorçuluqda necə deyərlər, «Pişiyin boynuna zinqrovu asa bilən siçanın» tapılması özü bir problem idi. Çox vaxt bütün müddəalar söz çərçivəsindən kənara çıxmırdı. Lakin hökumət, polis, siyasi idarə, hərbi tribunal, eləcə də Dərgahi, Ayrum, Muxtari, Xələtbəri və onların əlaltıları bu barədə gedən danışıqlardan öz vaxtında tam məharətlə istifadə edərək, ölkənin yaxşı, pak və təmiz adamlarının əksəriyyətini həmin ittiham ilə töhmətləndirib, onları öz vəzifə və rütbələrinin tərəqqi edib yüksəltmək həvəsinə qurban verirdilər. Bununla da Riza xanın şahlıq tarixi səhifələrinə bir çox silinməz, qanlı ləkələr

vururdular. Yaxşı və təmiz adamlar lüğəti işlətməyimiz şübhə törətməməlidir. Riza xan dövründə bütün azadixahları terrorçuluq ittihamı ilə tutub Qəsr zindanına gətirdilər. Bəlkə də onların əksəriyyəti belə terrorçuluq düşüncəsi və fikrindən tamamilə xəbərsiz idi. Burada həbs edilmiş adamların müqəddəratı polis idarələrinin meylindən asılı vəziyyətdə idi.

Mən heç də, bir adamı təhqir etmək, yaxud şəxslərin siyasi və inqilabi mövqelərini alçatmaq istəmirəm. Əksinə olaraq həqiqəti mümkün qədər, olduğu kimi sadə və bəzək-düzək yazmağa, onu-bunu incitməkdən çəkinməyə çalışıram. Xüsusilə, şəxsən məhəbbət və ya kin bəslədiyim bir çox adamların adını qeyd etməkdən çəkinəcəyəm. Bu hal, şərh edəcəyim mətləbdən asılı olaraq, bəzilərinin adını qeyd etmək məcburiyyəti qarşıya çıxan zaman, baş verə bilər. Şübhəsiz, bu iş məhz mövzunu aydınlaşdırmaq üçün, misal göstərmək, şərh etmək və təsəvvür yaratmaq xatirinə olacaqdır.

Nə etmək olar. Bəzən adam məcbur olur ki, bir sıra sözləri demək və yazmaqdan çəkinməsin. Məsələn, ağayi Əbülqasim Musəviyə şəxsən hörmətim var. İyirmi neçə illik hadisələr, müxtəlif ictimai mərhələlərdə bizi bir-birimizə yaxınlaşdırıb, uzun müddət ərzində bu və yaxud digər hallarda dostluğumuz pozulmamışdır. Buna baxmayaraq Musəvinin yuxarıda qeyd etdiyim terrorçuluq ittihamı əsasında tutulmuş yoldaşları haqqında bir neçə söz yazmağa məcburam.

Terrorçuluq ittihamı özlüyünə cənab Musəvinin şəxsiyyətinə yapışa bilərdi. Çünki onun otuz ildən artıq azadixahlıq stajı var idi. Həmin ad ilə də şöhrət qazanmışdı. Şah, şəxsən onu tanıyırdı. Cümhuriyyət hadisələrində onu hacı Rəhim ağa Qəzvininin evində görmüşdü. Bundan başqa bir neçə il əvvəl həmin ittiham ilə onu tutub Rusiyaya sürgün etmişdilər. Hər halda terrorçuluq və ya hərbi məhkəmə işçilərinin dili ilə desək, şah əleyhinə qəsd düzəltmək, onun xarici görünüşünə belə uyğun gəlirdi. Polis idarəsi Musəvinin azad yaşamasını istəmədiyinə görə həmin ittihamı ona nisbət verdisə də, lakin bu ittihamını sübut edə bilmədi. Sübuta ehtiyac da olmamışdı. Şəhrivər hadisəsindən* sonra ağayi Musəviyə verilmiş hökmlə göstərilirdi ki, hərbi tribunal heç bir əsaslı sübut olmadan ona on illik həbs cəzası kəsmişdir. Bu sənəd yaltaqlar tərəfindən (Əsre Novine Ənuşirəvani) adlandırılan Riza xan hakimiyyəti dövrundəki «ədalətli» hökmlərin bir nümunəsidir.

Hər halda polis idarəsi istəmirdi ki, Musəvi azad olaraq burada-orada oturub bəzi söhbətlər etsin. «Ə»-nin boş və yalan sözləri polis əlində yaxşı bir bəhanə idi. Bu sözlərdən dərhal istifadə edərək Musəvi üçün dəbdəbəli və təmtəraqlı məhkəmə işi düzəltdilər. Halbu ki, «doktor M. C.» Qafqazini və «Ə»-ni polis özü çox yaxşı tanıyır və yaxşı bilirdi ki, Musəvi hər kim də olsa adam öldürən deyildir. Lakin vaxtı ilə «Ə»-ni hədələyərək ondan pul almaq istəyən Qulaməli Əhərinin qərəzli raportunu sənəd və əsas kimi qəbul edib birincini məcbur etdi ki, ikincinin yalan və puç sözlərini təsdiq etsin.

Musəvi neçə illər boyu təklifsiz saxlanıldıqdan sonra zahirdə şaha qəsd düzəltmək kimi gülünc bir ittihamla, məhkəmədə isə naməlum bir töhmətlə on illik ağır və yaxud mücərrəd həbs cəzasına məhkum edildi. Polis yalnız «Ə»-nin boş sözləri əsasında belə bir iddia irəli sürürdü ki, Cəlaliyyə** meydanını guya hamarlamaqda iştirak edən Musəvi bir gün doktor «M»-ə demişdir: «Şah Cəlaliyyə meydanına baş çəkməyə gəlmişdi. Mən orada onun işini bitirə bilərdim. Doktor «M» isə bu işin nə üçün əncam verilmədiyini ondan sual etmpşdi...»

Musəvi və onun dostları əleyhinə yuxarıda qeyd olunanlardan başqa heç bir dəlil və sübut göstərilmirdi. Zindanda bizə sübut oldu ki, «Ə»-nin sözlərindən mində biri də doğru deyildir.

«Ə» iddia edirdi ki, guya o İranda və xaricdə bir çox böyük işlər görüb, ən zirək terrorçularla birlikdə

işləmişdir. O deyirdi: «Bir gün səfarətxanaya getdik. Orada səfirin arxasındakı seyfdən gizli sənədləri götürməli idik. İş başa çatdıqdan sonra birdən-birə keşikçilər başımızın üstünü aldılar. Dostum otaqdan bayıra qaça bilmədi və tutuldu. Mən isə həyətdə dayanmışdım. O, dedi, məni diri ələ keçirsələr tanıyıb, bununla da sizin hamınızı tuta bilərlər. Başımı pəncərədən bayıra çıxarıram, sən onu kəs apar. Mən də belə etdim və bununla heç birimiz ələ keçmədik». Belə bir gopçu adamın sözü ilə Musəvini on il həbs cəzasına məhkum etdilər.

* Şəhrivər hadisəsi 1941-ci ilin avqust ayında, müttəfiq qoşunların İrana daxil olması və Riza xanın şahlıqdan istefa verib ölkədən qaçması ilə əlaqədar vəziyyətin anlayışıdır.

** Cəlaliyyə meydanı Tehranın şimal qərbində yerləşir. Bu meydanda hökumət tərəfindən rəsmi keçidlər təşkil olunur.

## CAHANSUZİ VƏ BAŞQA MÜTTƏHİMLƏR

Yazıq Cahansuzi də demək olar ki, boş söz üstündə məhv oldu. O, istintaq zamanı demişdi: Bir gün şah Mədrəsəyə, yaxud haraya isə gəlmişdi. Mən ona yaxın idim. Eyni halda tüfəngim də dolu idi. Düşündüm ki, iradə etdiyim təqdirdə bir güllə ilə onun işini bitirə bilim.

Bu qəbil ittihamların, əsası olmayan puç məhkumiyyətlərin, miqyası çox geniş idi. Hətta polis idarəsində şübhəli adamların ayrıca geniş siyahısı tərtib olunmuşdu. Şah səfərə çıxdıqda və ya mühüm hadisə baş verən zaman onların hamısını danışıqsız tutub zindana gətirirdilər. Hətta, indiki şahın* toyunda belə, bir çoxlarını ehtiyat üzündən zindana salmışdılar. Şahın səfərə çıxmasından bir neçə gün əvvəl qəsəbələrdə, kəndlərdə, hətta, yolüstü çayxanalarda nisbətən tanınmış adamları həbs edir və bununla da onun «təntənəli» istiqbalı üçün yol açırdılar.

Təsəvvür edirəm ki, keçmiş şahın canını qorumaq üçün siyasi idarə tərəfindən görülən cürbəcür tədbirlər zindandan xaricdəki adamlara daha yaxşı məlum idi. Biz yalnız eşidirdik ki, belə hallarda şəhərin müəyyən küçə və xiyabanlarında eybəcər qayda-qanunlar qoyulur. Ağac əkmək və sairə bu kimi işlər üçün yeni-yeni göstərişlər verilirdi.

Ümumiyyətlə, demək olar ki, polis idarəsi və hərbi məhkəmə məmurları, sərvət və yüksək vəzifə əldə edərək öz xüsusi yaşayışına son dərəcə həvəskar olan şahın nəzərində, xalqı xortdan qayırıb və bu yol ilə özləri üçün çox faydalı dükan açmışdılar.

* Məqsəd Rizaxanın oğlu Məhəmməd Rizadır.

## TERRORÇULARIN MƏRMÜZ TƏŞKİLATI
### ERMƏNİ YUSİF VƏ ONUN YOLDAŞLARI

Artıq kədərləndirici ümumi halları bir kənara qoyub bir qədər də məmuz qatillərin macərasından yazaq.

Fuladinin dostlarından başqa zindanda daha dörd siyasi məhbus diqqətimizi cəlb edirdi. Bu adamlar təxminən yeddi il zindanda saxlanıldığına baxmayaraq, hələ də onların təklifləri müəyyən edilməmişdi. Bu adamların başçısı və rəhbəri erməni Yusif adı ilə məşhur olmuş Yusif xan Aşuri idi... Tarixi hadisələr haqqında verdiyi məlumatlara nisbət o daha gənc görünürdü. Zirək və çevik adama oxşayırdı. Fars dilində

yaxşı danışardı. Erməni Yusif qaraşın, arıq və orta boylu bir adam idi. Danışığından görünürdü ki, kifayət qədər təhsil almamışdır.

Erməni Yusifdən başqa Əkbərov adlı bir şəxsin də əcayib heykəli zindana gətirilən yeni adamların diqqətini cəlb edirdi. Güdə boylu, enli kürəkli bu adam "Cəngəl hərəkatının ilk dövrü mücahidləri kimi saç-saqqalını əsla qırxdırmayır və özünü mərhum Kiçik xana bənzətməyə çalışırdı. Bir halda ki, mərhum Mirzə, Əkbərovdan daha boyun-buxunlu, daha gənc, daha sağlam idi. Mirzə Kiçik xanın saç-saqqalında bir dana da ağ tük yox idi. Əkbərov isə solğun və düşgün idi. Saç-saqqalında ağ tüklər üstünlük təşkil edirdi.

Mirzə Kiçik xanın baxışları dərin və cazibədar idi. Əkbərovun gözlərində isə qabiliyyəti andıran kiçik bir parıltı belə yox idi. Mirzə mətanətli, vüqarlı və dindar idi. Əkbərov isə cırtqoz və yüngül görünürdü. Bu bədbəxtlik bəlkə zindan təzyiqinin nəticəsində törənmişdə. O deyirdi: «Mərhum Mirzə ilə yaxın qohumluq münasibətim var. Cəngəldə özüm üçün bir adam idim. Çoxlu mülk və sərvətim var idi».

Zindanda isə belə sözlərə heç kəs qulaq asmırdı. Orada aristokratlıq və böyüklük yalnız görüşə gələnlərin məhbuslar üçün gətirdikləri xörəklər ilə ölçülürdü. Necə deyərlər, adamların hörməti zindana gətirilən xörək qazançalarının böyüklüyü ilə ölçülürdü. Buna görə də, bəzi əyanlar və tayfa başçıları yalnız qazançaların böyüklüyü ilə fəxr edir və çalışırdılar ki, boş olsa belə, zindana böyük qazan gətirsinlər. Bu cəhətdən Əkbərovun dediklərini məhbuslar uydurma hesab edir, onun üçün heç bir mövqe və vəzifə qail olmurdular.

Görünür, o, Cəngəldə də o qədər adlı-sanlı adam olmamışdı. Bəlkə də sadə bir tüfəngçi olmuşdu. Təsadüfən o, ilk siyasi məhbus idi ki, deyildiyinə görə, zindan məmurları ilə yaxından əlaqə saxlayıb onlar üçün xəbərçilik edirdi. O, bizim koridorda yaşamadığı üçün mən bu iddiaları təsdiq edə bilmərəm. Lakin qeyd etməlnyəm ki, o, üst-üstə içiboş adama oxşayırdı.

Firuz Nəmini bu dəstənin ən rəşadətli, eyni halda ən yazıq üzvlərindən biri hesab olunmalıdır. Bu himmətli və rəşədətli gənç altı il həbsdə qaldıqdan sonra zindan rəisi məşhur Nasir xanın kötəkləri, qamçıları və təpikləri altında dəli olmuşdu. O, papaqsız gəzir, dilənir, mənasız sözlər danışır, xüsusilə erməni Yusifi lağa qoyurdu. İnsafla desək, Yusif mümkün qədər ona kömək və xidmət edirdi. Lakin o, heç də yaxşılığı və pisliyi başa düşməyib hətta, adamları belə tanıya bilmirdi. O deyirdi: «Bu gün komitə bizə qırqavul-plov göndərmişdi. Bir mavzer markalı tapança, bir dəst paltar və bir yaxşı avtomaşın da qapının ağzında hazırdır. Komitə istəyir ki, tezliklə mən buradan çıxıb gedim. Lakin Nasir xan mane olur. Söz veriblər ki, axşam yanıma gəlsinlər. Tapşırmışam bir yaxşı qılınc da mənim üçün gətirsinlər».

Onlardan dördüncüsü Əli Bürucerdi idi. Əkbərov kimi, o da zindanda yaxşı nüfüz və şehrət qazanmamışdı. Zahiri görünüşündən alverçi və bazar adamına oxşayırdı. Üst-üstə məhbusların əksəriyyəti Yusifin dəstəsinə yaxşı münasibət bəsləmirdilər.

Zindanda adamların pozğunlaşması üçün geniş və əlverişli imkan var idi. Onların bir çoxu çarəsizliqdan təslim olaraq zindan məmurlarının göstərişi əsasında xəbərçiliyə və casusluğa başlayırdılar. Bəziləri isə öz mırdar təbiətləri üzündən bu kimi alçaq işlərə boyun qoyurdular. Məsələn, məşhur qatil hacı Məhəmməd Gülpayqani casusluq etdiyi üçün gündə bir qıran pul alardı. Siyasi idarənin müfəttişi saxta sənədlər düzəldən Vərşov xanın qardaşı İbrahim xan artıq nahar, şam almaq və zindan daxilində azad gəzmək xatirinə polisə xidmət edərdi. Bəziləri isə daha alçaqlıq göstərərək süpürgəçilik vəzifəsi əldə etmək və sair bu kimi işlər xatirinə polkovnik Rasex və yaxud Niyruməndin bütün göstərişlərini həyata keçirirdilər.

Müxtəlif şayilərə baxmayaraq Yusifin və onun dostlarının casus olmaları haqqında mənim əlimdə heç bir qəti dəlil yoxdur. Buna görə ki, zindanın darısqal mühiti şiddətli rəqabəq ruhiyyəsi törədirdi. Zindan müdiri

isə məhbuslar arasında qəsdən ikitirəlik salıb istifadə edirdi.

Hər halda bizim zindana gətirildiyimiz vaxt Yusifin xususi bir vəziyyəti var idi. Deyildiyinə görə, o, bir neçə il müddətində keçmiş bir nömrəli həbsxanada saxlanılmışdı. İlk yoxlanışdan sonra orada azad buraxılmış idi. Deyirdilər ki, Yusif hər gün öz adamları ilə görüşə bilirdi. O, hətta öz arvadı ilə həbsxananın otağında görüşürdu. Zindanda olarkən onun bir uşağı da olmuşdu.

Yaxşı yadımda deyil. Deyildiyinə görə, polis idarəsi tərəfikdən ayda on bir ya iyirmi tümən onun arvadına xərclnk də verilirdi. Zindan daxilində gizli surətdə siğar və ya tiryək satmaq demək olar ki, Yusifin inhisarında idi. O, deyirdi ki, gündə heç olmasa üç tumən qazanmalıyam. Polislər onunla hesablaşırdılar. Bütün məhbuslarla yoldaşlıq və dostluq edərdi. Urəyi saf və əliaçıq bir adam idi.

Abbas Kədxudanın dediyinə görə, Yusif zindandan buraxıldıqdan sonra ayda otuz-qırx tümən maaşla polis idarəsində işə qəbul olunub İsfahana göndərilmişdi. Abbas Kədxuda bu məsələdən çox incimişdi. O deyirdi: «Mən özüm ondan daha artıq terrorçuyam. Nahaq yerə ona ayda filan qədər pul verərək İsfahana göndərmişlər...»

Yusif özü isə belə iddia edirdi ki, onu zindandan azad edərək Seyid Fərhadı tapmaq üçün Kaşana göndərdilər. O isə hökumətin planını Seyid Fərhada bildirmiş və əlindən gəldiyi qədər ona kömək və yardım göstərməyə çalışmışdır. Lakin bu, yalnız onun öz sözü idi. Dostlarının bir çoxu bu sözün yüz faiz doğru olmasına inanmırdılar.

Qeyd etdiyimiz kimi, Yusif zirək bir adam idi. Öz dediyinə görə, Yefrem dəstəsinin mücahidlərindən olmuşdu. Cəngəldə də mühüm rol oynamışdı. Mən onunla çoxlu danışdım. Çünki onun hərəkətləri və işləri mənim nəzərimdə çox rəmzli görünürdü. O deyirdi ki, məni dəfələrlə görmüşdür. Mən isə onu harada görməyimi və ya adını belə eşitməyimi yadıma sala bilmirdim. Buna görə də nəyin bahasına olursa-olsun onların işinin gedişi haqqında düzgün məlumat əldə etmək istəyirdim. Lakin dərinə getdikcə məsələnin həlli mənim üçün daha çətin və daha rəmzli olurdu.

O deyirdi ki, Tehrana gəlməzdən əvvəl Rəştdə həbs olundum. Sonra kimin əlilə və necə həbsdən buraxıldığımı özüm də bilmirəm. Bu hadisədən sonra arvadımı götürüb Tehrana gəldim. Burada bir çox tanışlarım var idi. Tehranda müəyyən müddət işsiz qaldım...

Lakin bəzilərinin dediyinə görə, Firuz divanə olmazdan əvvəl bildirmişdi ki, o, Yusif ilə birlikdə Tehranda gecə ovuna çıxır, xüsusilə şəhər ətrafında adamları soyurmuşlar. Deyildiyinə görə, Firuz etiraf etmişdi ki, o zaman onların işi əsas etibarı ilə adam öldürməkdən ibarət olmuşdur. Lakin Yusif özünü daha ciddi göstərir, gördüyu işlərə mücahidlik və azadixahlıq rəngi verməyə çalışırdı.

Mən onların kim olduqlarını müəyyən etməyə çox çalışdım. Lakin bu mümkün olmadı. Təsəvvür edirəm ki, Yusif özü də bunu bilmirdi. Bəlkə də o sirri gizlətməyə çalışırdı...

O, deyirdi... «Biz Qəvaməs-səltənə üçün işləyirdik. Lakin Qsvaməs-səltənə ilə əsla görüşməmişdik. Biz yalnız bir nəfər zabit vasitəsi ilə onunla rabitə saxlayırdıq. Həmin zabit komitənin qərarlarını bizə bildirirdi. Bizim üçün pul və silah gətirirdi. Mən demək olar ki, həmin zabit ilə hər gün görüşüb ondan göstəriş alırdım. Şahın gündəlik işləri haqqında bu zabitin dəqiq məlumatı var idi. Biz onun göstərişi ilə öz vaxtında şahın gələcəyi müəyyən yerlərdə hazır olurduq. Lakin şahın bu işlərdən hansı vasitə ilə xəbər tutub öz vaxtında lazımi ehtiyat tədbirləri görməsi hələ də mənim üçün aydın olmamışdır. Hamının bildiyi kimi, o vaxt şah idarələrə təklikdə baş çəkərdi və özü ilə heç kimi aparmazdı. Komitənin göstərişi ilə biz şahın

gələcəyi yerə getdik, orada təpədən dırnağadək silahlanmış və o tərəf bu tərəfə var-gəl edən qaravullarla rastlaşırdıq. Məsələn, bir gün bizə dedilər ki, şah filan saatda əmniyyə idarəsinə baş çəkməyə gedəcək, siz də o yerdə hazır olmalısınız. Demişdilər ki, şah tək olacaqdır. Lakin həman yerə çatdıqda hər tərəfdə silahlı qaravulların keşik çəkdiyini gördük. Şah özü isə böyük dəstədən ibarət əskərlərin ortasında əmniyyə idarəsinə daxil oldu. Şübhəsiz, belə bir vəziyyətdə biz heç bir iş görə bilməzdik. Ona görə ki, əvvəla, o tək olmadığı təqdirdə bizə iş görməyə icazə verilməmişdi. İkincisi, hədəfə atəş açmaq üçün imkan yox idi. Təxminən dörd beş dəfə bu kimi hadisə qarşıya çıxdı. Biz onların hamısını zabitin vasitəsi ilə komitəyə məlumat verdik...».

Mən çox mayil idim ki, həmin zabitin adının nə olduğunu Yusifdən öyrənim. Lakin o and içərək bildirdi ki, özü də həmin zabitin adını bilmir.

General-.mayor Dərgahinin bu məsələ haqqında qalın məhkəmə işi düzəltməsi və ona bir çox bəzək-düzək verməsinə baxmayaraq, Yusifin dediyindən görünürdü ki, bu iş lap başlanğıcdan etibarən oyunbazlıq olmuşdur. Şahın özü həmin məsələnin bütun cüziyyatından xəbərdar imiş. Kim bilir, bəlkə də qatillər komitəsinin başında şəxsən şah özü dururmuş. Yusif deyirdi: «Şahın məclisə gələcəyi gün bizim üçün son və ən qəti əməl mərhələsi günü hesab edilirdi. Şahın gələcəyi vaxtdan əvvəl biz əlverişli bir yerə toplanıb fürsət gözləyirdik. Qaçmaq, gizlənmək və özümüzu nə vasitə ilə xilas etmək yollarını da hazırlamışdıq... Yenə də deyirdilər ki, o, məclisə tək gələcəkdir. Təsadüfən düz müəyyən olunmuş vaxtda gəlib çıxdı. Belə işlərdə çoxlu təcrübə və cəsarətə malik olduğuma baxmayaraq neçə saniyə tərəddüd etdim. Bütün əzələlərim şiddətlə titrəməyə başladı. İşin əhəmiyyətini nəzərə alaraq dərhal özümü ələ alıb tapançanın dəstəsini əlimdə möhkəm tutdum. Böyük əzmlə bir neçə addım irəli getdim. Firuz isə əsla tərəddüd etmirdi. Bu növ işlər onun üçün bir oyuncaq kimi idi. O, həmişə özü ilə mavzer markalı tapança gəzdirərdi. İşi başa çatdırsaydıq o, həmin silahın köməyi ilə, minlərlə silahlı əskərin mühasirəsindən çıxıb öz canını xilas edə bilərdi. Bu zaman Əkbərov və Əli Burucerdi də yardım üçün başqa bir yerdə fürsət gözləyirdilər...».

Yusif deyirdi: «Məqsədimi həyata keçirmək istədiyim vaxt bizimlə şahın arasında cəmi bir neçə addım fasilə var idi. Mən sağdan, Firuz isə sol tərəfdən onun başını nişana almışdı. Biz atəş açmaq istədikdə, rabitəçimiz olan zabit qəflətən ortalıqda görünərək, bizə aradan çıxmağı işarə etdi. Biz isə onun izi ilə cəmiyyətin içərisindən çıxıb getdik. Zabit bizə dedi: Artıq əməliyyat sona çatmışdır. Sizin vücudunuza da daha ehtiyacımız yoxdur. Gedin öz başınıza çara qılın...».

Yusifin bu sözləri məsələni mənim nəzərimdə daha qaranlıq, daha mərmuz edirdi. Mən onu heç də Yusifin inandığı kimi başa düşməyir və qəbul edə bilmirdim. Yəqin ki, məsələ heç də bu sadəlikdə olmamışdır. Buna görə də mən bir gün zindanda Yusif xana dedim: Aya siz bütün bunların oyun və kələk olduğu barədə heç fikirləşmirsiniz? Bəlkə də polis idarəsinin özü həmin zabiti sizin yanınıza göndərmiş!

O təəcüblə - Nə üçün bu işi görmək istəyirmişlər? - dedi. Polis idarəsinin mənimlə nə kimi düşmənçiliyi ola bilərmiş!!!

Yusif xanın bu cavabları onun, çox çevik olmasına baxmayaraq, siyasi məsələlərdə olduqca sadə və avam olduğunu göstərirdi. Mən ona dedim: «Yusif xan siyasi işlərin hamısı heç də bir üzlü və sadə olmur. Məsələn, çox ehtimal ki, polis idarəsi bu yol ilə böyük siyasi bir maneəni və əngəli ittiham edib aradan aparmaq istəyirmiş. Bəlkə də polis hakim dairəyə mənsub şəxslərdən birini yıxmaq üçün ona kələk düzəltməyə çalışırmış.

«Təcrübəli» terrorçu bir qədər fikirləşdikdən sonra dedi: «Baş çıxara bilmirəm, Hər işi bilsəm də, işin bu

cəhətini dərk etməmişdim. Qeyd olunan zabitdən başqa bizim heç kəs ilə əlaqəmiz olmamışdı. Polis idarəsində isə bizdən Qavamos-səltənənin adını soruşdular. Biz isə onun haqqında yalnız zabitdən eşitdiyimiz sözləri bilirdik. Bəlkə də sizin zənniniz doğrudur. Dediyiniz kimi, nə bilmək olar! Siyasi işlər heç də sadə olmur.

Mən Yusif ilə qəsdən bir neçə dəfə görüşüb hər dəfə ondan müəyyən məsələləri öyrənməyə çalışırdım ki, bəlkə də məsələnin ucunu bir yerə aparıb çatdıra bilim. Lakin təəssüflər olsui ki, hələ də bu məsələ mənim üçün qaranlıq bir şəkildə qalmaqdadır.

Yusif özü əxlaq cəhətcə sadə olduğuna baxmayaraq, mərmuz bir adam idi. Hər yerdən xəbər verir, hamını tanıyırdı. Bütün hadisələrə əlini uzatmış, hər hansı macəraya az-çox qarışmışdı. Xüsusilə zindandan buraxılacağı son günlərdə çox mərmuz görünürdü. Rəştdə nəyin üstündə tutulması, naməlum zabitin hansı vasitə ilə onu ələ keçirməsi, nə üçün terrorçuluğa məmur edilməsi məlum deyildi.

Yusifin öz dediklərindən də bir şey başa düşmək olmurdu. Firuz Nəmini isə divanə olmuşdu. Digər yoldaşları isə Yusifdən başqa ayrı adamla rabitədə olmamışdılar. Onlar yalnız Yusifin göstərişi ilə işləmiş, işin kökündən xəbərdar olmamışdılar. Buna görə də onlardan heç bir şey öyrənmək olmurdu.

Bütün bunlara əsasən qeyd olunan terrorçuların təşkilatı mənim üçün mərmuz qalmışdı.

* * *

Bir qayda olaraq məclis dövrlərindən hər birini qurtarmasına bir neçə ay qalmış məclis deputatları özlərinə təkan verib çalışırdılar ki, hər hansı vasitə ilə olursa-olsun xalqın etimadını cəlb edərək, yeni seçkilər zamanı özləri üçun əlverişli zəmin və mühit hazırlasınlar. Hazırda olduğu kimi Riza şah dövründə də seçkilər zamanı xalqın iradəsinnn təsiri yox idi. Digər tərəfdən kütlələr, məclisə və onun nümayəndələrinə etimad bəsləməyərək, bu dəsgahı diktatorun iyrənc məqsədlərini həyata keçirmək, onun gündən-günə artan iştəhasını təmin etmək üçün vasitədən başqa bir şey olmadığını dərk etmişdilər. Bütün bunlara baxmayaraq 1930-cu ilin yay fəslində dövrəsi başa çatmış məclisin sadəlövh deputatlarından bir neçəsi öz şanslarını yenidən sınaqdan keçirmək fikrinə düşdülər. Mərhum Fərruxi də onların içərisində idi. O iki il sükut etdikdən sonra yeindən fəaliyyətə başlayaraq, kiçik bir fraksiya yaradıb, bir sıra ciddi tədbirlərə əl atmışdı. Fərruxi deyirdi: Msələ iki haldan xaric deyil. Əgər müvəffəqiyyət bizimlə olarsa məclisə deputat seçilib fürsətin yetişməsini gözləyərik. Əks təqdirdə isə xalq, bizim şahın əlində alət olmadığımızı, onun məqsədlərinin həyata keçirilməsində iştirak etmədiyimizi başa düşəcəkdir.

Biz Fərruxinin fəlsəfə və əqidəsi haqqında danışmaq istəmirik. Onun sözlərinin bir çoxu eybəcər görünür. Çünki Fərruxinin özünə məxsus prinsipləri var idi. Zindanın özündə belə bəzən heç bir məntiqə uyğun gəlməyən sözlər danışardı. Lakin o hər halda Fərruxi idi. Qorxmaz idi. Cəsarətli və rəşadətli idi. İstədiyi sözləri deyib, bacardığı işləri görərdi. Bir çox hallarda öz işlərində müvəffəqiyyət də əldə edərdi

Fərruxinin deputatlığının sonu dediyimiz kimi, 1930-cu il yay fəslinin əvvəllərinə təsadüf etmişdi. Həman günlərdə o, Dərbənddə* yaşayırdı. Bu zaman Fərruxi istəyirdi ki, öz dili ilə desək, bir neçə saatlıq şairanə hissləri ilə birlikdə təbiətin qoynunda sakit otursun. Onun nəşr etdirdiyi «Tufan» qəzeti isə həm tətil, həm də qadağan edilmişdi. Eyni zamanda şəxsi evi sayılan həmin qəzet idarəsinin mülkiyyəti üstündə... Bəxtiyari ilə çəkişirdi. Yayda Baharıstanda ** yaşamağı da özü üçün əlverişli hesab etmirdi. Riza xan üsuli-idarəsi get-gedə kök salaraq adi və təbii bir şəklə düşmüşdü. Senzura tam kəskinliyi ilə hökmranlıq edirdi. Polis idarəsi öz nüfuz dairəsini gündən-günə genişləndirərək hərbi nazirliyi, Bağeşahı *** və diktatorluğun ilk dövrünə

mənsub digər müəssisələri öz kölgəsi altına almışdı.

Yarımpolis və saray məddahı olan bir neçə qəzet istisna olmaq şərti ilə heç bir qəzet və ya bülleten nəşr olunmur və oluna da bilməzdi.

Deputatlar gülünc təqlidçilər kimi Davərin **** qondarma qanunlarını mexaniki surətdə təsdiq edir, bayram günlərində püşk atmaq yolu ilə əlahəzrətin hüzuruna çatır və onun söyüşlərini və mənasız sözlərini tam iftixarla eşitməyə hazır olurdular. Xülasə, ictimai həyat ölmüş və aradan getmişdi. Siyasi idarə məmurlarının sözü ilə desək, heç kəs, hətta müsbət mənada belə rəy söyləyə bilməzdi. O zaman deyirdilər ki, ölkənin öz sahibi vardır. Yalnız o özü ölkənin vəziyyəti və rəiyyətləri haqqında fikirləşməli və rəy söyləməlidir. Bu haqda heç kəs füzulluq etməməlidir.

Burada bir hadisəni xatırlatmaq istəyirəm. Həbsə alındığım vaxtdan yeddi il sonra aclıq elanı ilə əlaqədar olaraq bir gün zindan rəisinin müavini yanıma gəldi. Bu qoca isfahanlı dəlil, nəsihət verməyi, uzun-uzadı pıçıldamağı çox xoşlayırdı. Söhbətimiz bir saatdan artıq davam etdi. O, nə yol ilə olursa-olsun məni razı salıb, xörək yedirtməyə çalışırdı.O.öz vəzifəsindən bir qədər kənara çıxaraq gizli halda yavaş-yavaş mövcud rejimin, polis idarəsinin xəyanətkarlığı, ədliyyənin pozğun və çirkin hərəkətləri haqqında bəzi sözlər danışdı. Mən ona dedim, ağa siz elə xəyal edirsiniz ki, bunları biz bilmirik. Siz belə təsəvvür edirsiniz ki, zindan rəisi Rasixi tanımırıq. Onun hərəkətlərindən xəbərimiz yoxdur. Xəyal edirsiniz ki, məsələn, Muxtarinin necə adam olduğunu, prokurorun və rəngbərənk məhkəmələrin üzvlərinin nə iş sahibi olduqlarını bilmirik?

Yazıq qoca öz dediklərinə peşnman olaraq təəssüflə dedi: Mən belə xəyal etmirdim ki, siz dərsinizi əzbərləyibsiniz. Axı nə üçün deyirsiniz ki, mən bilirəm? Nə üçün sizin qanacaqlı olduğunuzu başqaları bilsin? Nə üçün savadlı olduğunuzu, yazıb, oxumaq bacardığınızı özgələrə göstərirsiniz? Sən de ki, bilmirəm, de ki, gözüm, qulağım yoxdur. Bu qədər vaxt zindanda qaldığınıza baxmayaraq heç bir təcrübə əldə etməmişsiniz. Bəlkə də xaricdən xəbərdar olmadığınız üçün belə olmuşdur. Ağacan məhz sizə etimad bəslədiyimə görə, məni girə verməyəcəyinizi bildiyimə görə, lap pərdəsiz deməliyəm: bu gün hökumət siyasəti bunu tələb edir ki, cəmiyyətimizdə başa düşən, göz-qulağı açıq olan adamlar olmasınlar. İndi özünüz öz işinizin hesabını gedin.

Bu, təsadüfi danışıqdan ibarət deyildir. Bu növ danışıqlara biz hər addımda rast gəlir və demək olar ki, ona müəyyən dərəcədə adət də etmişik.

Mətləbdən kənara çıxdıq. Məqsədim heç də kitab və yaxud məqalə yazmaq deyil. Bunlar müəyyən qeydlərdən ibarətdir. Ona görə də hər vaxt yadıma nə düşür, onu yazıram. Çünki yazılmasa unudula bilər. Məqsəd zindanın içərisindəki vəziyyəti təsvir etməkdir. Bu qeydlər olmadan «On bir illik xatirələr» adlı digər kitabça bəlkə də bu işin öhdəsindən kifayət qədər gələ bilmədi.

Başqa bir mətləbi də haşiyə olaraq qeyd etmək istəyirəm. Siyasi məhbuslardan biri bir gün şahın «mübarək» hüzuruna ərizə göndərərək, süni cümhuriyyəttələblik hərəkatı günlərində məlumatsızlıq və ya sair amillərin təsiri altında göstərdiyi cüzi xidmətlərini həmin ərizədə xatırlatmış və bununla özünə bəraət qazandırmağa, yeni əsrin «böyük nabiğəsinin» rəhm və «mərdanəlik» hisslərini hərəkətə gətirməklə özünü cəhənnəm deşiyindən xilas etməyə çalışmışdı. Məşhur polkovnik Niyrumənd senzura zamanı ərizəni saxlayıb dərhal ağanı... öz hüzuruna çağıraraq demişdi: «Həmin bu ərizə göstərir ki, sən siyasi bir adam olmuş və yenə də həmin yolu davam etdirirsən. Sən necə cəsarət edib yazırsan ki, «şahın mübarək qədəmləri Baharistanın qarşısına çatan zaman mən onun ayaqları altına çiçək səpənlərdən biri idim».

Bu nə deməkdir? Sən siyasi adam olmağını inkar etmək istəyirsən. Lakin bundan böyük etiraf olarmı? Ağa

məgər sən bilmirsən ki, bu ölkədə siyasət olmamalıdır? Əlahəzrətin tərəfdarlıq göstərənlərə ehtiyacı yoxdur. Dövlətin xeyrinə danışmaq istəyən adamlar da siyasi müqəssir hesab olunurlar. Yüksək düşüncə tələb edən məsələlərə heç kəs qarışmamalıdır. Get ərizəni dəyişdir və belə yaz:

«Mən anlaşılmamazlıq nəticəsində tutularaq altı il müddətində məhkəmə olunmadan Qəsr zindanında həbs edilmiş savadsız və aciz bir adamam...»

Fərruxinin məclisdə izhari-vücud edib «Əmniyyət» adlı kiçik fraksiya təşkil etmək istədiyi bir vaxtda çox gizli və çox məxfi olan digər milli-siyasi bir təşkilat da məclisdən xaricdə böyük bir ciddiyyətlə, eyni halda səssiz siyasi işlərə qarışır, böyük bir ümumi hərəkat üçün zəminə yaratmaq istəyirdi. Bu da tam mənada böyük və intizamlı bir partiya deyildi. Onun çoxlu özəkləri, şöbə və komitələri yox idi. O, 1920-ci il 3 avqust tarixli çevrilişdən əvvəlki və ya bugünkü «demokrasi» dövrlərinin partiyaları kimi geniş məramnamə, nizamnamə və gurultulu sözlərlə özünü cəmiyyətə təqdim etmirdi. O günlərdə bu iş mümkün olası da deyildi. O dövrdə yalnız qeyd olunan partiyanın üzvlərinin cəmiyyət içərisində böyük nüfuz və etibarı var idi. Buna görə də onlar heç bir təzahürə yol vermədən, öz fikirlərini asanlıqla yayır, haqq sözlərini dolayı yollar ilə xalqın qulağına çatdıra bilirdilər. Bu partiyanın başçıları və üzvləri yalnız şəxsi nufuzlarını işə salmaq yolu ilə təşkilat üçün zəminə yaratmaq və diktatorluq qüvvələrini zəif salaraq ümumi ictimai bir hərəkat hazırlamaq istəyirdilər.

Qeyd olunan milli təşkilatın tanınmış şəxsiyyətlərini (siyasi həyatında və on bir illik zindan dövründə rast gəldiyim adamların) adını çəkmək istəmirəm. Çünki zaman keçdikcə onlar siyasi meydandan çıxsalar da, hələ indiyədək öz sözlərini deməmişlər. Onların bu gün nə etdikləri, sabah isə hansı siyasət yeridəcəkləri bizə məlum deyildir. Lakin bu gün həyatda olmayan və yaxud günün siyasətindən qətiyyətlə uzaqlaşmış adamlar üzərindən sükutla keçmək əqidəmizcə, insafsızlıq olar.

* Dərbənd- Tehranın şimal-qərbində yerləşən yaylağın adıdır.

** Baharistan – İran parlamanı binasının adıdır.

*** Bağeşah - Tehranın qərbində yerləşən kazarmadır. Məhəmmədli Mirzə məşrutəçilərin çoxunu burada aradan aparmışdır.

**** Davər-Riza şahın diktatorluğu dövrüpdə 1931-ci illərdə İranın ədliyyə nazpri olmuşdur.

# MƏRHUM KƏMƏREİ

Bu şəxslərdən biri rəhmətlik Kəmərei olmuşdur. Bu böyük şəxs özünün bütün nüfuz, şöhrət və qüdrətini partiyanın sərəncamına təqdim etmişdi. Partiya üzvləri rəsmi seçkilər keçirilmədən onun rəhbərliyini qəbul edərək nəzəriyyələrindən tam iftixarla tərəfdarlıq edirdilər. Rəhbərlik donu onun boyuna həqiqətən uyğun gəlirdi. Xüsusilə ağaye Kəməreinin o günkü mövqeyi hər kəs üçün müyəssər deyildi. Uzun müddətli azadixahlıq mübarizəsi və sədaqəti nəticəsində paytaxtın (Tehranın) bütün təbəqələrinin nümayəndələri onu görməyə gedirdilər. O öz kiçik qonaq otağında hamını qəbul edirdi. O günkü deputatlar, böyük və kiçik tacirlər, habelə dövlət qulluqçularından tutmuş, sənətkarlar və bazar alverçilərinədək bütün xalq Kəməreinin görüşünə gedir, öz ürək sözlərini heç bir mülahizə və nigaranlıq olmadan onunla ortaya qoyur, şəxsi və ictimai işlərdəki çətinlikləri aradan qaldırmaq üçün məsləhətləşir, kömək alır və rəhbərlik olunurdular. Bu yol ilə hər kəs öz vəziyyətinə müvafiq surətdə cavab alır və onun atalıq nəsihətlərindən istifadə edirdi.

# SALAR ZƏFƏR SƏNCABİ

Adını qələmə gətirmək istədiyim ikinci şəxs Səncabi tayfasının rəhbəri olmuş Salar zəfərdir. Bu gün onun nə vəziyyətdə olmasından heç bir xəbərim yoxdur. Bu qədər bilirəm ki, o, İranda deyil. Aşağıda ətraflı surətdə bu barədə bəhs edəcəyəm. Məlum olduğu kimi o, 1930-cu ildə sərhəddi keçmiş və həmin sətirləri yazdığım bu günədək ölkəyə qayıda bilməmişdir. Səncabi tayfasının qədim tarixi olduğuna görə bu böyük şəxs yalnız paytaxtda deyil, bütün İranda tanınmış və şöhrət qazanmışdır.

Onun ehtiyatlı adam olub özünü zəhmətə salmaq istəməyən böyük qardaşı sərdar Müqtədir zahirən hökumətin siyasətinə tərəfdar olduğunu bildirirdi. Lakin salar Zəfər onun əksinə olaraq mümkün qədər çalışırdı ki, Riza xan şahlığının mənfi cəhətlərini rast gəldiyi bütün adamlara söyləyib və bununla milli partiyanın məqsədi yolunda lazımi fəaliyyət göstərsin.

Salar Zəfər çox ciddi və çevik adam idi. Riza xanın hərbi nazir olduğu vaxt nə səbəbdənsə Həmədanda tutulub həbsə alınır. Salar Zəfər özü eyni zamanda mənimlə dost olan bir şəxsə demişdi ki, Riza xanın göstərişi əsasında onu Həmədan zindanında öldürməli imişlər. Buna baxmayaraq, o tam şücaətlə özünü binanın yuxarı təbəqəsindən tullayıb Tehrapa qaçmış və müxtəlif vasitələr ilə şah tərəfindən bağışlanmışdı.

Qeyd olunan tarixdə salar Zəfər diktatorluq rejimi ilə tam mənası ilə döyüşən bəlkə də yeganə şəxsiyyət olmuşdur. O, Səncabi tayfasının nüfuzu və azadixahdıq şöhrətindən istifadə edirdi. Həmin tayfanın nüfuzu və şöhrəti sayəsində bütün qapılar onun üzünə açıq idi. Adamlar heç bir nigaranlıq çəkmədən onunla müzakirəyə girişirdilər. Çox qorxmaz idi. Heç vaxt ehtiyat qaydalarına riayət etməzdi. Hər hansı vasitə ilə olursa-olsun diktatorluq tilsimini sındırmaq istəyirdi. Kifayət qədər siyasi məlumatının olmadığına, hələ də qəliz elat və tayfa ləhcəsini dəyişə bilmədiyinə baxmayaraq, öz sədaqət və fədakarlığı ilə hamını cəlb edirdi. O, həmişə öz nöqteyi-nəzərini dinləyiciyə qəbul etdirərdi. İnsanlarda olan azadixahlıq və vətənpərvərlik hisslərini çox asanlıqla oyada bilirdi. Çox tələsən, səbrsiz və ehtiyatsız idi.

Bir gün məni «Dezaşubda»* evinə qonaq çağırmışdı. Axşam yeməyindən sonra gəzə-gəzə bağdan çıxıb dağın ətəyi ilə başıyuxarı çıxırdıq. Qədim dostlarımdan biri də təsadüfən bizimlə idi. Onun da necə deyərlər başı çox qazlı idi. O vaxt başqa çarə də yox idi. Yalnız başıqazlı adamlar bir-birləri ilə get-gəl edə bilirdilər. Tək o deyil, o vaxt hamımız başı-qazlı idik. Hamı özünün xəbəri olmadan belə bir vəziyyətə düşürdü. Nəhayət, sıldırım bir qayanın üstündə dayandıq. Tehranın çiraqları ayaqlarımızın altında səyrişirdi. Ətrafımız sakit və aram idi. Mən nədənsə dərin fikrə dalmışdım. Ağalar öz sözlərini sübut etmək üçün bəzən mənim sükutumu pozur, bu və ya digər mühakimələrinə nisbətən öz fikrimi bildirməyə məcbur edirdilər. Nəhayət, onlar öz danışıqlarında get-gedə inqilab məsələsində razılığa gəldilər. Mən də öz xəyali fikirlərimdən uzaqlaşaraq istər-istəməz onların hərarətlə izah etdikləri xəyali bir planı dinlədim.

Bəzən insanlar elə bir fikirlərə qapıla bilirlər ki, adi şəraitdə onun haqqında danışmaq belə mümkün deyil. O gün dostlarımın hissləri o qədər coşmuşdu ki, əgər sözlərinin qarşısını almasaydım, inqilabi hökumətin nazirliklərindən başqa hətta onun ən kiçik qulluqçularının adlarını qeyd edərək, yeni dövlətin vergi üsulunu, torpaqdan istifadə etmək qaydalarını, qonşu dövlətlər ilə münasibət formalarını, mətbuatın, polisin vəzifələrini müəyyənləşdirmək işində də ciddi mübahisə və münaqişə açardılar.

Başqa bir gün Salar Zəfər qabaqcadan xəbər vermədən mənzilimə gəlib müqəddiməsiz olaraq dedi: biz özümüzü azadixah və vətənpərvər adamlar adlandırırıq. Lakin əslində hamımız xəyanətkarıq. Mən də dedim: hamının xəyanətkarlığı haqqında sənin əlində heç bir sübut yoxdur. Bu iddia düzgün deyil. Mən özümü xəyanətkar hesab etmirəm.

O əsəbiləşərək dedi: Yox, hamımız xəyanətkarıq. Mühafizəkarlıq ən böyük xəyanət deməkdir. Siz özünüz də mənim qabaqlarda tanıdığım adam deyilsiniz. Siz də mühafizəkar olmuşsunuz. Ölkəni dağıdırlar, azadlığı aradan aparırlar. Bütün işləri bir quldur, yolkəsən öz əlinə keçirmiş və istədiyini edir. Ölkənin .adlı-sanlı adamlarını bir-birinin ardınca aradan aparırlar. Xalqın malı, canı və namusu ilə oynayırlar. Bir yığın murdar və abırsız adamları iş başına keçirərək xalqın atasını yandırırlar. Biz isə bütün bunları görə-görə öz evlərimizdə sakit əyləşmişik. Əlbəttə, xəyanətkarıq! Daha xəyanətin ki, buynuzu olmaz. Bizim işimizi başqa planetlərdən gəlib sahmana salmayacaqlar. Bu işi mən, sən, Həsən, Hüseyn görməlidir. Bizlər başa düşdüyümüz üçün məsuliyyət daşıyırıq. Yazıq əkinçi bir şey başa düşmür. Xırda alverçi və avam fəhlənin siyasi şüuru yoxdur. hamının atasını yandıran həmin gözyummalar, pərdələmələr, mühafizakarlıqlar... və sairədir.

Ona dedim: Əqidənizcə nə etmək lazımdır? İşlər irəliləmir. Bəs nə edək? Bizim əlimiz boşdur. Silah, pul, polis təşkilatı, ədliyyə və bir sözlə, bütün vasitələr düşmənin əlindədir. Xalq düzgün olaraq deyir ki, əcnəbilər öz ani mənfəətləri xatirinə hakim dairələrin arxasında dururlar. Bəs bizim nəyimiz var?

Dostum dedi:-hamı bu sözləri deyir. Mən isə deyirəm ki, biz iş adamı olsaq, bütün bu vasitələri onların əlindən ala bilərik.

Xülasə, bir çox ehsasatlı sözlərdən sonra Salar Zəfər nüfuzlu şəxslərdən söz açaraq dedi: Artıq bunların üstünə bir qara xətt çəkmək lazımdır. Dünən Müstofülməmalikin yanına getmişdim. İki saatdan artıq müddətdə birlikdə söhbət etdik. Onu, qabağa düşüb fəaliyyət göstərməyə məcbur etmək istəyirdim. Yorucu sözlərindən əsəbiləşirdim. Nəhayət, dedim: ağa bu gün xalq sizin kimi adamlara etimad bəsləyir, sözlərinizə qulaq asır, işarələrinizi gözləyir. Nə üçun mühafizəkarlıq göstərirsiniz. Nə üçün bu qədər öz həyatınıza bağlanmışsınız. Bayrağı qaldırın, kütlə sizin arxanızca gələcək, bıçaq sümüyə çatıbdır. Heç də güman etməyin ki, Riza xan fövqəladə bir adamdır. Onun xalq arasında, hətta əskərlər arasında heç bir nüfuz və etibarı yoxdur. O, kələkbazlıqla işlərini irəli aparır. Tamahkarlıq, oğurluq, günahsız adamları öldürmək onun olub-qalan «abrısını»da aparmışdır. Cəmiyyət daxilində sizin kökünüz var. Hamı sizin arxanızca gələr. Ehmalkarlıq etməyin. Əks təqdirdə tarix sizi bağışlamayacaqdır. Fürsəti fövtə versəniz sabah özünüz peşiman olacaqsınız.

Mən bu sözləri deyərkən ağa (Müstofülməmalik) özünü tox tutmuş, əllərini bir-birinə sürtərək sakit oturmuşdu. O mənə nəsihət verməyə başlayıb dedi: özünu, quru canını, varlığını təhlükə altına salma.

Salar Zəfər sözünə davam edərək dedi: bir neçə gün bundan əvvəl Müşirüddövlənin də hüzuruna getmişdim. Bunlar ümumiyyətlə nəcib, lakin suyu püfləyə-püfləyə içən və əlindən iş gəlməyən adamlardırlar.

Mən dedim: Ağayi Salar Zəfər, onlar nə cür adam olsalar da xəyanət etməzlər. O isə bu sözümdən yenə də dilxor olaraq dedi: Bəli, xəyanət edirlər. Ən böyük xəyanəti məhz onlar etmiş və yenə də edirlər. Onlar öz sərvət, vəzifə və çanlarının qorxusundan işin ilk başlanğıcında Riza xanın qarşısını almadılar. İran xalqı bu qədər hissiyyatsız deyildir. Bu ağalar böyük nüfuz sahibi olduqlarına baxmayaraq şahı duzgün yola sövq etməmişlər. İndi isə onlara deyirəm: Ağalar, nə qədər ki, iş-işdən keçməmişdir, buyurun qabağa düşün. Onlar qorxularından səslərini çıxarmır, sözlərimizi eşitməmək üçün qulaqlarını möhkəm tıxayırlar. Hətta, aramızda olan söhbəti uçüncü bir şəxs eşitməsin deyə, xidmətçini dərhal otaqdan çıxarırlar.

Mən ona dedim: ağa, siz ehtiyatsız və tələsən adamsız. Hal-hazırda dövlətin yaratdığı kəskin terror şəraitində bu kimi işlərin xüsusilə sizin uçün nə kimi nəticələr verəcəyini anlayırsınız?

O dedi ki: hər nə olursa-olsun mənim üçün əhəmiyyəti yoxdur. Sizə deməliyəm ki, İranda yalnız bir nəfər

tam mənasında mərd adamdır.

Mən dedim: bilirəm. Sizin dediyiniz adam milliyun partiyasının rəhbəri Kəmərеidir.

Salar Zəfər dedi: Mən buna fəxr edirəm. Siz də çox duzgun dediniz. Hələlik əlimizdən bir iş gəlməz. Hər halda məclisin dövrəsi qurtarmaq üzrədir. Bu gün, sabah seçkilər başlanacaqdır. Təbliğat və ya mübarizə xatirinə olsa da biz oraya bir neçə nəfər nümayəndə göndərməliyik. Nəticə əldə etmədikdə, heç olmazsa seçkilərin oyuncaq olmasını, xalqın iradəsinin seçkilərdə təsirsiz olduğunu hamıya başa salmalıyıq. Xalqa göstərməliyik ki, Riza xan hələ seçkilərə başlamazdan əvvəl öz nökərlərini deputat etmiş, onların parlemanda yerlərini belə müəyyənləşdirmişdir.

Mən dedim: İndi vəziyyət belədir. Biz nə iş görə bilərik. Bizim təşəbbüslərin nə kimi təsiri ola bilər?

O, dedi: Şübhəsiz, təsiri vardır. Biz bir qədər daha ciddi işləmək niyyətindəyik. Neçə gün bundan əvvəl ağayi Tonkabuninin hüzuruna gedərək ondan xahiş etmişəm ki, Süpəhsalar məscidində və ya daha əlverişli olan başqa bir yerdə seçkilərin azadlığı haqqında nitq söyləsin. Bu günlərdə biz çoxlu işlər görmüşük.

Mən Salar Zəfər Səncabinin sözlərini qəsdən bütün təfsilatı ilə yazdım. Bununla da istəyirdim ki, o qaranlıq və dəhşətli günlərdəki fədakar azadixahların həyatından oxucularımız üçün ən kiçik bir nümunə təqdim edim.

Şübhəsiz ki, bu gün vəziyyətin dəyişdiyi, istibdadın mənhus heykəlini yerlə yeksan edildiyi bir şəraitdə təbii olaraq hamı azadlıqdan danışa bilər. Hamı özünü birinci azadixah və ən böyük demokrat kimi göstərə bilər.

Üzvlərindən iki nəfərini təqdim edib, fəaliyyət və hərəkət tərzlərindən müəyyən qədər danışdığım milliyun təşkilatı 1930-cu ildə Fərruxi və onun parlamandakı dəstəsilə əlaqəyə girərək seçkilərin gedişində birlikdə fəaliyyət etməyi qərara almışdılar. Parleman dəstəsindən yalnız Gilan nümayəndəsi Tüluinin adını qeyd edə bilərəm. Hazırda həyatda olan başqa üzvlər isə əldə olan vasitələrdən istifadə edərək öz fəaliyyətləri haqqında hər cür məlumat nəşr etdirə bilərlər. Şübhəsiz ki, bu işdə müəllifin təsdiqi əsas götürülməlidir. Çünki mərhum Fərruxi onların hər biri haqqında xüsusi olaraq dəfələrlə mənimlə söhbət etmişdir. Yalnız onların icazəsi olmadığını nəzərə alaraq burada adlarını çəkmək istəmədim.

Milliyun partiyasına gəldikdə, Fərruxinin bu barədə öz silahdaşları ilə nə kimi sözlər danışdığını bilmirəm. Forruxi məzkur məsələ haqqında mənimlə də heç bir söhbət etməmişdir. Ancaq həmin partiyanın başçılarından bir neçəsi mənə göstərdikləri etimad üzündən, bu barədə Fərruxi ilə söhbətlər apardıqlarını söylədilər.

Fərruxi məclisin son günlərində iki-üç dəfə çox kəskin müxalif nitqlər söyləmişdi. Onların hamısının mətni partiya tərəfindən hazırlanmışdı. Mərhum Tülui də bir, iki dəfə danışmışdı. Onlara da partiyanın dolayı yolla təsiri olmuşdu.

Nəhayət, hər iki dəstə qərara almışdılar ki,, seçkilərə yenidən başlanması münasibəti ilə ətraflı bir bəyaniyyə yazaraq, onu yalnız şəhərlərdə deyil, bütün İranda gizli vərəqələr şəklində yaysınlar. Təəssüflər olsun ki, hazırda həmin gizli vərəqələrin əsl nüsxəsini əldə etməyə imkanım yoxdur. Siyasi idarənin icazə verdiyi təqdirdə indi bu vərəqəni Rövşənin məhkəmə işindən də əldə etmək olar. Bu mühüm tarixi bir sənəddir. Bu sənəd həmin dövrdə diktatorluq rejimi əleyhinə olan qəhrəmanların əhvali-ruhiyyəsini aydınlaşdırır.

Gizli vərəqələr Dərbənddə, Fərruxinin evində yazılmışdı. Forruxi yaxın dostlarından birinin vasitəsilə onu

çap etdirmişdi. İşin texniki cəhəti də maraqlıdır. Çünki o günədək gizli vərəqələri bir qayda olaraq ya mətbəələrdə, ya da jelatin vasitəsi ilə çap edirdilər. Polis isə hərflər üzrə dərhal mətbəəni müəyyənləşdirir və çap etdirəni tapırdı. Vərəqlər jelatin ilə çap olduqda polis dərhal xətti tanımaq üsulu ilə ipin ucunu ələ gətirirdi.

Qeyd etdiyimiz gizli vərəqələr makinada yazıldıqdan sonra jelatin üsulu ilə çap olunmuşdu. Əgər başqa yollarla məsələnin üstü açılmasaydı, polis gizli vərəqələrin naşirlərini qətiyyən tapa bilməzdi. Bəyannamənin dili də çox kəskin idi. Burada diktatorluq, şah sarayının özbaşınalığı şərh edilir, xalq kütlələrindən tləəb olunurdu ki, seçkilərin üsulu və hökumətin bu işə qarışması əleyhinə ciddi etiraz edərək, parlemana səlahiyyətli şəxslərin seçilməsi uğrunda çalışsınlar.

Məhəmmədəli Rövşənin bu dövrdə partiyanın işində, habelə gizli vərəqələrin hazırlanmasında heç bir iştirakı olmamışdı. Bu işdən onun xəbəri belə yox idi. Yalnız gizli vərəqələrin yayılması zamanı Salar Zəfər öz xüsusi dostluğundan istifadə edərək onun da əlini bu işə qarışdırır və gizli vərəqələrdən müəyyən miqdarını yaymağa məcbur edir. Söz yox ki, vərəqələrin böyük bir hissəsini Fərruxi, Salar Zəfər, Tülui, habelə Fərruxinin parleman fraksiyasının digər üzvləri yaymışdı.

O günlərdə Rövşən Tehrana səfər etmişdi. O, Salar Zəfərin xahişini yerinə yetirmək məqsədilə Kirmanşaha qayıdır. Lakin bu zaman tanışlarından birinin vasitəsilə həmin məsələnin üstü açılır. Siyasi İdarənin məmurları onu izləyərək Qəzvində həbsə alırlar. Yoxlama zamanı həman gizli vərəqələrin bir neçə nüsxəsini onun çamadanından çıxarırlar.

Mən bu qədər bilirəm ki, Rövşən, Milliyyun partiyasının üzvü olmamış, gizli vərəqələrin yazılması və çapdan çıxması haqqında da heç bir məlumatı yox idi. Buna baxmayaraq siyasi idarə onu üç ildən artıq bir müddətdə Qəsr zindanında təklifsiz saxlamışdı.

Rövşən adi bir adam deyildi. Onun özünə məxsus əxlaqi var idi. Yalnız Salar Zəfər ilə dost olduğuna görə zindana düşmüş, bu iş isə ona çox ağır başa gəlmişdi. Hələ zindanda olarkən Rövşənin anası vəfat etdi. O, ağır borca düşdü. Evini sel apardı. Zindanda olduğu üç il müddətində bir adam belə onu görməyə gəlmədi. O, yalnız zindanda verilən yeməklə geçinirdi.

Mən onu zindandan əvvəl də görmüşdüm. Rövşən başına əmmamə qoyardı. Yaxşı yadımda deyil, məclis dövrlərinin birində Kirmanşahın azadixahları və Milliyyun təşkilatı tərəfindən o, Tehrana göndərilərək, mərhum Nüsrətüddövlənin deputatlığı əleyhinə sənədlər gətirmişdi. O, deyirdi: «Fərmanfərma məni güclü mühasirəyə almışdır. Rastlaşdığım bütün adamlar ona tərəfdar çıxırlar. Bir gün o məni öz evinə dəvət edərək, bağda qəbul etdi. O, Kirmanşahlı arvadından olan oğlanlarını məclisə gətirmək haqqında göstəriş verdi. Oğlanlarını mənlə tanış edərək dedi: Bunlar sizin həmşəhərlilərinizdirlər. Bununla da o, Nüsrətddövlənin deputat seçilməspini təbii bir iş olduğunu göstərmək istəyirdi. Onun başqa iki oğlu da bağda yer belləyirdi. Onları mənə göstərərək dedi: Belə xəyal etmə ki, mən yalnız Kirmanşahlı bəsləmişəm, başqa bir dəstəmiz də vardır. Yer belləyən bu iki oğlumu da bolşevik tərbiyə etmişəm.

* Tehranın şimal-şərqində yerləşən yaylağın adıdır.

## MƏHƏMMƏDƏLİ RÖVŞƏNİN HƏBSƏ ALINMASI

Məhəmmədəli Rövşon həbsə alınmazdan əvvəl çox gənc idi. Mən həbs olunduqdan yeddi ay sonra onunla

zindanda görüşdüm. Bu zaman onun saçı-saqqalı ağarmışdı. Deyildiyinə görə bu dəyişiklik bir-iki həftə ərzində baş vermişdi. Lakin əhvali-ruhiyyəsi çox möhkəm idi. Çay və qəlyandan başqa ayrı şeylə maraqlanmırdı.

Bir ruhani ailəsində boya-başa çatdığına baxmayaraq Rövşənin hərəkətləri lotuyana idi. Deyildiyinə görə, Kirmanşahlıların çoxu bu xasiyyətə malik olurlar. Rövşənin əsli İsfahanlı olsa da, öz həyatında oranı görməmişdi. Onunla çox zarafatlaşır və deyib gülürdük. Rövşənin vücudu ilə demək olar ki, zindan bizə təsir etmirdi. Zindanın qurutlu aşı ilə günümüzü xoş keçirirdik. Zindana yeni gələnlər, xüsusilə dövlət əmlakını mənimsəyən adamlar, siyasi məhbusların bu quru-boş şənliyinə təəcüblənirdilər. Onlar hətta, bəzi vaxtlar bizim zarafat və gülüşlərimizə də etiraz edirdilər. Onlardan bəziləri bu etirazı incə yerlərə, hətta siyasi ittihamlara da çəkib aparırdılar. Dövlət əmlakını mənimsəmək üstündə həbsə alınmış bir qoşun polkovniki bir gün bizim zarafatlaşmağımızdan əsəbiləşərək şaha belə bir məktub yazmışdı: «Qəsr zindanı təbliğat mərkəzi olmuşdur. Siyasi məhbuslar qəzet oxuyur və onun ətrafında müzakirələr aparırlar...»

Üst-üstə Rövşən yaxşı yoldaş və istiqanlı adam idi. O öz siyasi abırını və mənliyini də qoruya bilirdi. Bir gün, Rasix onun məktubunu yubatmışdı. Buna görə də zindanın daxili və xaricində olan dostları, hətta Sərtipzadə və Rasix nə qədər təkid edib üzr istədilərsə də o, öz ailəsinə bir daha məktub yazmağa razılıq vermədi. Bir gün ona dedilər ki, Kirmanşahda sənin ölümün haqqında şayiə yayılmışdır. Arvad-uşağına bir məktub yaz. O isə cavab vermədən qəlyanı somürüb bu sözlərə heç bir əhəmiyyət vermədi.

Bir dəfə də zindanda məhbus üçün həyati məsələlərdən biri sayılan primus saxlamaq icazəsi üstündə aclıq elan olunmuşdu. Zindanın rəisi və məmurları müxtəlif vədələr vermək və hədə-qorxu gəlmək yolü ilə hamını bu işdən çəkindirib aclıq elanını sındırmağa məçbur etdilər. Rövşən isə neçə gün susaraq oturduğu yerdən belə trəpənmədi. O, namaz qılmaqdan başqa heç bir hərəkət etmirdi. Nəhayət, zindan rəisi əlacsız qalaraq onun primusunu tam hörmətlə geri qaytarıb icazə verdi ki, könlü istədiyi kimi ondan istifadə etsin.

Qeyd olunduğu kimi, Rövşənin yoldaşlıq və dostluğa böyük əlaqəsi var idi. Yalnız Salar Zəfər ilə dost olduğu üçün o, zindanın bu qədər sarsıdıcı zəhmətlərinə dözürdü. Bu müddətdə Rövşən, hər ikisi ilə dost olmuş müəllifə bir kəlmə belə gilayə və şikayət etmədi. Əksinə olaraq Səncabi tayfası və onun başçıları haqqında həmişə hörmətlə danışardı.

Salar Zəfərdən yenə də bir az yazmaq lazımdır. Ona görə ki, şərhinə başladığımız mövzunu, bunsuz, kifayət qədər aydınlaşdırmaq mümkün deyildir.

Gizli vərəqələrin yayılmasından iki-üç gün keçmişdi. Bir çox adamlar kimi mən də oxuduqdan sonra onu yandırıb, əhvalatı yadımdan çıxarmışdım. O vaxtlar bir çox dostlar kimi, mən də ehtiyatla yaşayırdım. Hətta, xüsusi söhbətlər və şəxsi get-gəl üçün belə öz daimi yaşayış evimdən istifadə edə bilmirdim. Çarəsizlikdən hər hansı bir dostumla, digər bir dostun evində görüşürdüm. Bir gün evlərdən birində ağayi Salar Zəfərlə görüşdük. Söz yox ki, ev sahibi xüsusi bir yol ilə görüş vaxtını tərəflərə bildirmişdi. Bu evin qapısı qıfıllı idi, evdə yaşayanlar hara isə çıxıb getmişdilər. Birdən-birə qapı açılaraq Salar Zəfər evə daxil oldu. Təxminən günorta radələri idi. Mən dedim: çox yaxşı oldu ki, gəldiniz. Evin sahibi çıxıb gedibdir.

İkimiz birlikdə nahar hazırlayıb yedik. O dedi: Doğrudan da qəribə adamlarsınız, dünyadan xəbəriniz yoxdur. Ancaq yemək və yatmaq fikrindəsiniz.

Onun sifəti çox ciddiləşib, qaşları düyünləndi. Təəcüblənərək sual etdim nə xəbər var, nə kimi hadisə baş vermişdir? Axı dünya ki, sona çatmamışdır. Bir tək mənim oturub və ya qaçmağımla dünya dəyişməz. Mənim bu tərzdə danışığımdan sonra o daha da əsəbiləşərək dedi: Sizlər çox pis adamlarsınız. Həmişə

deyirsiniz ki, iradəmizin bəşər müqəddəratına heç bir təsiri yoxdur. Biz kimlərik ki, tarpxin gedişini dəyişdirə bilək.

Mən əvvəldən də bilirdim ki, fəlsəfi və ictimai məsələləri başa düşüb, təhlil etmək onun üçün çətindir. Buna görə də onunla heç vaxt bu zəminədə mübahisəyə girişməzdim. Xüsusilə daha çox dilxor olduğu indiki vaxtda şübhəsiz ki, onunla münaqişəyə girişməməli idim. Məcbur olaraq dedim: çox yaxşı, biz sizin fikirləşdiyiniz adamlar kimnyik, məqsədiniz nədir?

O, dedi: doğrudan da sizinlə, müşküllərin açılması üçün allaha təvəkkül edən adamlar arasında, heç bir fərq yoxdur. Onlar kimi siz də öz iradənizi qiymətləndirmirsiniz. Sonra o əlavə etdi: hələlik bu sözlərin vaxtı deyil. Qardaşım Sərdar Nasiri bir neçə nəfərlə birlikdə Kirmanşahda tutaraq nəzarət altında Tehrana gətirmişlər. Mən hərbi qalada onların yanına getmişdim. Bu isə xilas olmağıma səbəb oldu. Purafəri də həbsə almışlar. Evimizi isə nəzarət altına alaraq ciddi surətdə məni axtarmağa başlamışlar. Özün bilirsən ki, bu dəfə mən ələ keçsəm haqq-hesab qurtarar.

Mən dedim: nə üçün səni tutmaq istəyirlər, sən ki, bir iş görməmisən.

O belə cavab verdi: özünü saymamazlıqa vurma. Şübhəsiz ki, gizli vərəqəni oxuyubsan. Yəqin ki, Rovşənin və başqalarının tutulması ilə işin üstü açılıb və mənim də ayağımı ortalığa çəkiblər.

Mən dedim: Gizli vərəqəni oxumuşam. Lakin məsələnin səninlə nə kimi əlaqəsi ola bilər?

O dedi: əlaqə olsa da, olmasa da vəziyyət belədir. Mən mümkün qədər tez bir vaxtda Tehrandan çıxıb getməliyəm. Xahiş edirəm, qeyd etdiyim adamlarla görüşüb, nəticəni mənə məlumat verəsən. Mən ədliyyə vəkili (M)-nin evindəyəm. Bu adama etimad edirəm. Həman evdə səni gözləyəcəyəm.

Mən onun sifarişlərini dostlarına çatdırdım. Dostların əlindən isə heç bir iş gəlmədi. Bir ay sonra o, əlacsız qalıb Mazandaranlı çarvadarların kömakliyi ilə Tehrandan qaçmağa müvəffəq oldu. Deyildiyinə görə Salar Zəfər iki-üç ay əziyyətdən sonra nəhayət İran sərhəddindən xaric olmağa imkan tapmışdı.

Həmin məsələ üstündə bir çoxları tutuldu. Fərruxi isə fürsətdən istifadə edərək Rusiyaya qaçdı və oradan Almaniyaya getdi. Ağayi Kəmərеinin də öz dediyinə görə, bir neçə dəqiqəliyə polis idarəsinə gətirmişdilər. O deyirdi: çalışırdılar ki, Salar Zəfərin harada olduğunu məndən öyrənsinlər. Eyni halda Salar Zəfərin nə məqsədlə mənim yanıma gəlib-getdiyini soruşurdular.

Kəmərei polis idarəsində verilən suallara cavab olaraq demişdi: Birincisi, mən polis məmuru deyiləm ki, şübhəli adamların yerini öyrənib sizə məlumat verim. Bu iş mənim vəzifə və əxlaqıma uyğun deyil. İkincisi, evimə kimlərin gəlib-getməsi barədə verdiyiniz sorqu-sual yersizdir. Çünki mənim evimin qapısı hamının üzünə açıqdır. Mənim yanıma hamı gələ-bilər, əxlaqım heç vaxt icazə vermir ki, qapımı xalqın üzünə bağlayım. Polis idarəsi adamların mənim evimə gəlmələrinə meyli olmasa, bu haqda qəzetlərdə elan dərc etdirə bilər və bununla da xalq öz təklifini bilər.

Sərdar Nasir, sərdar Müqtədir və başqaları iki ay sonra zindandan buraxıldılar. Lakin Rövşən təqribən dörd il həbsdə qaldı. Kirmanşah alimləri tərəfindən göstərilən təşəbbüs nəticəsində o, zindandan buraxıldı. Lakin sonra İsfahana sürgün edildi. Salar Zəfər isə bir müddət Moskvada olmuşdur. İndi onun harada olması haqqında əldə heç bir düzgün məlumat yoxdur. Təəssüflər olsun ki, müəllif onun ailəsi haqqında da dəqiq məlumata malik deyil.

Sərdar Müqtədir zindandan buraxıldıqdan bir neçə ay sonra vəfat etdi. Zindan onun səhhətinə çox pis təsir göstərmişdi. Çünki onun böyrəkləri ağır xəstə idi. O, ət, yağ və adi xörəkləri yeyə bilmirdi. Zindanda isə pərhiz saxlamaq mümkün deyildi.

Xülasə, seçki məsələsində sarayın özbaşınalığına qarşı yayılmış adi bir gizli vərəqə neçə nəfər rəşadətli adamın aradan getməsinə və bir neçə köklü ailənin dağılmasına səbəb oldu. Təəssüf ki, Muxtarinin dəbdəbəli mühakiməsi cərəyanında da heç kəs bu fədailərin adını belə dilinə gətirmədi.

# DÖVLƏT ƏMLAKINI OĞURLAYIB MƏNİMSƏYƏNLƏR

On bir illik zindan xatirələrimdə vəziyyətini şərh etdiyim kimi, qaranlıq həbs dövrünü keçirdikdən sonra, nəhayət, digər məhbuslarla əlaqə yarada bildim. Həmin il Qəsr zindanı xüsusi bir təntənə ilə yenicə açılmışdı. Köhnə məhbusların bir çoxunu Qəsrə köçürmüşdülər. Zindan məmurlarının dediyinə görə, bu vaxta qədər yalnız istintaq işimizi təkmilləşdirmək məqsədi ilə bizi müvəqqəti məhbəsdə saxlamışdılar. Özü özlüyündə daha heyrətləndirici dastan olan müvəqqəti məhbəsin vəziyyətini şərh etməkdən hələlik vaz keçirəm. Bu barədə ətraflı məlumat əldə etmək istoyənlər bizim «On bir illik xatirə»lərimizi gözləməlidirlər.

Qeyd etdiyim gunlərdə, yəni 1930-cu ilin qış fəslində, dövlət qulluqçularının böyük bir dəstəsini hökumət anbarından oğurluq etmək üstündə müvəqqəti həbsxanada saxlayırdılar. Bu adamlar həbsxanada azad buraxılmışdılar. Dövlət əmlakını oğurlayan məhbuslar zindanın ağır dövrlərində belə, başqa məhbuslara nisbət, xüsusilə siyasi müttəhimlərə nisbət daha azad və daha rahat yaşayırdılar. Başqa cür də gözləmək olmazdı. Ona görə ki, əvvəla, qeyd olunan dövrdə dövlət əmlakını mənimsəmək heç də eyb və nöqsan sayılmırdı. Çünki «məmləkətin sahibi» adlanan şah şəxsən bu işdə, idmançıların dili ilə desək rekord vuraraq, birinci yeri tutmuşdu. İkincisi, dövlət xəzinəsini qarət edənlər polis idarəsi işçilərinə, xüsusilə zindan məmurlarına müəyyən hədiyyə və rüşvət verməklə onların boynuna minir, öz eyşi-işrət vasitələrini istədikləri kimi həbsxanada yaradırdılar. Beləliklə, siyasi məhbusların bütün vasitələrdən məhrum edildiyi ən ağır və ən dəhşətli günlərdə bu cənablar zindanda tam fikir asudəliyi ilə yaşayır və istədiklərini edirdilər.

Məsələn, onlar istədikləri hansı gün və saatda öz adamları və dostları ilə görüşə bilirdilər. Hamama getmək və yaxud məhkəmədə hazır olmaq bəhanəsi ilə zindandan çıxıb, bir tümən rüşvət müqabilində ən alçaq işlərə boyun əyən polis məmurları ilə, istədikləri yerə gedirdilər.

Məhkum edildikdən sonra yenə də ayda bir neçə dəfə öz evlərinə gedərək məlum işlərini görür, idari fırıldaqlarını təkmilləşdirir, sonra sərxoş vəziyyətdə qayıdıb zindana gəlirdilər. Onlar xaricdə belə geyinməyə heyfsləndikləri gözəl paltarlardan zindanın daxilində istifadə edirdilər. Bütün ömür boyu bəlkə də yemədikləri və yalnız zindanda adını eşitdikləri xörəkləri gətirmək üçün sifariş verirdilər. Bu yol ilə onlar bir-birlərinə əyanlıq göstərir və başqalarına ağalıq satırdılar. Başqa məhbusların yetmiş nəfəri kiçik bir otaqda, çürümüş kilimlərin üstündə yaşayıb qışın soyuq gecələrində çirkli və yırtıq adyalın altına sığındıqları halda, zindan məmurlarını öz hədiyyələri ilə ələ alıb özləri üçün «hörmət» və «abır» qazanmış bu oğru ağalar tək otaqlarda yaşayır və həmin otaqları cürbəcür mebel və qiymətli xalılarla da ziynətləndirirdilər. Beləliklə, onlar zindanda İngiltərə lordları və Amerika milyarderlərindən daha yaxşı və daha yüksək həyat sürürdülər.

Qeyd etmək lazımdır ki, bu ağaların zindanda olmaları bütün cəhətlərdən sair məhbuslar üçün çox ağır başa gəlirdi. Zindan məmurları onların rahatlığını təmin etmək xatirinə başqa məhbusların yaşayışını

məhdudlaşdırır, oğruları qorxutmaq məqsədilə digər əlsiz-ayaqsız məhbuslara əzab və işgəncə verirdilər. Xüsusilə polkovnik Rasix bu işdə xüsusi məharət xərcə verirdi. Onun hər ay aldığı rüşvətin ödənilmə vaxtı azacıq gecikdikdə başqa məhbusların yaşadıqları koridorlarda yoxlama işləri başlanırdı. Polislər primusları yenə də məhbusların əlindən tutub alırdılar. Qaçaq yolla zindana tiryək, araq və konyak gətirməkdən imtina edirdilər. Biz öz abrımızı qorumaq, ən adi həyat vasitəsi olan yanacaqdan məhrum olmamaq üçün mübarizəyə qalxırdıq. Bu çəkişmələrdə bir neçə nəfər qaranlıq otaqlara salınırdı. Nəhayət, ağalar polkovnik Rasix ilə razılaşır və bununla da əməliyyat başa çatırdı.

Dövlət əmlakını oğurlamaq üstündə həbsə düşənlər zindanın xüsusi hamamından başqa, rüşvət vermək yolu ilə ümumi hamamdan da ifrat dərəcədə istifadə edirdilər.

Xaricdə qalması hökumət tərəfindən məsləhət görülməyən və yaxud aradan aparılıb, yox edilməsi nəzərdə tutulan bəzi adamları da dövlət əmlakını oğurlamaq ittihamı ilə zindana gətirirdilər. İlk dəfə Nüsrətüddövlə həmin ittiham ilə həbs edilmişdi. Qeyd etmək lazımdır ki, Nüsrətüddövlə özü də başqaları haqqında belə yuxulardan az görməmişdi. Keçmişdə İsfahanda maliyyə işçisi olmuş məşhur Muxtari də müəyyən qədər həmin xəstəliyə tutulmuşdu. Verilən töhmətin tam yalan olduğunu söyləmək mümkün olmasa da, hər halda Teymurtaşı da həmin bəhapə ilə zindana salaraq xaincəsinə, faciəli bir surətdə öldürdülər. Təbrizli məşhur Hüseynağa Fişəngçinin işi bunların hamısından daha gülünc olmuşdur. Şah bu ciddi və fəal adamın ancaq Qəsr zindanında saxlanılmasını məsləhət görmüşdü. Lakin dövlət qulluqçusu olmadığı üçün oğurluq töhmətini ona yapışdıra bilmədilər. Nəhayət, oturub uzun müddət fal açdıqdan sonra dedilər ki, o, qoşun idarələri üçün kontrata götürdüyü parçanı təyin edilmiş ölçüdən bir neçə santimetr enli və ya ensiz toxutdurmuşdur. Bu yol ilə dövlətə böyük məbləğ zərər dəymişdir. Bunun üçün də təbrizli Hüseynağa Fişəngçi zindanda qalmalıdır. Bu gülünc məntiq üzündən onu siyasi koridorda yeddi-səkkiz ay təklifiz saxladılar. Nəhayət, onun zindandan hansı yol ilə xilas olunması mənim üçün məlum olmadı. Ümumiyyətlə, bu yol ilə ittiham edilənlərin sayı az deyildi. Lakin onları dövlət əmlakını həqiqətən oğurlamış adamlarla əsla müqayisə etmək olmaz. Müəyyən məqsəd əsasında dövlət əmlakını oğurlamaq adı ilə ittiham edilən şəxslərin bir çoxu artıq aradan getmişdir. Salamat qalanlar isə heç bir məhkumiyyətləri olmamalarına baxmayaraq istər məclisdə, istərsə də digər səlahiyyətli məqamlarda çəkdikləri zərərlərin ödənilməsi üçün heç bir təşəbbüs göstərmədilər.

Bir sözlə demək lazımdır ki, dövlət əmlakını həqiqətən oğurlayanlar həyasız və murdar adamlar idilər. Fatiminin necə zindandan çıxmasını və oradan bir başa gedib bələdiyyə idarəsində işləməsini, bu gün, ya sabah isə parleman kürsüsündə oturmasını mən heç bir səbəblə izah edə bilmirəm. Bilmirəm bu işləri hamı başa düşür, yoxsa təkcə bizim kimi zindana düşmüş adamlar bu barədə fikirləşirlər.

Fatimi dövlət əmlakını oğurlamışdı. Hər gün də zindanda bir lülə tiryək çəkirdi. Riza xan dövründə isə o, şahın verdiyi amnistidən istifadə etmiş birinci adamdır. İnsan bu işləri gördükdə və yaxud eşitdikdə mat və heyran qalır. Yollar idarəsinin oğruları indi şərəfli adamlar olmuşlar. Onların həm pulu, həm yaşayışı, həm də abır-hörməti, bir sözlə, hər şeyləri vardır. Eşitdiyimə görə ağalar guya öz keçmiş abırlarını bərpa etmək üçün məclisdən xüsusi bir qanun da keçirmişlər. Demək, bizim mühitdə oğurluq, xəyanət, dövlət əmlakını mənimsəmək heç də eyib və günah deyil. Oğru adam deputat, nazir, bələdiyyə rəisi və sair vəzifə sahibi də ola bilər və heç kəsin buna etiraz etməyə haqqı da yoxdur.

Zindan məmurları digər məhbusların hamama getmək növbələrini də həmin oğru ağalara satırdılar. Beləliklə, bu ağalar tif xəstəliyini yayan bitlər ilə birlikdə yazıq məhbusların qanını sorurdular. Bunların bir çoxu zindanda fransızları təqlid də edirdilər. Onlar özlərini Avropa tipli göstərmək üçün donuz ətindən hazırlanan xörək gətirilməsini sifariş verirdilər. Mədələri bu xörəklərə adət etmədikləri üçün onları yedikdən

sonra çıxıb koridorlarda qusurdular.

Qeyd olunduğu kimi həmin ağalar vaxtlarının çoxunu hamamda keçirirdilər. Əlbəttə, zindandan xaricdə tez-tez hamama getmək heç də pis iş deyildi. Lakin zindan daxilində bu iş özü də bir növ oğurluq demək idi. Ona görə ki, zindan məmurları sair məhbusların hamam növbəsini pul ilə ağalara satırdılar. İş bununla bitsəydi yenə də dərd yarı idi. Bu fransızları təqlid edən ağalar hamamın bütün qapı, divarlarını benzin və ya odekolonla yudurdur, sonra benzin çəlləklərinin üstündə uzanaraq başqa məhbuslara bədənlərini masaj etdirirdilər.

Bir qayda olaraq zindanda tiryək çəkmək, araq və başqa keyfləndirici içkilər içmək qadağan idi. Bəzən hörmətli sayılmayan məhbuslara papiros çəkməyə də icazə vermirdilər. Papiros çəkməyə adətkərdə olanlar əlacsızlıqdan pul yığıb baha qiymətə (bir ədədi on şahıya) papiros alırdılar. Onlar bəzən bir papirosu üç nəfərə çəkirdilər. Belə hallarda şəriklər bir-birinin papirosa necə qullab vurmasına diqqət yetirirdilər. Bir halda ki, «hörmətli» məhbusların, yəni dövlət əmlakını mənimsəmiş məhbusların otaqlarında əla papiroslar, qiymətli şərablar, tiryək, şirə, bir sözlə, hər şey bol və firavan idi.

Adam işsiz qaldıqda ürəyi çox şey istəyir. Bəzi rəvayətlərə görə, zindanın eşik həyətində həmin ağalar üçün çox səmimi görüşlər də təşkil edilirdi... Qeyd etdiyim kimi erməni Yusifin zindanda olarkən təzə övlad sahibi olması buna sübutdur... Həmin uşağı görüş zamanı Yusif özü mənimlə tanış etdi. O vaxt yeddinci il idi ki, zindanda yaşayırdı. Uşağın isə beş yaşı var idi. Etibarlı mənbədən belə bir məlumat da eşitmişəm ki, Qəvam Şirazi üçün müəyyən bağın gülxanasında görüş təşkil edilirmiş.

Adi oğrular, cibə girənlər, ümumiyyətlə, qeyri-möhtərəm məhbuslar zindanın dözülməz təzyiq və çətinlikləri qarşısında bir çox hallarda peşiman olduqlarını bildirirdilər. Onlar özlərinə bəraət qazandırmaq üçün ehtiyacı, yoxsulluğu və xoşlarına gəlməyən adamlarla dostlaşmağı bəhanə gətirirdilər. Doğrudan da onların bir çoxu işsizlik, yoxsulluq və aclıq üzündən oğurluq etmiş və nəticədə zindana düşmüşdülər. Hətta, onlardan bəziləri gecələmək üçün yer tapmadıqlarına görə qəsdən oğurluq edərək həbsə düşmüşdülər. Məsələn, bizim zindanda saxlandığımız müddətdə Abbas Təfərişi beş dəfə zindandan buraxıldı. Lakin yenə də zindanda yatmaq üçün qəsdən oğurluğa gedib əvvəlki yerinə qayıtdı. Əskər Ərbabhəsən öz ömrü boyu bəlkə də əlli dəfədən artıq tutulub buraxılmışdı. Elə də Abbas Qəzvini dörd-beş dəfə buraxılıb yenidən tutuldu.

Bir qayda olaraq adi oğrular həftənin ortasında zindandan buraxıldıqda söz verirdilər ki, cümə axşamı yeməyini gəlib zindanda yeyəcəklər. Onlar hətta rəis ilə razılığa gəlirdilər ki, zindandakı yerləri başqa adamlara verilməsin. Zindanda olan cırıq yorğanlarını isə neçə günlüyə kirayəyə verirdilər.

Əvvəllər biz oğrular və digər məhbuslarla daha çox əlaqə saxlayırdıq. Onların macəralı və təhlükəli həyatları haqqındakı əhvalatları eşitməklə özümüzü məşğul edirdik. Bəzi hallarda isə aramızda əmələ gələn səmimiyyət və dostluqdan istifadə edərək onlara dəlil-nəsihət verirdik. Onların verdiyi cavablar bəzən təbii və məntiqi olurdu.

Məsələn, deyirdilər: Siz belə xəyal edirsiniz ki, biz azad yaşamaq və rahatlıq istəmirik. Məgər biz adam deyilik?

Onlar deyirdilər: Siz belə təsəvvür edirsiniz ki, polisin mənfur sifəti bizim xoşumuza gəlir? Yaxud ürəyimiz yoxdur? Qeyrətsiz adamlarıq? Əlbəttə, yox. Bizim haqqımızda yanlış fikirdədirlər. Bütün bunları biz bəlkə də hamıdan yaxşı başa düşürük. Oğurluqdan, ev kəsməkdən, cibə girməkdən, zindana düşməkdən, təqiblərə məruz qalmaqdan, mühakimə olunmaqdan heç də xoşumuz gəlmir. Lakin nə etmək olar, çarəmiz yoxdur,

əlimizdən bir iş gəlmir. Kasıbkarlıq üçün sərmayəmiz yoxdur. Müəyyən peşə, ixtisas sahibi də deyilik ki, heç olmazsa bu yol ilə gündəlik çörəyimizi çıxaraq. Nökərçilik və sair qulluqçuluq işi ilə məşğul olmağa da təhlükəsizlik idarəsinin məmurları maneçilik törədirlər. Harada və hər hansı adamın yanında işə girmək istədiyimiz zaman polis özünü oraya çatdırıb günahlarımızı şişirdir və bununla işləri korlayaraq sahibkarı bizdən çəkindirir.

Bu çətinliklərə baxmayaraq təsadüfən əgər bir dükan açıb və yaxud müəyyən bir kəsbkarlıqla məşğul olmaq istədikdə sərmayəmiz əlimizdən alınır. Dünyanın o başında bir oğurluq baş verdikdə dərhal bizim əlimizi də oraya qatırlar.

Həmin qeyri möhtərəm oğruların əksinə olaraq, hökumət əmlakını mənimsəyən «möhtərəm oğrular» özlərini heç vaxt müqəssir hesab etməyi, zindan dövrünü tam iftixar və alnıaçıqlıqla keçirir. Azad olunduqdan sonra isə həmişəki yol ilə daha yaxşı və daha pullu vəzifələr ələ keçirirdilər.

Beləliklə, demək olar ki, yalnız aftafa oğrularını məhkum edərək ictimaiyyətdən qovurdular. İnsafla desək. dövlət əmlakını mənimsəmək, oğurluğun başqa növlərindən daha pisdir. Hətta yol kəsib adamları soymaq belə, dövlət əmlakını mənimsəmək qədər həyasız hesab oluna bilməz. Çünki, sadə oğurluq və yolkəsənlik yoxsul və dilənçilikdən əmələ gəlir. Bu yoxsulluğu isə bizim pozğun ictimaiyyətimiz törətmişdir. Təlim-tərbiyə vasitələri ümumiləşdirildiyi təqdirdə oğurluq və quldurluq da təbii olaraq aradan gedər. Lakin dövlət əmlakını mənimsəmək tamamilə başqadır. Həmin ittihamla zindana gətirilən adamların çoxu zirək, eyni halda həyasız və özlərini günahsız göstərməyə çalışan ünsürlər idi. Onlar, dövlət idarələrinin orta və ali rütbəli işçilərindən olub, yüksək maaş alan, yaxşı həyat sürən, hətta ad və şöhrət sahibləri olan, adlı-sanlı ailələrə mənsub olan adamlar idilər. Burada oğurluq, yoxsulluq və çarəsizlikdən meydana gəlmirdi. Onlar özləri də bu kimi ünvanları xoşlamırdılar. Bu ağalar sərvətlərini daha da artırmaq, öz eyşü-işrətlərini təmin etmək, avtomaşın və gözəl binalar almaq və daha çox varlanmaq xatirinə oğurluq edirdilər.

Ədliyyə və icraçı qüvvələr onlara bəraət qazandırır, yaxud heç olmazsa adi oğrularla bu ağaların arasında böyük fərq qail olurdu... Bəziləri dövlət əmlakını oğurlayanlara haqq qazandırmaq üçün deyirdi: Dövlət zütlmkardır, o, xalqı zorla soyur. Buna görə də dövlətin malını yemək qətiyyən haram deyildir. Bu, həyasızlığın son nöqtəsidir. Bunlardan soruşmaq lazımdır: Dövlət kimdir? Dövlətin malı haradan toplanmışdır? O, nə kimi yerlərə sərf olunmalıdır?

Əlbəttə, bu suallara cavab vermək istəsək böyük bir kitab yazmaq lazım kələcəkdir...

Burada mən heç də dövlətə bəraət qazandırmaq və onun zülmkar olduğunu inkar etmək fikrində deyiləm. Başqaları kimi də dövləti ideallaşdırmaq istəmirəm. Hələlik bu qədər demək olar ki, dövlət özü özlüyündə heç bir şeyə malik deyil. Dövlətin xəzinəsinə müxtəlif ünvanlar altında toplanılan gəlir və vəsait də İran xalqlarının malıdır. Bu isə dövlət qulluqçularının vasitəsi ilə, yəni həqiqətdə xalq kütləsinin tam mənalı xadimi olan adamların əlilə ictimai işlərə sərf edilməlidnr. Adamlar vergiləri heç də dövlət qulluqçularının xatiri üçün ödəmirlər. Xalq hökumət başçılarının qaş-gözünə aşiq deyil. Dövlət məmurları vergini ona görə toplayırlar ki, bu vergi yeniyetmələrin tərbiyəsi, ölkədə əmniyyətin təmin və bərqərar olunması, sərhədlərin qorunması, bir sözlə, xalqın minlərlə bu kimi ictimai dərdlərinə çarə qılmağa sərf olunsun. Heç bir ağıllı adam bu pulların oğurlanmasını qanuni bir iş hesab etməz.

Lakin bir ovuc həyasız, lovğa adamlar müxtəlif vasitələrə əl atmaq və min cür fırıldaq işlətməklə, hökumət idarələrində sürətlə yüksək vəzifələrə çatıb, çoxlu maaş alırlar. Sonra onlar öz oğurluqlarına, dövlətin zülmkar olması ilə bəraət qazandırmaq istəyirlər. Bəzən naşılıq edib tutulduqda zindanda özlərini dövlət

əleyhinə mübarizə aparan şərafətli adam kimi göstərməyə çalışırlar. Müxtəlif yollarla zindandan buraxıldıqdan sonra oğurluq yolu ilə əldə etdikləri sərvət və etibar hesabına özlərinə «abırlı» bir ailə təşkil edib «alnı açıq» həyat sürməyə başlayırlar. Maraqlı burasıdır ki, bu ağalar başqalarını lağa qoyub istehza edirlər. Bu vəziyyət hələ indi də davam etməkdədir.

Qanunların incəliklərini izah və təhlil etmək bu işdə çox təcrübəli olan adamlara aiddir. Mən isə həmin təhlükəli təhlilin qurbanı olmuş adamlar haqqında bir neçə mənzərəni təsvir etmək istəyirəm. Ümumiyyətlə, mən diktatorluq dövrünün qanunlarına bədbin nəzərlə baxıram. Eyni zamanda qeyd etməliyəm ki, qanun heç də mücərrəd bir şey deyil. Onun muəyyən hissəsi faydalı ola bilər.

Qanun heç də məqsəd və arzu deyildir. O, bir vasitədir. Lakin bu gün qanunu həyata keçirən adamların əqidəsinin əksinə olaraq, o, heç də intiqam vasitisinə, hətta yersiz cəzalandırmaq və tənbeh etmək vasitəsinə çevrilməməlidir. Sadəcə olaraq demək lazımdır ki, qanun cəmiyyəti islah etmək vasitəsidir. İndi belə olmasa da nəhayət, bu cür olmalıdır. Hal-hazırda dünya alimləri həmin zəminə üzərində işləyirlər. Bu yüksək fikir geç-tez həyata keçirilməlidir. Hələlik bu ümumi bəhsdən sərfnəzər edək.

Bədbəxtlikdən İranda vəhşilik və zülmkarlıq vasitəsi adlanan qanunlar belə, düzgün icra edilmir. Bundan əlavə səlahiyyətli adamların fikrincə mövcud qanunların bir çoxu, ölkə qanuni-əsasisinin əksinə olaraq tərtib edilmiş və onların vəz edilməsində qanunvericilik üsulu gözlənilməmişdir. Biz zindanda olarkən eşidirdik ki, qarşıya çıxan hadisələr ilə əlaqədar olaraq ədliyyə naziri tələsik surətdə bir neçə maddəni kağız üzərinə gətirib məclisə təqdim edirdi. Məclis rəisi sınaqdan keçirmək bəhanəsi altında həmin cızma-qaraları parlemanın təsdiqinə çatdırırdı. Qanunsuz həbslər və başqa irticaçı tədbirlərin həyata keçirilməsində məhz həmin maddələrdən istifadə olunurdu. Necə deyərlər, Napoleonun atasına min rəhmət. O, qanunvericilik səlahiyyətini xalq nümayəndələrinin əlindən almışdısa da, bu işi heç olmazsa mütəxəssislər şurasına tapşırmışdı. Diktatorluq dövründə isə bu iş Davərə və onun canişinlərinə belə tapşırılmırdı. Bu dövrdə vəz edilən bir neçə mühüm qanunlar polis idarəsinin ən cahil məmurları tərəfindən hazırlanmışdı. «Ölkənin mənafeyi əleyhinə təşəbbüs göstərənlər» adlı gülünc qanun siyasi idarədə yazılmışdı. On ildən sonra həmin qara qanunun da əksinə rəftar edərək, bir dəstəni heç bir dəlil olmadan tutub məhkum etdilər. Həman qanun, çıxarıldığı vaxtdan bir neçə il qabağa da aid edilirdi. Məsələn, Fuladinin dostları, həmin qanun və onlar həbsə alındıqdan sonra tələsik surətdə hazırlanmış başqa qanunlar əsasında mühakimə olundular.

Cəza divanı qanunu da İsfahan maliyyə idarəsinin vəsaitini oğurlamış adamların məhkum edilməsi xatirinə tərtib olunmuşdu. İstənilən hər bir kəsi asanlıqla ölümə məhkum edən qoşun məhkəməsi qanunları da çox sadə və adi bir məktub kimi yazılmış və məşhur cəllad Xələtbərinin əlinə tapşırılmışdı. Bunların bir çoxu isə sınaq məqsədilə tərtib olunan qanunlar idi.

## QANUN VƏ ONUN TƏSİRLƏRİ

Sınaq məqsədilə qanun hazırlamaq sözünü adam eşitdikdə atalar demişkən az qalır buynuz çıxarsın. Axı, sınaq məqsədilə də xalqın müqəddəratı ilə oynamaq olar, məhkəmədə hakim kürsüsündə əyləşib sınaq məqsədilə ölkənin adamlarını ölüm cəzasına məhkum edənlərin nə kimi məsuliyyəti vardır? Yüzlərlə ölüm hökmü, daimi və uzun müddətli həbs cəzaları vermək, xalqın malını müsadirə etmək haqqında hökm çıxarmaq, bununla da qapunları sınaqdan keçirmək. Axı, belə olduqda bəs qəddar olüm cəzalarının, ədalətsiz həbs edilmələrin təqsiri kimin boynuna düşür? Bu qədər maddi və mənəvi zərərləri kim ödəməlidir? İranda qanunları sınaqdan çıxarmaq işi, cərrahların dovşanlar üzərində təcrübə əməliyyatı aparmalarına oxşayır.

Qeyd etdiyimiz kimi, bir çox alimlərin əqidəsincə, qanun cəmiyyəti islah etmək vasitəsidir. Onun vasitəsi ilə iğtişaş və ədalətsizliyin qarşısı alınır. Bu tərif kamil olmasa da, bizim qanunverici orqanlar və qanunlarımız həman mərhələyə çatsaydı yenə də dərd yarı olardı. Bədbəxtlikdən, bir neçə ilin təcrübəsi göstərmişdir ki, bizim qanunvericilər bundan daha da geridədirlər. Onlar heç də öz işlərinin həqiqi mənasını başa düşmürlər. Öz vəzifələrini heç də düşüncəli surətdə həyata keçirmirlər.

Müəllif heç də anarxist deyil. Biz anarxistlərin «anarxiya qanunun anasıdır» müddəasını boş bir utopiya və xam xəyal hesab edirik. Eyni halda biz Sokratın da müridlərindən deyilik. Əqidəmizcə ədalətsiz və qələt bir qanuna itaət etmək çox təhlükəli və çirkin bir hərəkətdir.

Bununla belə, bütün qanunları tapdalamaq olmaz. Əlbəttə, qanun lazımdır. Cəmiyyəti qanunsuz idarə etmək olmaz. Nizam-intizam da çox ciddi və kəskin olmalıdır. Bunsuz cəmiyyətin həyatı indiki həyatımız kimi təhlükəli və məyusedici olar. Lakin nizam-intizam və qanun bu və ya başqasının həvəs və ehtirası üzündən deyil, tam vəhdət və möhkəm bir əsas üzərində qurulmalıdır.

Dünya daima hərəkətdə və dəyişmədədir. Bəşəriyyət hər gün keçmişə nisbətən daha sürətlə irəliləyir. Onun ümumi mədəniyyəti və maarifinin inkişafı hər an heyrətləndirici surətdə artmaqdadır. Tərəqqi yoluna qədəm qoymuş millətlər təbiətin qarşısıalınmaz inkişaf qanununu heç vaxt yaddan çıxarmayıb, öz maddi və mənəvi vəziyyətlərini onunla uyğunlaşdırmalıdırlar.

Bundan əlavə bəşəriyyətin müxtəlif ictimaiyyətləri daxilində cürbəcür döyüş və mübarizələr olmuşdur. Onların içərisində başqalarına nisbətən nizam-intizamı daha möhkəm və daha düzgün olan ictimai, başqalarından xeyli irəli düşərək, öz üstünlük və hökmranlığını təmin edə bilər.

Zənnimcə, bu ictimai qanunu isbat etmək üçün o qədər dəlil və sübuta ehtiyac yoxdur. Məhv olub aradan getmiş millətlərin tarixinə azacıq nəzər saldıqda həmin acı həqiqət gözümüz qarşısında canlanır... Hörmətli oxucular deyə bilərlər ki, zindan xatirələrinin qanun və millət məsələləri ilə nə kimi əlaqəsi ola bilər. Bəli, bunlar bir-biri ilə əlaqədardır... Qanun cəmiyyətin ehtiyacları əsasında hazırlanıb və islah edilməlidir...

Biz zindana gətirilən zaman Tehranın müvəqqəti həbsxanasında, mərkəzi zindan və hərbi qalada saxlanılan məhbusların sayı təqribən min nəfərə yaxın olardı. Mərkəzi zindn binası əslində altı yüz məhbus üçün tikilmişdi. Məni Qəsrə köçürən zaman, oradakı otaqların çoxu boş idi. İki nömrəli koridorda yalnız Azərbaycandan yenicə gətirilmiş on səkkiz nəfər saxlanılırdı. Doqquzuncu koridorda emalatxanalar yerləşirdi. Hamam koridorunda məhbus saxlanılmırdı. Qəsrdə saxlanılan biz məhbusların sayı üst-üstə üç yüz nəfərdən artıq deyildi...

Qəsr zindanına köçdükdən sonra, Davərin sınaqdan keçirmə qanunları sayəsində zindanın bütün koridorları məhbusla dolduruldu. Otaqlardakı məhbusların sayı əlli, altmış, bəlkə də yüzü də ötüb keçdi. Zindandan buraxıldığım zaman altı yüz nəfər üçün nəzərdə tutulmuş bu həbsxanada iki min nəfərdən çox məhbus var idi. Qala zindanında, müvəqqəti məhbəsdə, qadınlara məxsus həbsxanada və tərbiyə evi adlanan binada da üst-üstə bir o qədər məhbus saxlanıldığını ehtimal etmək olardı. Ömürlük həbs cəzasına məhkum olanların sayı gündən-günə artaraq 1940-cı ildə iki yüz nəfərdən çox idi. Ağır həbs cəzasına məhkum olanların sayı da gündən-günə artırdı.

İsfəndiyari deyirdi: Vətən öz intiqamını alır. O, şübhəsnz ki, iyrənc sözü həmin dövrdə çıxan yaltaq qəzetlərdən və yaxud başqalarından öyrənmişdi.

Füruzeş deyirdi ki, biz dövlət əleyhinə olanların kökünü kəsmək və zindan vasitəsi ilə onlardan əlahəzrətin

intiqamını almaq istəyirik. Bu sözlər nə qədər şit və iyrənc idi. Bunlar heç də onların öz sözü deyildi. Demək lazımdır ki, həmin sözləri onlara bəzi aşdan isti kasalar diktə etmişdilər... Deyiləsi sözü demək lazımdır.

Bəli, ictimaiyyətimizin düzgün məqsədi və hədəfi olmamış və yenə də yoxdur. Davərin qanunları, Riza xanın zorakı nizam-intizamı, bugünkü rüsvayçılıq və biabırçılıqdan başqa heç bir fayda verə bilməzdi... Zindan nə deməkdir? Siz sərgüzəşt eşitmək, on bir illik bir məhbusun söhbətlərinə qulaq asmaqla öz hisslərinizi bir növ qidalandırmaq istəyirsiniz. Şübhəsiz, buna nail olacaqsınız. Lakin bir az diqqət etdikdə aydın olur ki, zindandan xaricdəki mühit də sizin həmin tələbatınızı ödəyə bilər. Məgər bütün İran başdan-başa həbsxana deyildi? İctimai məsələlərin hansı sahəsində sizə azadlıq verilmişdi?..